**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ SIĞORTA SEKTORUNDAN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏDQİQİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əzimov Orxan Bəxtiyar**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" _______________ 20__-ci il**

# "ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ SIĞORTA SEKTORUNDAN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏDQİQİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060403 – "Maliyyə"

**İxtisaslaşma:** Sığorta işinin təşkili

**Qrup:** 626

**Magistrant:**
**Əzimov Orxan Bəxtiyar oğlu**

**______________________ imza**

**Elmi rəhbər: i.e.d., prof. Xudiyev Nizami Nəcəfqulu oğlu**

**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil**

**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________imza**

**BAKI – 2022**

**Elm andı**

Mən, Əzimov Orxan Bəxtiyar oğlu and içirəm ki, “Ölkə ərazilərinin işğalı nəticəsində sığorta sektorundan dövlət büdcəsinə azalan daxilolmaların tədqiqi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ SIĞORTA SEKTORUNDAN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏDQİQİ”**


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Ölkəmizin iqtisadiyyatı üçün müstəsna əhəmiyyətə malik olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğal edilməsi Azərbaycanın sığorta sektorunda ciddi itkilərə səbəb olmuşdur. Ümumilikdə Ermənistanın ölkəmizə vurduğu zərərləri qiymətləndirmək və yaranmış itkilərə görə təzminat tələb etmək kifayət qədər mühüm olan mövzulardandır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi işğal səbəbindən ölkə iqtisadiyyatında yaranmış itkilərin fonunda sığorta sektoruna dəymiş zərərləri təhlil edib qiymətləndirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqatda əsasən analiz, ikincil məlumatların təhlili, analoq, korrelyasyon, abstraksiya, müqayisə metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Vurulan maddi zərərləri və itirilmiş daxilolamaları tədqiq edərkən Dövlət Statistika Komitəsinin məlumatlarına geniş yer verilmişdir. İnternet resursları da məlumatların əldə olunmasında mühüm rol oynamışdır. Ümumilikdə dissertasiyada beynəlxalq və hökumət təşkilatlarının hesabatlarından, maliyyə və Qarabağ mövzusunda yazılmış bir çox kitabdan, elmi jurnal və qəzetlərdə çap olunmuş məqalələrdən istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın aparılmasında ən çox çətinlik yaradan amil budur ki, mövzu müəyyən bir regiona xasdır və bu səbəbdən geniş məlumat bazasına sahib deyil.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, torpaqlarımızın işğalı səbəbindən ölkəmizin itirdiyi büdcə daxilolmalarının və sığorta sektorunda baş verən itkilərin miqdarı təxmin edilsə də, bu qiymətləndirməni aparan əsaslı və geniş tədqiqat mövcud deyil. Dissertasiyada işğalın dövlət büdcəsində və sığorta sahəsində yaratdığı itkilər qiymətləndirilmiş, azad edilən ərazilərimizdə iqtisadi inkişaf perspektivləri təhlil edilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Dissertasiya işğal səbəbindən büdcə daxilolmalarında yaranan itkilər, işğal edilmiş ərazilərdə istehsal edilə biləcək ümumi daxili məhsul itkisi, sığorta sektoruna vurulan zərərlərin həcmi, 1-ci Qarabağ müharibəsində dəymiş maddi zərərlərin 2022-ci ilin qiymətlərilə məbləği və s. araşdırmalarını özündə ehtiva edir.**



***Açar sözlər: Qarabağ, sığorta sektoru, işğal, zərər, təzminat***

## “INVESTİGATİON OF THE LOSSES OF STATE BUDGET REVENUES OF AZERBAİJAN İN THE OCCUPİED TERRİTORİES”


## SUMMARY

**The actuality of the subjects: The occupation of Karabakh and East Zangazur economic zones, which are of exceptional importance for the economic of our country, it has caused serious losses in the insurance sector of Azerbaijan. In general, it is important to assess the damage caused by Armenia to our country and to demand compensation for the losses.**

**Purpose and tasks of the research: The purpose of the research is to analyze and evaluate the damage to the insurance sector in the background of losses in the country's economy due to the occupation.**

**Used research methods: The research mainly used analysis, analog, secondary data analysis, correlation, abstraction, comprasion methods.**

**The information base of the research: When studying material damage and loss of revenues, the data of The State Statistical Committee was widely covered. Internet resources have also played an important role in obtaining information. In general, the dissertation uses reports of international and government organizations, many books on finance and Karabakh, articles published in scientific journals and newspapers.**

**Restrictions of research: The most difficult factor in conducting the research is that the topic is specific to a particular region and therefore does not have an extensive database.**

**The novelty and practical results of investigation: The scientific novelty of the research is that although the amount of losses of budget revenues and losses in the insurance sector lost by our country due to occupation of our lands was estimated, there was no substantial and extensive investigation to conduct this assessment. The dissertation assesses the losses caused by the occupation in the state budget and in the insurance sector, analyzes the prospects for economic development in our liberated territories.**

**Scientific-practical significance of results: The dissertation contains information on the loss of budget revenues due to occupation, the losses of gross domestic product in the occupied territories, the amount of losses incurred in the insurance sector, the sum of pecuniary damage caused by the 1st Karabakh War in 2022 prices.**



***Keywords: Karabakh, insurance sector, occupation, damage, compensation***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **ARDSK** | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi |
| **ARDNF** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **BMT** | Birləçmiş Millətlər Təşkilatı |
| **DQMV** | Dağlıq Qarabağ Muxtar Vilayəti |
| **İKT** | İslam Konfransı Təşkilatı |
| **MR** | Muxtar Respublikası |
| **SES** | Su Elektrik Stansiyası |
| **SSR** | Sovet Sosialist Respublikası |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT

**GİRİŞ...........................................................................................................8**

**I FƏSİL. QARABAĞIN İQTİSADİ POTENSİALININ DÖVLƏT BÜDCƏSİNƏ DAXİL OLAN GƏLİRLƏRİN ARTIMINDAKI ƏHƏMİYYƏTİ...................................................................................13**

1.1. Azərbaycan Respublikasının dövlət büdcəsinə daxilolmaların formalaşma mənbələri...........................................................................................................13

1.2. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının Azərbaycan iqtisadiyyatının inkişafındakı əhəmiyyəti.........................................................................................22

1.3. Qarabağ regionunda iqtisadiyyatın müxtəlif sahələri (o cümlədən sığorta sektoru) dövlət büdcəsinə daxil olan gəlirlərin mənbəyi kimi..................................................26

**II FƏSİL. TORPAQLARIMIZIN İŞĞAL EDİLMƏSİ NƏTİCƏSİNDƏ VURULAN SOSİAL-İQTİSADİ ZƏRƏRİN VƏ SIĞORTA SİSTEMİNİN GƏLİRLƏRİNİN AZALMASININ DÖVLƏT BÜDCƏSİNƏ TƏSİRİ.............................................................................................................35**

2.1. Qarabağın işğalı səbəbindən yaranmış sosial-iqtisadi zərərlər və onun təhlili...............................................................................................................35

2.2. İyirmi səkkiz illik işğal dönəmində sığorta sistemindən dövlət büdcəsinə köçürmələrdə baş vermiş itkilərin və ümumilikdə dövlət büdcəsinə dəymiş zərərlərin qiymətləndirilməsi..................................................................................................47

**III FƏSİL. İŞĞALDAN AZAD EDILMIŞ ƏRAZILƏRDƏ GÖRÜLƏ BİLƏCƏK İŞLƏR VƏ DƏYMİŞ ZƏRƏRLƏRIN ARADAN QALDIRILMASI YOLLARI.............................................................................................................59**

3.1. Dövlət büdcəsinə daxilolmaların artımı Qarabağın iqtisadi potensialı və sığorta sektorunun inkişaf perspektivləri fonunda.............................................................59

3.2. Beynəlxalq hüquq normaları çərçivəsində dəymiş zərərlərə görə Ermənistandan tələb edilə biləcək təzminatlar.................................................................................68

**NƏTİCƏ VƏ TƏKLİFLƏR..................................................................................73**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI................................................76**

**ƏLAVƏLƏR.......................................................................................................80**

Cədvəllərin siyahısı...........................................................................................80

# GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycan Respublikasının cənub qərbində yeləşən, tarixi torpaqlarımız olan  Qarabağ regionu Azərbaycan üçün çox böyük əhəmiyyətə malikdir. Bu bölgə geniş iqtisadi imkan və perspektivlərə malikdir. Zəngin təbii resurslara sahib olan bu regionda dağ-mədən, metallurgiya sənayesinin inkişafı üçün filiz faydalı qazıntılar, tikinti sektorunun inkişafı üçün qeyri-fıliz faydalı qazıntılar, aqrar sektorun inkişafı üçün münbit torpaqlar, su ehtiyatları, turizm sahəsinin inkişafı üçün cəlbedici təbiət, tarixi-mədəni abidələr, habelə energetika, xidmət və s. sektorların ikişafı üçün əlverişli imkanlar mövcuddur. İqtisadiyyatın bu və digər sahələrinə yatırılan investisiyalar ölkə iqtisadiyyatına xeyli miqdarda fayda vermək potensialındadır. Təəssüf ki, 80-ci illərin sonlarından başlayan münaqişələrdən sonra torpaqlarımızın iyirmi faizini təşkil edən, 17 min $km^2$-dən artıq ərazini əhatə edən Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş, bu sərvətlər əlimizdən çıxmış və ermənilər tərəfindən istismar edilmişdir. Nəhayət, ordumuzun başlatdığı əks-hücum əməliyyatları nəticəsində iyirmi yeddi illik həsrətə son qoyuldu və torpaqlarımız həqiqi sahiblərinə geri qaytarıldı.

İşğal olunmuş ərazilərimizin işğaldan azad edilməsi ölkəmizin iqtisadiyyatının inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Bu ərazilərimizin iyirmi səkkiz illik işğalı dönəmində iqtisadiyyatımıza və dövlət büdcəsinə, eləcə də sığorta sisteminə külli miqdarda zərər dəymişdir. Bu zərərlərin tədqiqi və qiymətləndirilməsi bizim üçün çox zəruridir. Çünki, iqtisadiyyatımıza dəyən maddi zərərlər, büdcədə baş vermiş itkilərin doğru və dəqiq qiymətləndirilməsi mümkün olduğu qədər qısa müddət ərzində zərərləri kompensasiya etmək, düzgün iqtisadi siyasət və strategiya seçmək üçün qarşımızda duran ən  mühüm məsələlərdən biridir. Eyni zamanda vurduqları ziyanın qarşılığında zərərlərə mütənasib şəkildə qarşı tərəfdən  təzminat təzminat tələb etmək üçün dəymiş ziyan düzgün təhlil edilməlidir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi**: Dissertasiyada işğal olunmuş ərazilərimizin iqtisadi potensialı təhlil edilərək, işğal dönəmində Azərbaycan Respublikasının dövlət büdcəsinə və daha sonra bu rəqəmlərdən yola çıxaraq sığorta sektoruna dəymiş zərərlər tədqiq olunur. Bundan əvvəl bəzi hesabat və araşdırmalarda bu işğalın ölkəmizə vurduğu zərərlər müəyyən qədər təhlil edilmişdir. Bunlara misal olaraq E.S. Süleymanov və V.E. Süleymanovun araşdırmasını, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri və "Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu" tərəfindən hazırlanan hesabatı və s. nümunə göstərə bilərik.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın məqsədi Qarabağın işğal edilməsindən dövlət büdcəsində və sığorta sistemində, o cümlədən ümumilikdə iqtisadiyyatımızda baş vermiş itkilərin tədqiq edilib qiymətləndirilməsidir. Həmçinin tədqiqatda Qarabağın gələcəkdə dövlət büdcəsinə gətirə biləcəyi gəlirlər və dəymiş zərərlərə görə qarşı tərəfdən tələb edilə biləcək təzminatlara da yer verilməkdədir.

Tədqiqatın məqsədlərinə çatmaq üçün qarşımızda müəyyən vəzifələr durur ki, aşağıda sadalananlar bu vəzifələrdəndir:

- Büdcə və onun gəlir mənbələri haqqında məlumat vermək;
- Azərbaycan Respublikasının dövlət büdcəsi gəlirlərinin formalaşma mənbələrini müəyyənləşdirmək;
- Qarabağın Azərbaycan iqtisadiyyatındakı əhəmiyyətini və iqtisadi potensialını təhlil etmək;
- Regionun işğaldan əvvəlki dönəmlərdəki iqtisadiyyatını tədqiq etmək və digər regionların işğaldan sonrakı illərdən indiyə qədər olan zaman kəsimində iqtisadi inkişaf dinamikasına nəzər salıb müqayisələt aparmaq;
- Hərbi təcavüz və işğalın iqtisadiyyatımıza, dövlət büdcəsinə və sığorta sisteminə vurduğu zərərləri qiymətləndirmək;
- Qarabağın iqtisadi perspektivləri fonunda gələcəkdə bölgədə görülə biləcək işləri təhlil etmək;

- Vurulmuş zərərlərə görə beynəlxalq hüquq əsasında təzminat tələb etmək və zərərləri kompensasiya etmək.

**Tədqiqatın obyekti və predmeti:** Sığorta sistemi və büdcə daxilolmaları tədqiqatın obyektini, azad edilmiş rayonlarımızın iqtisadi potensialı isə tədqiqatın predmetini təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiyada ən çox istifadə ediləcək metodlardan biri analiz metodudur. Analiz metodu vasitəsilə azad edilmiş ərazilərimizin iqtisadi potensialı və Azərbaycan iqtisadiyyatındakı əhəmiyyəti araşdırılacaq. Bu metod əsasında Şərqi Zəngəzur və Qarabağın iqtisadiyyatı bir bütöv kimi nəzərə alınıb, hissələrə bölünəcək və bu ərazilərimizin müxtəlif iqtisadi sektorlar üzrə potensialı təhlil ediləcək. Buna görə də bəzi məlumatları əldə etmək üçün ikincil məlumatların təhlili metodundan istifadə ediləcək. Bu mənbələrə azad edilmiş ərazilərimizin iqtisadi potensialı və işğal nəticəsində vurulmuş zərərlər haqqında məlumat verən bir çox kitab, elmi jurnal və qəzetlərdə çap edilmiş məqalə və s. daxildir. Həmçinin tədqiqatda Dövlət Statistika Komitəsi və başqa mənbələrdəki rəsmi məlumatlar əsasında müxtəlif cədvəllər tərtib ediləcək.

İstifadə ediləcək metodlardan biri də analoq metodudur. Belə ki, ARDSK-nın məlumatları əsasında ölkə üzrə hər il istehsal edilən ÜDM-nin həcmi göstəriləcək və bu rəqəmlər toplanacaq. Sonra isə Azərbaycanın müxtəlif iqtisadi rayonlarının illər üzrə ÜDM istehsalındakı xüsusi çəkiləri göstəriləcək və elmi abstraksiya metodu vasitəsilə Azərbaycanın 20 %-ini təşkil edən azad edilmiş ərazilərimizin ÜDM istehsalındakı mümkün çəkisi qiymətləndiriləcək. Bu bizə işğal səbəbindən itirdiyimiz ÜDM istehsalının həcmini hesablamağa imkan verəcək. İşğal nəticəsində itirilmiş büdcə daxilolmalarını qiymətləndirmək üçün isə analiz metodu ilə ARDSK-nın məlumatları əsasında illər üzrə ÜDM-yə düşən vergilərin xüsusi çəkisi təhlil edilərək, həmin ərazilərimizin orta vergü yükü qiymətləndiriləcək. Daha sonra isə vergi yükü əsasında, korrelyasyon metodla işğal dövrü ərzində itirdiyimiz gəlirlər hesablanacaq. Həmçinin sığorta sisteminin ÜDM-də xüsusi çəkisi əsasında sığorta sistemində

yaranan itkilər qiymətləndiriləcəkdir. Müqayisə metoduna da tədqiqatda yer veriləcək ki, bu da illər ərzində baş verən dəyişiklərə nəzərən itkilərin daha dəqiq təsbit edilməsinə yönəlib.

**Tədqiqatın informasiya bazası:** Seçdiyimiz tədqiqat metodlarını tətbiq etmək üçün torpaqlarımızın işğal edilməsi nəticəsində ölkəmizin iqtisadiyyatına dəymiş zərərləri tədqiq edən ədəbiyyatların məlumatlarına geniş yer verilmişdir. Bunlara kitablar, elmi jurnallarda və qəzetlərdə çap olunmuş məqalələr, hökumət və beynəlxalq təşkilatların hesabatları, bir çox internet resursları və rəsmi saytlar daxildir. O cümlədən tədqiqatda Dövlət Statistika Komitəsinin (ARDSK) rəsmi saytının məlumatlarından xeyli istifadə edilmişdir. Xüsusən də 2-ci fəsildə illər üzrə Azərbaycan Respublikası ərazisində 1990-cı illərdən 2021-ci ilə qədər olan zaman kəsimində ümumi daxili məhsulun və büdcə gəlirlərinin real faktiki inkişaf tendensiyasını ölçmək, bununla də işğal nəticəsində işğaldan azad edilmiş rayonlarımızdan büdcəyə daxil ola biləcək gəlirlərin itkisini hesablamaq üçün bu məlumatlardan istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın başlıca məhdudiyyəti mövzunun müəyyən bir regiona aid olması səbəbindən bu barədə lazımi qədər elmi tədqiqatların olmaması, beynəlxalq ədəbiyyatlarda məqalə və jurnalların az olmasıdır. Digər tərəfdən mövzu işğalların başlandığı zamandan hazırki dövrə kimi büdcəyə və sığorta sisteminə dəymiş zərərləri əhatə etdiyinə görə işğal edilmiş rayonlarımızın 30-40 il əvvəlki ÜDM və büdcə gəlirləri kimi iqtisadi məlumatlarına nəzər salmaq lazımdır. Bu rəqəmləri əldə etmək isə tədqiqatçıya xeyli çətinliklər yaradır. Eyni zamanda hər bir regionun özünəməxsus iqtisadi potensialı və inkişaf perspektivləri mövcuddur. Buna görə də müstəqillik əldə etdiyimiz ildən cari zamana qədər digər regionların iqtisadi inkişaf tendensiyasını nəzərə alıb müqayisə etsək, bu tendensiyanı Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarına tətbiq edib qiymətləndirmə aparmaq bizə müəyyən qədər doğru məlumatlar versə belə, istər bu yolla, istərsə də digər yollarla dəqiq rəqəmlər əldə etmək demək olar ki, mümkün deyil.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiyada torpaqlarımızın işğal edilməsi səbəbindən Azərbaycan Respublikasının dövlət büdcəsinə daxilolmaların itkisi və sığorta sistemində yaranmış itkilər tədqiq edilir. Bu istiqamətdə bəzi araşdırmaların və fikirlərin mövcud olmasına baxmayaraq, bu mövzu ətrafında geniş və əsaslı bir tədqiqat ilə rastlaşmamışıq. Həmçinin dissertasiyada Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyatın müxtəlif sahələrindəki inkişaf perspektivləri müfəssəl şəkildə qeyd edilərək, təhlil edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Sözsüz ki, torpaqlarımızın azad edilməsindən sonra həmin ərazilərin itirilməsi səbəbindən büdcəyə və ümumilikdə iqtisadiyyatımıza dəymiş zərərləri təhlil etmək vacib məsələlərdəndir. Tədqiqatda toxunulacaq mövzulardan biri bu zərərlərin əvəzində təzminat almaq hüququdur. Bunun üçün dəymiş zərərlər və büdcə daxilolmalarında baş verən itkilər qiymətləndirilməlidir. Tədqiqat işində bu mövzuların araşdırılması işin praktiki cəhətdən kifayət qədər əhəmiyyətli olduğunu göstərən amillərdəndir.

Qarabağın işğalı nəticəsində yaranmış itkilərin tədqiq edilməsi və qiymətləndirilməsinin müsbət elmi və praktiki nəticələri aşağıdakılardır:

- İşğalın ilk illərindən cari dövrə kimi olan müddətdə ərazilərimizin itirilməsi və dağıdılması səbəbindən ölkəmizin iqtisadiyyatına vurulmuş maddi zərərlərin həcmi müəyyən edilmişdir;
- İşğalın Azərbaycanın dövlət büdcəsində və sığorta sektorunda yaratdığı itkilər təhlil edilib qiymətləndirilmişdir;
- Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın inkişaf etdirilməsi və büdcə daxilolmalarının artırılması məqsədilə görülə biləcək işlər barədə mülahizələr irəli sürülmüşdür;
- Bu itkilərin qiymətləndirilməsindən sonra beynəlxalq hüquq normaları əsasında Ermənistandan tələb edilə biləcək təzminatlardan bəhs edilmişdir.

# I FƏSİL. QARABAĞIN İQTİSADİ POTENSİALININ DÖVLƏT BÜDCƏSİNƏ DAXİL OLAN GƏLİRLƏRİN ARTIMINDAKI ƏHƏMİYYƏTİ

## 1.1. Azərbaycan Respublikasının dövlət büdcəsinə daxilolmaların formalaşma mənbələri

"Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir" (Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu, maddə 1.1.1). Dövlət büdcəsi dövlətin idarəetmə və maliyyə sisteminin tərkib hissəsi olub, istənilən cəmiyyətin və dövlətin həyatında olduqca əhəmiyyətli rola malikdir. Hər bir dövlətin sosial sferasının və iqtisadiyyatının inkişafını təmin edən ən mühüm amillərindən biri onun maliyyə vəsaitlərinin toplandığı büdcəsidir. Onun ölkənin sosial-iqtisadi funksiyasının həyata keçirilməsində, o cümlədən onun iqtisadiyyatının stabilləşdirilməsində və tənzimlənməsində müstəsna rolu vardır. Bu səbəbdən, büdcə vəsaitlərinin səmərəli istifadəsi çox böyük əhəmiyyət kəsb etməkdədir. Büdcə əsas maliyyə vəsaiti olaraq dövlət hakimiyyətinə və özünüidarəetmə orqanlarına fəaliyyət göstərmələri üçün şərait yaradır.

Hər bir dövlətin maliyyə vəziyyətini əks etdirən onun büdcəsidir və bu maliyyə vəziyyəti əsasında dövlətin vergi siyasəti formlaşdırılır. İqtisadi kateqoriya kimi büdcə maliyyə sisteminin tərkib hissələrindən biri olub, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi, ümumi daxili məhsulun (ÜDM) yenidən bölgüsü, dövlətin sosial siyasətinin həyata keçirilməsinin maliyyə təminatı və mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsi üzərində nəzarət kimi maliyyənin bir neçə funksiyasını yerinə yetirir. Dövlətin sosial, iqtisadi, idarəçilik və s. xərcləri büdcə gəlirləri vasitəsi ilə qarşılanır və dövlətlər bu xərclərini təmin etmək üçün lazım olan gəlirləri yalnız bir mənbədən əldə etmirlər. Tarixin hər bir mərləhəsində bu

dövlətlər, xüsusən vergilər olmaqla müxtəlif gəlir mənbələri vasitəsilə xərclərini maliyyəşdirmişdirlər. Büdcə gəlirləri dövlətin pul vəsaitləri fondlarının yaradılması ilə bağlı olan büdcə münasibətlərindən biridir. Bu gəlirlər dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının vəzifələrini həyata keçirmək üçün stabil maliyyə bazası formalaşdırır. Həmçinin bu gəlirlər yığımın artırılmasına və iqtisadi subyektlərlə inkişafın stabil tendensiyasına zəmin yaradan qarşılıqlı maliyyə münasibətləri formalarının təyin olunması vasitələrilə iqtisadi və sosial proseslərinin hökumət tərəfindən tənzimlənməsinin ən əhəmiyyətli formasıdır. Dövlət büdcəyə gəlir gətirilməsinin bu kimi metodları vasitəsilə pul vəsaitlərini müxtəlif sosial qruplar arasında bölüşdürür. Bununla da dövlət ümumi istehlakın həcminə, eləcə də iqtisadi subyektlərin yığımına təsir göstərir. Bazar iqtisadiyyatına keçid dövrünün hüquq normalarına əsasən tənzimlənən büdcəyə gəlir gətirilməsini təmin etmək əsas vergi metodlarından daha çox istifadə olunmasına gətirib çıxarır. Bu zaman büdcə gəlirləri həm dövlət və bələdiyyə orqanlarına tapşırılan vəzifə və funksiyaları həyata keçirmək üçün onları kifayət qədər pul vəsaitlərilə təmin etmək, həm də iqtisasdi subyektlərin sərəncamında qalmış olan vəsaitin tənzimləmək üçün yönləndirilir. Bu isə dövlətin gəlirlərinin və ümumi daxili məhsulun həcminin artmasına imkan yaradır. Büdcə gəlirlərinin əldə edilməsi üçün seçilmiş vergi metodunun rentabelli olması üçün vergi bazasının təyin olunmasında tətbiq olunan qaydaların, vergi dərəcələrinin həcminin, vergilərin strukturun, tətbiq edilən vergi güzəştlərinin və s. düzgün seçilməsindən asılıdır (Ataşov B.X., Novruzov N.A. və İbrahimov E.Ə., 2014).

Azərbaycan Respublikasının büdcə strukturunun əsası onun unitar respublika olaraq dövlət quruluşu və ölkənin konstitusiyası əsasında müəyyən olunur. Respublikamızın büdcə sistemi Azərbaycan Respublikasının Dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasıınn büdcəsindən, eləcə də yerli büdcələrdən təşkil olunmaqdadır. Bu büdcələrin formalaşma prinsipləri, tərtibi, təsdiqi, icrası, eləcə də onların arasındakı münasibətlər "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında tənzimlənir. Yerli hakimiyyət orqanlarının

büdcələrinə şəhərlərin, rayonların büdcələri, həmçinin, onların bələdiyyələrinin büdcələri daxildir. Yerli büdcələr 78 şəhər, 66 rayon, 14 şəhər rayonları, 261 qəsəbə, 1722 kənd büdcələrindən ibarətdir. Yerli büdcələr gəlir və xərclərinə müvafiq olaraq yuxarı büdcə səviyyələrinə aid edilir (Ataşov B.X., Novruzov N.A. və İbrahimov E.Ə., 2014).

Ölkəmizin büdcə sisteminin fəaliyyəti bəzi prinsiplərə dayanır. Bu prinsiplərə riayət etmək büdcə quruculuğu zamanı zəruridir. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, büdcə sistemi büdcələrin iki prinsipi əsasında qurulur. Bu prinsiplər unitar dövlətlərə xas olan prinsiplərdir. Bunlar vahidlik və müstəqillik prinsipləridir (Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu). Bu qanuna əsasən, vahidlik prinsipi məqsədli büdcə fondlarını formalaşdırmaq, tənzimləyici daxilolma mənbələrindən istifadə etmək, həmçinin müxtəlif səviyyəli büdcələr arasında maliyyə ehtiyyatlarını bölüşdürmək yolu ilə büdcələrin qarşılıqlı əlaqəsinə əsaslanır. Bu prinsip büdcə sənədləri formalarından və vahid büdcə təsnifatlarından istifadə edilməsi, birləşdirilmiş büdcələrin formalaşdırılması üçün aşağı büdcə səviyyələrindən yuxarı səviyyəlilərə informasiyaların ötürülməsi və büdcələrin icrası barədə mütəmadi olaraq hesabatların tərtib edilməsi ilə təmin edilir. Büdcələrin müstəqilliyi isə büdcələrin özünəməxsus mədaxil mənbələrinin mövcudluğu və bu gəlirlərdən istifadə etmək, xərclərin istiqamətlərini təyin etmək hüququnun olması ilə təmin edilir (Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu).

Ölkəmizdə bazar iqtisadiyyatına keçid büdcə idarə olunmasında bir çox əhəmiyyətli dəyişikliklər yaratmışdır. İlk olaraq büdcə gəlirlərinin geniş sisteminin formalaşdırılması bu dəyişikliklərin əsasıdır. Belə ki, gəlirlər büdcənin təsnifləşdirilməsində onların alınması və daxilolma mənbələrinə əsasən qruplaşdılır. Bazar iqtisadiyyatı dövründə büdcənin gəlirlər bölməsinin mahiyyəti müəyyən qədər dəyişikliyə məruz qalmış, sahibkarlıq və çoxmülkiyyətçiliyin tərəqqi etməsini özündə göstərmişdir ki, bu da bazar münasibətlərinin əsas meyarlarındandır (Ataşov B.X., Novruzov N.A. və İbrahimov E.Ə., 2014).

Dövlət büdcəsinin gəlirlərini artırmaq daima dövlət üçün ən əhəmiyyətli məsələlərdən biri olmuşdur. Azərbaycanın büdcə gəlirlərinə Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada Azəbaycanın dövlət büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar və digər ödənişlər və daxilolmalar daxildir (Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu). Bu gəlirlər iki yerə bölünür:

-Mərkəzləşdirilmiş gəlir

-Yerli gəlir

Dövlət büdcəsində müəyyən edilmiş normativlərə uyğun olaraq büdcəyə daxil olan gəlirlərdən yerli gəlirlər çıxıldıqdan sonrakı gəlirlər mərkəzləşdirilmiş gəlirlər adlanır. Yerli gəlirlər isə ayrı-ayrı şəhər və rayonlar üzrə formalaşan gəlirlərdir. (Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu) "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanunununa əsasən, bu il üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri 25868444 min manat, yerli gəlirləri 947556 min manat, mərkəzləşdirilmiş xərcləri 28893988 min manat, yerli xərcləri 985012 min manat məbləğində təsdiq olunub.

Dövlət büdcəsinin gəlirləri dövlətin maliyyəsinin əsasını təşkil edir. Bu gəlirlərin yığımı AR Vergi Məcəlləsi (bura vergilərdən əldə olunan gəlirlər daxildir) və digər qanunvericilik aktları əsasında aparılır. Daxilolmalar qanunla təsdiq edilmiş məbləğdən artıq həcmdə olduqda, həmin məbləğ dövlət büdcəsindən geri qaytarılır və dövlət büdcəsi gəlirlərinin azaldılması aid edilir. Həmçinin büdcə gəlirlərinin maksimum həddi qanunla təsdiq olunan göstəricilərlə məhdudlaşmır. Yəni bu gəlirlər daha çox ola və təsdiq olunan göstəriciləri aşa bilər (Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu).

Dövlət Statistika Komitəsinin məlumatlarına nəzər saldıqda son illər ərzində büdcə daxilolmalarında nəzərə çarpacaq qədər artım müşahidən edilir. 2017-ci ildə büdcə gəlirlərinin cəmi 16515,7 mln. manat olduğu halda, növbəti il gəlirlərin həcmi

36% artaraq 22508,9 mln. manata, 2021-ci ildə isə 26631.7 mln. manata çatmışdır (Cədvəl 1).

**Cədvəl 1. Dövlət büdcəsinin gəlir və xərcləri (milyon manatla)**

| İllər | Gəlirlər | Xərclər |
|---|---|---|
| **2015** | 17498,0 | 17594,5 |
| **2016** | 17505,7 | 17751,3 |
| **2017** | 16516,7 | 17594,5 |
| **2018** | 22508,9 | 22731,6 |
| **2019** | 24398,5 | 24425,9 |
| **2020** | 26077,9 | 26416,3 |
| **2021** | 26631.7 | 27412,4 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/finance/)

Azərbaycan Respublikasının büdcə gəlirlərinə vergilər, qrantlar və digər gəlirlər daxildir (Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu). Bunlara fiziki və hüquqi şəxslərin gəlir (mənfəət) vergisi, torpaq vergisi, əlavə dəyər vergisi, aksizlər, əmlak vergisi, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar və s. misal göstərmək olar.

***Vergilər*** – şübhə yoxdur ki, dövlət üçün ən başlıca və əhəmiyətli olan gəlir növü vergilərin yığılmasından əldə edilən gəlirlərdir. Bir çox ölkələrdə büdcə daxilolmalarının 70-90 faizini vergilərdən əldə olunan gəlirlər təşkil edir. Dövlət Statistika Komitəsinin göstəricilərinə əsasən, Azərbaycan Respublikasının dövlət büdcəsinə daxil olan gəlirlərin isə (2008-ci ildən sonra) təxminən 50 faizini vergilərin yığılmasından əldə olunan gəlirlər təşkil edir. Tarix boyu iqtisadçılar tərəfindən vergiyə müxtəlif təriflər verilmişdir. Düşünürük ki, bu təriflər içərisində verginin mahiyyətini qısa və aydın şəkildə izah edən təriflərdən biri budur: "Vergi, qarşılığında heç bir birbaşa əvəz alınmayan (qarşılıqsız) və hökumət tərəfindən təyin edilən məcburi yığım növüdür" (James S. and Nobes C., 2012-2013, p. 10). Tarix boyu dövlətlər büdcələrini formalaşdırmaq, ölkənin iqtisadi, hərbi, sosial və digər xərclərini qarşılamaq üçün maliyyə vəsaitinə ehtiyac duymuşdur ki, bunun üçün ölkə

əhalisindən onların gəlirlərinin müəyyən bir hissəsini məcburi yığım kimi toplamışdır. Digər gəlir növlərilə verginin əsas fərqi onun qarşılıqsız olmasıdır. Bu o deməkdir ki, vergi ödəyiciləri bu ödənişə görə dövlətdən mal və ya xidmət kimi heç bir şey tələb edə bilməz. Vergilərlə maliyyələşdirilmiş dövlətin istehsal etdiyi mal və xidmətlərdən hamı isə ödədiyi vergi məbləğinə görə yox, bərabər şəkildə faydalanmaq hüququna malikdir (Bulut C. və Süleymanov E., 2011).

Dövlət büdcəsinə gələcək olan gəlirlərin (həm vergi, həm də digər növlər) məbləği hər ilin sonu növbəti il üzrə "Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında" qanunu ilə təsdiq olunur. Bu qanunda vergi daxilolmalırının mənbələri və müvafiq olaraq bu mənbələrdən gözlənilən gəlirlərin həcmi göstərilir. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanuna əsasən, 2022-ci il üzrə vergilərdən dövlət büdcəsinə daxil olan gəlirlər aşağıdakı kimi nəzərdə tutulub (Cədvəl 2):

**Cədvəl 2. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri**

| **Gəlirlərin mənbələri** | **Məbləğ (min manatla)** |
|---|---|
| Fiziki şəxslərin gəlir vergisi | 1 485 000,0 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 670 000,0 |
| Hüquqi şəxslərin torpaq vergisi | 46 000,0 |
| Hüquqi şəxslərin əmlak vergisi | 236 045,0 |
| Əlavə dəyər vergisi | 5 278 700,0 |
| Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 910 000,0 |
| Sadələşdirilmiş vergi | 200 000,0 |
| Aksizlər | 1 266 847,0 |
| Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 160 000,0 |
| Yol vergisi | 116 500,0 |
| Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 40 000,0 |
| Mədən vergisi | 142 023,0 |

**Mənbə:** "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanunu, (https://president.az/az/articles/view/54776)

Vergi növlərinin özünəməxsus xüsusiyyətləri və vergi dərəcələri mövcuddur. Bu vergi növlərindən bəzilərini qeyd edək:

*Əlavə dəyər vergisi.* 1954-cü ildə Fransız iqtisadçı M.Lore tərəfindən təklif olunan əlavə dəyər vergisi (ƏDV) ilk dəfə 1958-ci ildə Fransada tətbiq edilmişdir. 1967-ci ildə Avropada tətbiq edilməyə başlayan bu vergi növü, artıq bütün Avropa ölkələrində tətbiq olunmaqdadır. Vergidən daxilolmaların 14 faizini bu vergi təşkil edir. Buna baxmayaraq, bəzi inkişaf etmiş ölkələrdə ƏDV tətbiq olunmur. Bunlara Kanada, ABŞ və Yaponiyanı misal göstərə bilərik ki, bu ölkələrdə ƏDV deyil, satışdan vergi tətbiq olunur. Azərbaycanda bu vergi növündən Beynəlxalq Valyuta Fondunun təkilifi ilə 1992-ci ildən etibarən istifdə olunmağa başlandı. O zamana qədər ƏDV-ni əvəz edən dövriyyədən vergi mövcud idi. SSRİ-nin büdcəsinə daxil olan gəlirlərin xeyli hissəsini bu vergi növü təşkil edirdi. Dövriyyədən vergi 1930-cu illərdən etibarən qüvvəyə minmiş və Sovet İttifaqının sonlarına qədər tətbiq edilmişdir. Həmin illərdə iqtisadiyyatımız planlı iqtisadiyyat üzərində qurulmuşdu. Dövriyyədən vergi qiymət tənzimləyicisi funksiyasını yerinə yetirirdi. Maya dəyərinə görə bəzi məhsullar üzrə qiymətləri yüksəldirdi. Amma bu vergi növünün vahid dərəcəsi yox idi və qiymətlərin səviyyəsi dərmanlara, ərzaq məhsullarına, kitablara və s. məhsullar üçün azaldılırdı. Əlavə dəyər vergisi bəzi üstünlüklərə malikdir. Bu vergi növü büdcə gəlirlərinin daimi, sabit mənbəyi hesab edilir və böyük fiskal mahiyyəti vardır (Novruzov N.A. və İbrahimov E.Ə., 2012). ƏDV-nin vergitutma obyektləri bunlardır: təqdim edilən mallar, göstərilən xidmətlər, görülən işlər, ölkəmizin ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı tərtbiq olunan ticarət əlavəsi və vergi tutulan idxal. Həmçinin 2022-ci ilin yanvar ayının 1-dən etibarən 3 il müddətində kənd təsərrüfatı mallarının (həm topdan, həm də pərakəndə) satışı zaman tətbiq olunan ticarət əlavəsi də vergitutma obyektlərindən hesab olunur. ƏDV-nin ödəyicilərinə isə ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməli olan və qeydiyyatdan keçmiş şəxslər daxildir. Bu verginin dərəcəsi (vergi tutulan) əməliyyatın və idxalın dəyərinin 18 %-nə bərabərdir (Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 2021).

2021-ci il ərzində əlavə dəyər vergisinin Azərbaycanın dövlət büdcəsinin gəlirlərindəki payı 19,58 %, başqa sözlə 5214,5 mln. manat məbləğində olmuşdur. ƏDV-nin ÜDM-dəki xüsusi çəkisi isə təxminən 5,62 % nisbətində olmuşdur (https://www.stat.gov.az/).

*Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi.* Hər bir ölkənin vergi siyasətinin ən mühüm tərkib hissələrindən biri mənfəət (gəlir) vergisidir. Bu vergi növü birbaşa vergi növü sayılır və onun məbləği təsərrüfat subyektlərinin istehsal-təsərrüfat proseslərinin son nəticələrinə bağlıdır. Mənfəət vergisi ilk dəfə ABŞ və Almaniya hökumətləri tərəfindən tətbiq edilməyə başlanmışdır (Novruzov N.A. və İbrahimov E.Ə., 2012). Azərbaycanın dövlət büdcəsinin formalaşmasında vergilərdən gələn gəlirlər arasında ƏDV-dən sonra ikinci yeri mənfəət vergisi tutur.

Mənfəət vergisi təsərrüfat subyektlərinin Respublika ərazisində, habelə ondan kənarda əldə etdikləri gəlirlərdən təsərrüfat xərcləri çıxıldıqan sonra əldə olunan məbləğə tətbiq edilən 20 % vergi dərəcəsidir. Mənfəət vergisinin ödəyiciləri Azərbaycan Respublikasında fəaliyyət göstərən rezident və qeyri-rezident müəssisələr, həmçinin sahibkarlıq fəaliyyətindən gəlir əldə edən qeyri-kommersiya təşkilatlarıdır. 2021-ci ildə dövlət büdcəsinə 2958,4 milyon manat hüquqi mənfəət vergisi daxil olmuşdur ki, bunun da büdcə gəlirlərində xüsusi çəkisi 9% və ÜDM-da xüsusi çəkisi isə 3,19% faiz təşkil edir (https://www.stat.gov.az/).

*Fiziki şəxslərin gəlir vergisi.* Gəlir vergisinin də ödəyiciləri həm rezident, həm də qeyri-rezident şəxslərdir. Bu gəlirlərin artımı əhalinin sayından və gəlirlərinin artımından asıldır. 2021-ci ildə fiziki şəxslərin gəlir vergisinin büdcə daxilolmalarındakı xüsusi çəkisi 4,49 % və ya 1194,6 milyon manat, vergi daxilolmalarında 9,45 %, ÜDM-də isə təxminən 1,29 % oldu (https://www.stat.gov.az/). Belə demək mümkün olarsa, büdcə və digər fondların formalaşdırılmasında fiziki şəxslərlə dövlət arasında yaranan qarşılıqlı pul münasibətləri fiziki şəxslərdən tutulan vergilərin mahiyyətini təşkil edir.

Vergi məcəlləsinə əsasən, fiziki şəxslərin gəlir vergisi cədvəl 3-də və 4-də göstərilənlərə müvafiq olaraq tutulur:

**Cədvəl 3. Fiziki şəxslərin aylıq gəlirlərindən tutulan vergilərin dərəcələri**

| Vergi tutulan aylıq gəlirin mənbəyi | Verginin məbləği |
|---|---|
| 2500 manatadək | 14 faiz |
| 2500 manatadan çox olduqda | 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi |

**Mənbə**:Azərbaycan Respublikasının Vergi Məcəlləsi, (https://www/taxes.gov.az/az/page/ar-vergi-mecellesi)

**Cədvəl 4. Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərinin aylıq gəlirlərindən tutulan vergilərin dərəcələri**

| Vergiyə cəlb edilən aylıq gəlir | Verginin dərəcəsi |
|---|---|
| 8000 manatadək | 0 faiz |
| 8000 manatdan çox olduqda | 8000 manatdan çox olan məbləğin 14 faizi |

**Mənbə**: Azərbaycan Respublikasının Vergi Məcəlləsi (https://www/taxes.gov.az/az/page/ar-vergi-mecellesi)

***Rüsumlar***. Vergilərə xarakterik xüsusiyyətlər rüsum və yığımlardan fərqlənir. Rüsum hər hansı bir təsərrüfat obyekti və ya vətəndaşın fəaliyyətinə görə tutulan vəsaitdir. Onların tətbiq edilməsində əsas məqsəd rüsumların yığılmasını təmin edən dövlət qurumunun yaranan xərclərini qarşılamaqdır Rüsum vergidən fərqli olaraq konkret bir fəaliyyətə görə tutulurm. Azərbaycan Respublikasında, əsasən 3 rüsum növü mövcuddur: dövlət rüsumu, gömrük rüsumu, birdəfəlik rüsumlar (Novruzov N.A. və İbrahimov E.Ə., 2012). Görmük rüsumları büdcə gəlirlərindəki xüsusi çəkisinə görə digər resurslardan daha çox nəzərə çarpır və daxilolmalardakı payı daha böyükdür. Ötən il yanvar ayından dekabr ayınadək büdcə daxil olmalarında təkcə gömrük rüsumlarının payı 1084459,7 min manat təşkil etmişdir (https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/).

***Qrantlar*** – dövlət üçün mühüm olan proqramların hazırlaması və yerinə yetiilməsi üçün qanunvericilik əsasında dövlətə verilən yardımdır. Qrant donoru (qrant verən) xarici hökumətlər, beynəlxalq təşkilatlar, habelə xarici fiziki və hüquqi şəxslər ola bilər. Xarici hökumətlərdən əldə edilən qrantlara büdcənin

möhkəmləndirilməsi, dövlət üçün mühüm olan proqramların və layihələrin reallaşdırılması üçün alınan qrantlar aiddir. Beynəlxalq təşkilatlar tərəfindən verilən qrantlara isə səhiyyə, təhsil, elm, idman, humanitar inkişaf, xeyriyyəçilik və s. kimi ictimai-sosial sahələrdə proqramların həyata keçirilməsi üçün verilən qrantlar daxildir. Qeyd edilənlərdən başqa, dövlətin idarəetmə sektorunun həlqələri tərəfindən verilən qrantlar da mövcuddur. Bunlara assosiasiyaların, ictimai fondlar, kredit təşkilatları, federasiyalar və digər təşkilatların verdiyi qrantlar daxildir (Novruzov N.A. və İbrahimov E.Ə., 2012).

## 1.2. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının Azərbaycan iqtisadiyyatının inkişafındakı əhəmiyyəti

Kür və Araz çayları arasında, Azərbaycan Respublikasının cənub-qərbində yerləşən, zəngin tarixə və mədəni irsə malik, xalqımızın ən qədim yaşayış məskənlərindən biri olan Qarabağ regionu Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Bu bölgə yalnız Azərbaycanın deyil, dünyanın da ən qədim yaşayış məskənlərindən biridir. Azərbaycanın ayrılmaz hissəsi olan, zəngin təbii resurslara, yüksək iqtisadi potensiala və qədim mədəni-tarixi abidələrə malik olan Qarabağımız, Azərbaycan xalqının etno-mədəni irsinin mərkəzlərindən biri olmuş, qədim Azərbaycan sivilizasiyasının beşiyi hesab edilmişdir.Yerləşdiyi coğrafi mövqeyi, zəngin təbii resursları, münbit torpaqları, o cümlədən filiz faydalı qazıntıları ilə ölkəmizdə özünəməxsus yer tutur. Bölgənin bu kimi sərvətlərə malik olması onun ölkə iqtisadiyyatındakı əhəmiyyətini yüksək dərəcədə artırır. Əfsuslar olsun ki, bəzi bölgələrimiz kimi Qarabağa da ermənilər tərəfindən torpaq iddiası edilmiş və 80-ci illərin sonlarından 1994-cü ilin mayına qədər baş vermiş münaqişələr və hərbi təcavüzün nəticəsində torpaqlarımızın iyirmi faizini təşkil edən, 17 min $km^2$-dən artıq ərazini əhatə edən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və onun ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edilmişdi. Erməni işğalı nəticəsində ölkəmiz 30 ilə yaxın müddətdə buradakı resurslardan məhrum olmuş, iqtisadiyyatımızın kənd

təsərrüfatı, sənaye, turizm kimi sahələrinə böyük həcmdə zərər dəymiş, yeraltı və yerüstü sərvətlərimiz talan edilmişdir. Həmçinin işğalın nəticəsində əhali ata-baba torpaqlarından didərgin düşmüş və ölkədə sosisal problemlər əmələ gəlmişdir. Nəhayət ki, 27 sentyabr 2020-ci ildə şanlı ordumuzun başlatdığı, "Dəmir yumruq" adlanan əks-hücum əməliyyatlarının nəticəsində düşmən darmadağın edilərək torpaqlarımız işğaldan azad edildi. Müharibə bitər-bitməz işğaldan azad edilən ərazilərimizdə yenidənqurma və bərpa işləri başladıldı.

İqtisadi potensialı yüksək olan bölgələr dövlət üçün daim xüsusi əhəmiyyət daşıdığı kimi, özünün iqtisadi perspektivinin yüksək olması səbəbindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da ölkəmiz üçün özünəməxsus əhəmiyyəti vardır. Yüngül, yeyinti sənayeləri, kənd təsərrüfatı, emaledici sənaye, o cümlədən dağ-mədən sənayesi, metallurgiya sənayesi, tikinti və inşaat sektoru, turizm sektoru bu bölgənin iqtisadi potensialının inkişaf etdirilməsinin maddi bazasını təşkil edir. İşğaldan sonrakı dövrlərdə Qarabağ regionunun iqtisadi və maliyyə potensialından istifadə edilməsinin Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarının inkişafında böyük rol oyanayacağı gözlənilir. İlkin hesablamalara nəzərən, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında əsas sahələr üzrə ümumi daxili məhsul istehsalı 2 milyard manatı ötə biləcək. Xüsusilə ölkənin qeyri-neft sektorunun inkişaf etdirilməsi və bu sektor üzrə ÜDM-nin artımının ölkə üçün müstəsna əhəmiyyəti vardır.

Qarabağın yüksək maliyyə və iqtisadi perspektivə sahib olmasının səbəblərindən biri onun zəngin faydalı qazıntılara sahib olmasıdır. Bu ərazilərdə qızıl, mərmər, xromit, civə, mineral sular və s. kimi resurslar vardır ki, bu faydalı qazıntılar bölgədə inkişaf etmiş dağ-mədən sənayesinin yaradılmasına imkan yarada bilər. Şərqi Zəngəzur və Qarabağda mövcud olan filiz faydalı qazıntı yataqları metallurgiya sənayesinin inkişafı üçün böyük əhəmiyyətə sahibdir. Belə ki, burada metallurgiya sənayesində zəruri metallardan biri sayılan mis yataqları mövcuddur. Bundan başqa, burada qurğuşun və sink ehtiyatları da vardır. Bu torpaqlarda tikinti sektorunun inkişafı üçün də bir çox inşaat materiallar mövcuddur. Bunlara tikinti qumu, kərpic,

əhəng daşı, mişar daşı, istehsal üçün zəruri olan materiallar, çınqıl və s. materialları misal göstərə bilərik. Hələ işğaldan əvvəlki dövrlərdə bu regionda yerləşən sənaye sahələri ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyətə malik idi. Xüsusilə tikinti, kənd təsərrüfatı, o cümlədən qida sənayesi, yüngül sənaye kimi sahələr bu ərazilərdə ənənəvi sahələrə çevrilmiş və xeyli inkişaf etmişdir. Qida sektorunun inkişaf etməsində bu ərazilərin çox münbit torpaqlarının olması müstəsna əhəmiyyət kəsb edir. Belə ki, bu torpaqlarda on minlərlə hektar əraziləri əhatə edən üzüm bağları, taxıl, kartof və s. meyvə və tərəvəz yetişdirilən əkin sahələri mövcud idi. Həmçinin bu torpaqlarda ətlik və südlük heyvandarlıq, o cümlədən maldarlıq, qoyunçuluq da ənənəvi və inkişaf etmiş sahələrdən idi. Azərbaycanın ən məşhur yaylaqlarının yerləşdiyi Qarabağ yaylaqlarında iribuynuzlu və xırdabuynuzlu heyvanlar bəslənirdi. Qeyd edək ki, Azərbaycanın yay otlaqlarının 70 faizindən çoxu bu ərazilərdə yerləşir (Süleymanov E.S. və Süleymanov V.E., 2012). Azad edilən rayonlarımızda əkinçilik, maldarlıq, o cümlədən taxılçılıq, pambıqçılıq, bağçılıq, arıçılıq, baramaçılıq, südçülük və digər sahələrin inkişaf etdirilməsiüçün və aqrar sahədə böyük irəliləyişlərə nail olmaq üçün çox böyük imkanlar vardır. Bu imkanlardan səmərəli istifadə edərək və bu irəliləyişlərin fonunda istehsal olunan qida məhsullarının həcmini artıraraq Azərbaycanda əhalanin qida ilə təminatının səviyyəsini, eyni zamanda ərzaq məhsullarının keyfiyyətini daha da yüksəldə bilərik. Bu bölgədə Turşsu və İstisu kimi mineral su mənbələri vardır ki, Sovet dövründə bu suları qablaşdıran müəssisələr fəaliyyət göstərirdi. Bu mineral sular bölgədə kurort, rekreasiya üçün böyük imkanlar yaradan amillərdəndir. Eyni zamanda, Ağdamda və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Qarabağ İpək Kombinatı, ayaqqabı və toxuculuq fabrikləri, mişar daşı və mərmər zavodları kimi kimi bir çox müəssisələr mövcud idi (Manafov Q.N., 2020). Onu da qeyd edək ik, Qarabağın aran hissəsi ilə onun dağlıq hissəsini müqayisə etsək, 1971-1985-ci illər ərzində onun dağlıq hissəsinin 0,7-0,8 dəfə daha sürətlə inkişaf etdiyini müşahidə etmiş olarıq. Bu illər ərzində Qarabağın dağlıq hissəsinə hər il ortalama olaraq təqribən 6,5 mln. ABŞ dolları həcmində sərmayə yatırılmışdır. Belə

ki, statistikaya görə həmin illərdə bu ərazilərə ümumilikdə təxminən 483 mln. sovet rublu və ya 96,6 mln. ABŞ dolları məbləğində investisiya qoyulmuşdur (Xudiyev N.N., 2021).

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları turizm-rekreasiya sektoru üçün də geniş imkanlara malikdir. Bölgənin Kiçik Qafqaz dağlarında yerləşməsi, əsrarəngiz və səfalı təbiətə malik olması, o cümlədən geniş, gözoxşayan meşəliklərə və qiymətli qoruqlara, müalicəvi sular da daxil olmaqla, bol mineral su resurslarına malik olmasının regionda kurort və rekreasiya üçün böyük əhəmiyyəti vardır. Regionda 100-dən çox mineral su mənbələri mövcuddur. Bunlara Kəlbəcər rayonunda yerləşən İstisu, Keşdək, Bağırsaq bulaqlarını, Şuşada Şırlan, Turşsu, Laçın rayonundakı Minkənd, İlıqsu və s. mineral su bulaqlarını nümunə göstərə bilərik. Ümumilikdə Azərbaycan Respublikasında yerləşən mineral su mənbələrinin 40 faizi bu ərazilərdə yerləşir (Süleymanov E.S. və Süleymanov V.E., 2012). Bunun səbəbi isə dağ relyefinə malik olması və 4-cü dövrdə aktiv olmuş vulkanlarla zəngin olan Qarabağ Vulkanik yaylasının bu ərazilərdə yerləşməsidir. Bu mineral suların içərisində ən məşhurlardan olan İstisu mineral sularının özünəməxsus kimyəvi tərkib və temperaturu vardır. Bu səbəbdən burada sutkada 800 ton su istehsal edən böyük sanatoriya və su doldurma zavodu inşa edilmişdi. Bu suların bir çoxu bölgədə tibbi turizmin inkişafı üçün çox böyük imkanlar yaradır. Onlar bəzi xəstəliklərin müalicəsi üçün effektiv vasitələrdəndir. Məsələn, Şuşa ərazisindəki Turşsu mineral suları bəzi daxili xəstəliklərin müalicə edilməsində istifadə edilir. Bu bulaqdan həm də Şuşa şəhərinə su kəməri çəkilmişdi (Sadiqov E.M., 2020). Təbii ki, yeni müəssisələr yaradılaraq bu mineral suları qablaşdırıb xarici bazara çıxarmaq mümkündür. Qarabağın zəngin tarix və mədəniyyətə sahib olması da turizmin inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Ən qədim yaşayış məskənlərindən biri olan Qarabağda bir çox qədim tarixi abidələr mövcuddur. Bunlara məşhur Azıx və Tağlar mağaralarını, Üzərliktəpə, Qaraköpək kurqanlarını və s. misal göstərmək olar. Həmçinin burada Xurşidbanu Natəvan saray kompleksi kimi bir çox tarixi tikililər, imarətlər, türbələr, məscid və

ziyarətgahlar, şərq memarlığını özündə əks etdirən tarixi mədəniyyət abidələri mövcuddur. (Süleymanov E.S. və Süleymanov V.E., 2012).

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları strateji cəhətdən əlverişli mövqeyə sahibdir. Bu bölgə regiondakı qonşularımız olan İran, Rusiya və Türkiyə dövlətlərini, eləcə də Şərqlə Qərbi, Şimal ilə Cənubu birləşdirən, beynəlxalq tranzit rolunu oynayan strateji ərazidə (Azərbaycanda) yerləşir. Bunları nəzərə aldıqda, Qarabağın böyük nəqliyyat-kommunikasiya və tranzit potensialına malik olması aydın olur. Qarabağ ölkəmizin nəqliyyat sistemi üçün çox mühüm geosiyasi və iqtisadi əhəmiyyətə malikdir. Bu  bölgə Azərbaycanın əsas hissəsi ilə illər boyu blokadada qalmış Naxçıvan MR-i birləşdirən əsas nəqliyyat və kommunikasiya bölgəsidir. Eyni zamanda buradan keçəcək olan nəqliyyat xətlərinin mühüm strateji əhəmiyyəti odur ki, bu nəqliyyat xətləri vasitəsilə Türkiyəyə, oradan da Avropaya çıxış əldə edə biləcəyik. Artıq bu istiqamətdə bəzi addımlar atılmışdır və zəruri tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti prezidentlərinin 25 fevral 2020-cı ildə, Bakıda təşkil olunan görüşündə imzalanmış sənədlərə əsasən, Azərbaycanın əsas hissəsilə Naxçıvan MR-i birləşdirən Zəngəzur dəhlizinin davamı olacaq Naxçıvan-Qars dəmir yolunun inşası ilə Azərbaycanı Türkiyə ilə birləşdirən yeni nəqliyyat xətti inşa ediləcək (https://president.az/az/articles/view/35963). Bu nəqliyyat xətti layihəsi bölgənin ticarət və logistika sahələrinin inkişafı üçün xüsusi əhəmiyyətə malikdir.

## 1.3. Qarabağ regionunda iqtisadiyyatın müxtəlif sahələri (o cümlədən sığorta sektoru)  dövlət büdcəsinə daxil olan gəlirlərin mənbəyi kimi

Əvvəlki fəsildə qeyd etdiyimiz kimi, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarına  daxil olan işğaldan azad edilən rayonlarımızın hər biri yüksək iqtisadi inkişaf perspektivlərinə və təbii resurslara malikdir. Bu bölgələrdə iqtisadiyyatın müxtəlif sahələrinin, sənaye, tikinti, kənd təsərrüfatı, turizm, xidmət və s. sektorların inkişafı büdcə daxilolmalarının xeyli artmasıa və sığorta sisteminin inkişafına səbəb

ola bilər. Hələ işğaldan əvvəlki dönəmlərdə Qarabağda ümumilikdə 127 tikinti müəssisəsi və 183-dən artıq sənaye müəssisəsi, 310-dan artıq tikinti və sənaye obyektləri fəaliyyətdə göstərirdi ki, bunların da çox hissəsi DQMV-də yerləşirdi (Süleymanov E.S. və Süleymanov V.E., 2012). Bildiyimiz kimi, işğaldan azad edilmiş ərazilərimiz qeyri-fılizvə fılizfaydalı qazıntı yataqlarının zənginliyi ilə seçilir. Bu qiymətli torpaqlarda ümumilikdə 155 növ faydalı qazıntı yataqları mövcuddur. Bu resurslardan istifadə edilməsi Azərbaycanda metallurgiya və dağ-mədən sənayelərinin yüksəlişində böyük rol oyanaya bilər. İşğaldan əvvəlki, Sovet Azərbaycanı dövründə bu yataqlar ölkə iqtisadiyyatında böyük əhəmiyyətə sahib idi. Qeyri-filiz faydalı qazıntılardan 5 tikinti qumu, 10 mişar daşı, 19 üzlük daşı, 10 gil, 4 sement xammalı, 9 gips, anhidrid və gəc, 9 qum-çınqıl, eləcə də 13 fərqli növdan olan tikinti daşları və digər qeyri-filiz faydalı qazıntı yataqlarını misal göstərə bilərik. Bu qeyri-filiz faydalı qazıntılar tikintidə və inşaat işlərində zəruri olan materiallardır. Bir çox filiz faydalı qazıntılarla zəngin olan Kiçik Qafqaz dağ silsiləsin Qarabağa aid hissəsində də çox qiymətli filiz faydalı qazıntıları mövcuddur. Bunlara 5 qızıl, 2 mis, 6 civə, 1 qurğuşun və sink yataqları aiddir. Qeyd etdiyimiz resurslar Xocavənd, Xocalı, Şuşa, Ağdərə, Göyərçin-Veysəlli, Ağyataq, Zod-tutxun, Narzanlı, Çaxmaqçay, Şorbulaq, Mehmana, Levçay, Ağduzdağ, Zərinbax, Qızılbulaq, Söyüdlü, Soltanlı, və s. yataqlarında aşkar olunmuşdur (http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf). İşğaldan azad etdiyimiz bu ərazilərdə həmin ehtiyatların çıxarılması və burada yeni sənaye mərkəzlərinin tikilməsi ölkə iqtisadiyyatının inkişafına, gəlirlərin artımına və əhalinin məşğulluğunun təmin edilməsində mühüm rol oynaya bilər. Xüsusən də bu ərazilərin mişar daşı, üzlük daşı, gil və digər növlərdən olan tikinti daşları ilə zəngin olması ölkənin tikinti və inşaat sektoru üçün zəruri olan materiallarla təminatı və bu sektorun inkişafı baxımından çox qiymətlidir. İşğaldan əvvəlki dönəmlərdə Azərbaycanda tikinti əhəngi hasilatının təxminən 8 faizi, divar materialları hasilatının 11 faizi, tikinti materialları hasilatının isə 3 faizi Qarabağda formalaşırdı (Süleymanov E.S. və

Süleymanov V.E., 2012). Azad edilən ərazilərimizdə yerləşən tikinti materialları yataqlarında 147 mln. 108 min ton sement xammalı, 965 min ton tikinti daşı, 4 mln. 473 min $m^3$ perlit, 243 min $m^3$ gil, 96 mln. 987 min ton qum-çınqıl, 18 mln. 432 min üzlük daşı, 189 mln. mişar daşı aşkar olunmuşdur. Filiz faydalı qazıntılardan isə 37,3 min ton, 132,6 ton qızıl, 1898,4 ton civə və s. qazıntılar aşkar olunmuşdur. (http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf). Əlbəttə, faydalı qazıntıların çıxarılması zamanı çox diqqət edilməli məsələlərdən biri də ekoloji sistemin qorunmasıdır. Belə ki, tikinti materiallarının çıxarılması zamanı müəyyən ekoloji tələblərə diqqət yetirilmədiyi zaman bölgənin ekoloji vəziyyətinə çox ciddi ziyan dəyə bilər. Təbii ki, bu təkcə tikinti materiallarının çıxarılması zamanı baş vermir. Buna görə də müxtəlif faydalı qazıntı yataqlarının hasilatı və emalı zamanı emal zavodları, karxanalar və digər istehsal müəssisələri ekoloji sistemin pozulmamasına və minimum zərər görməsinə çalışmalıdırlar.

Bütün bu faydalı qazıntıların dövriyyəyə cəlb edilməsi nəticəsində bir çox sənaye sektorlarının inkişafını təmin etmək və müxtəlif məhsulların istehsalını xeyli artırmaq mümkündür. Bu sahələrdən olan metallurgiya sənayesi ölkəmizin maşınqayırma sənayesi, hərbi sənaye kimi ağır sənaye sahələrinin inkişafını təmin etmək potensialına malikdir. Hərbi sənayenin yüksəlişi qüdrətli və müzəffər Azərbaycan ordusunun təchizatının daha da yaxılaşdırılmasına və keyfiyyətinin artırılmasına imkan yarada bilər. Sovet dövründə işğaldan azad etdiyimiz ərazilərimizdəki sənaye müəssisələri ölkə iqtisadiyyıtında xüsusi rola sahib idi. Ən çox inkişaf etmiş sənaye sahələri inşaat materialları, qida və yüngül sənaye sahələri idi. Bunun səbəbi isə bu torpaqların tikinti materialları ilə çox zəngin olması, bostançılıq, bağçılıq, taxılçılıq, pambıqçılıq, üzümçülük və s. təsərrüfatlar üçün münbit torpaqlara malik olması idi. DQMV-nin sənaye sektoru üzrə inkişafı daha çox diqqət çəkir. Bu ərazini Qarabağ sənayesinin mərkəzi adlandırmaq mümkündür. Belə ki, Qarabağın sənaye məhsullarının 40 faizi bu vilayət daxilində istehsal edilirdi. Eyni zamanda Azərbaycanda sayca ən çox sənaye müəssisəsi DQMV-nin ərazisində idi.

Azərbaycan SSR iqtisadi rayonları içərisində sənaye sektoru üzrə 4-cü yerdə olan iqtisadi rayon bu vilayət idi. Bu sahədə ilk yeri Abşeron iqtsadi rayonu tuturdu. Digər yerləri isə Gəncə-Qazax və Naxçıvan MR iqtisadi rayonları tuturdu. Ümumilikdə bu ərazidə 137-yə qədər sənaye müəssisəsi fəaliyyət göstərirdi. DQMV-dən fərqli olaraq Qarabağ ərazisindəki digər rayonlarda sənaye yaxşı inkişaf etməmişdi. Qarabağ regionunda istehsal olunan sənaye məhsullarının 5 faizi Ağdam və Füzulidə istehsal olunurdu (əsas fondların isə 40 faizdən çoxu bu 2 rayonun payına düşürdü), digər rayonlarda isə bu rəqəm daha da az idi. Ümumilikdə işğaldan əvvəlki dövrlərdə Azərbaycanda istehsal olunan xam ipəyin 13,5 faizi, ayaqqabıların 11 faizi, konservlərin təxminən 7 faizi, yunun isə 19,3 faizi Qarabağda formalaşırdı. Bakıda yerləşən müəssisələrin yarıdan çox hissəsinin filialları burada yerləşirdi. Həmçinin bu bölgədə məşhur Qarabağ İpək Kombinatı, bir çox mişar daşı zavodları, mərmər zavodları,  ayaqqabı və toxuculuq fabrikləri, çörək zavodları və s. müəssisələr istehsal fəaliyyəti ilə məşğul olurdu. (Süleymanov E.S. və Süleymanov V.E., 2012). Bundan başqa, Ağdamda rabitə və aerokosmik cihazlar, dəzgah avadanlıqları və s. kimi sənaye məhsulları istehsal olunurdu (Məmmədov A.B., 2020). Ümumi olaraq 1988-1990-cı illərdə Ağdam inzibati rayonunda istehsal edilən sənaye məhsulunun Azərbaycan SSR ərazisində istehsal olunan sənaye məhsullarındakı payı təxminən 0,7 faiz təşkil edirdi. Füzul rayonunda isə bu rəqəm 0,4 faiz təşkil edirdi (Dövlət Statistika Komitəsi, 2022).

Qarabağda kənd təsərrüfatı potensialı həmişə ölkə iqtisadiyyatında özünəmxsus yeri ilə fərqlənmişdir. Erməni işğalından əvvəl Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının 35-40 faizini Qarabağda istehsal edilən məhsullar təşkil edirdi (Fikrətzadə F.F. və Hacıyeva S.İ., 2020). Çox məhsuldar torpaqlara malik olan bu regionda pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük ənənəvi sahələrdəndir. Həmçinin bölgə meyvə, giləmeyvə, kartof, tərəvəz, bostan və yem bitkilərinin istehsalı üçün əlverişli imkanlara malikdir. İşğaldan əvvəlki zamanlarda regionda 319 kolxoz, 92 sovxoz, 311 kənd təsərrüfatı müəssisəsi mövcud idi (Manafov Q.N., 2020). Burada baramanın 17 faizindən çoxu, südün 17, taxıl və ətin 14, üzümün  isə 31 faizi

istehsal olunurdu. İşğaldan qabaq burada təxminən 140 min ha əkin sahəsi var idi. Əkin sahələrinin yarıdan çoxu taxıl, 35 faizi isə üzüm sahələrindən ibarət idi. Qarabağın aran hissələrində pambıq əkinləri də üstünlük təşkil edən sahələrdən idi (Cədvəl 5). Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 1980-ci illərdə Azərbaycan SSR-də istehsal olunan üzümün ¼ hissəsi, taxılın təxminən 14 faizi, tütünün isə 8,1 faizi Qarabağda isteshal olunurdu. Taxıl və üzümçülüyün ölkəmizdəki cari inkişaf tendensiyasını izlədikdə, post müharibə dövründə regionda bu sahələr üzrə istehsalın nisbətinin təxminən eyni dərəcədə olacağı görünür (Fikrətzadə F.F. və Hacıyeva S.İ., 2020). 1988-ci ildə ərzində bu torpaqlarda 100 min tonu DQMV-də olmaqla ümumi 196,5 min ton taxıl istehsal olunmuşdur (Dövlət Statistika Komitəsi, 2022).

**Cədvəl 5. 1980-ci illər üzrə əkin sahələrinin strukturu (hektar)**

| | **Taxıl** | **Üzüm** | **Pambıq** | **Meyvə, giləmeyvə** | **Bostan, kartof, tərəvəz** | **Tütün** | **Cəmi sahə** |
|---|---|---|---|---|---|---|---|
| Dağlıq Qarabağ | 37,776 | - | - | 1,701 | 1317 | 198 | **52,203** |
| Ağdam | 7,660 | 13,042 | 7,565 | 287 | 259 | - | **28,813** |
| Cəbrayıl | 8,995 | 6,570 | - | 48 | 144 | - | **15,757** |
| Füzuli | 13,214 | 14,148 | 600 | 76 | 201 | - | **28,239** |
| Kəlbəcər | - | - | - | - | 6 | 660 | **666** |
| Laçın | 3,852 | - | - | 175 | 63 | 83 | **4,173** |
| Qubadlı | 3,401 | 997 | - | 91 | 88 | 589 | **5,166** |
| Zəngilan | 1,929 | 2,391 | - | 57 | 61 | 359 | **4,797** |
| **Cəmi sahə** | **76,827** | **48,359** | **8,165** | **2,435** | **2139** | **1,889** | **139,814** |
| ***Ölkə üzrə cəmi sahəyə nisbəti (%)*** | *14,3* | *24,7* | *2,7* | *1,8* | *10,9* | *11,6* | ***7,7*** |

**Mənbə:** Fikrətzadə F.F. və Hacıyeva S.İ., 2020; Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://atm.gov.az/pdf/magazine/4.pdf; https://www.stat.gov.az/)

Şərqi Zəngəzur və Qarabağda yerləşən rayonların özünəməxsus ənənəvi sahələrinin inkişaf etdiriləcəyi gözlənilir. Bildiyimiz kimi, pambıqçılıq sahəsində Qarabağ iqtisadi rayonu böyük bir hissəsi işğal edilməsinə baxmayaraq, yalnız Mil-Muğan iqtisadi rayonundan geri qalır. Son illər ərzində burada ortalama olaraq illik

təxminən 430 min ton pambıq istehsal olunur (https://www.stat.gov.az/source/agriculture/). İşğaldan əvvəlki dövrlərdə Ağdam rayonunda illik təxminən 19 min ton pambıq yığılırdı. Lakin Ağdamın böyük hissəsinin işğalı nəticəsində burada taxılçılıq sahəsində təbii olaraq geriləmə baş vermiş, əlverişli və münbit torpaqlar düşmənin əlinə keçmişdi. Buna görə də əvvəllər 19 min ton pambıq yığıldığı halda, son illərdə illik olaraq cəmi təxminən 7 min ton pambıq istehsal olunur. Artıq Ağdamın infrastrukturu bərpa edilir və bir çox sahələr kimi rayonda pambıqçılıq sahəsinin də bərpa və inkişaf etdirilməsi düşünülür. Eyni zamanda pambıqçılığın ənənəvi sahələrindən olduğu Füzuli rayonunda da bu sahənin inkişaf etdirilməsi gözlənilir. Ağdam, Füzuli və Cəbrayılda ənənəvi və inkişaf etmiş sahələrdən biri olan taxılçılıq ölkənin ən mühüm strateji məhsullarından biridir. Ümumilikdə Qarabağ işğal dönəmlərində də Azərbaycanda ən çox taxıl istehsal edilən iqtisadi rayonlardan biri olmuşdur. Ağdam və Füzuli rayonlarında illik təxminən 30 min ton, Cəbrayıl rayonunda isə 20 min ton taxıl istehsal edilirdi (Dövlət Statistika Komitəsi, 2022). Hazırda taxıl istehsalı sahəsində də Qarabağ yalnız Mil-Muğan iqtisadi rayonundan geri qalır. Bu ərazilərdə taxılçılıq sahəsinə diqqət göstərilməsi ölkənin taxıl təminatının və taxıl ehtiyatlarının artımında böyük rol oynaya bilər. Eyni zamanda bu üç rayonda bostan və tərəvəz məhsullarının əkib-becərilməsi üçün geniş imkanlar vardır. Xüsusilə işğaldan əvvəlki illərdə Ağdamda bu sahələrdə kifayət qədər inkişaf var idi. Qarabağ bölgəsində tütün istehsalı və inkişafı üçün də münbit şərait mövcuddur. 1980-ci illərdə Qubadlı rayonunda 2 min tondan çox tütün istehsal edilirdi. Kəlbəcər və Laçın inzibati rayonlarında da tütün istehsalı mövcud idi (Dövlət Statistika Komitəsi, 2022). Hazırda ən çox tütün istehsalı Şəki ərazisinin payına düşür. Qubadlı rayonun təkcə keçmiş imkanlarının bərpa edilməsi kifayətdir ki, bu rayon Azərbaycanın ən çox tütün istehsal edən ikinci rayonuna çevrilsin. Bunlardan əlavə, kənd təsərrüfatının qeyri-ənənəvi sahələrinin də inkişaf etdirilməsi gözlənilir. Ümumilikdə işğaldan azad etdiyimiz ərazilərdə kənd təsərrüfatının bərpa edilməsi ölkəmizin kənd təsərrüfatının inkişafına çox böyük töhfə verəcəkdir.

Qarabağda bitkiçiliklə yanaşı heyvandarlıq da ənənəvi və inkişaf etmiş sahələrdən idi. Bu ərazilərdə heyvandarlığın inkişafına xüsusi diqqət yetirilməsi iqtisadi fayda baxımından əhəmiyyətlidir. Qarabağın coğrafi relyefi və əlverişli iqlimi burada heyvandarlığın inkişafı üçün böyük perspektivlər yaradır. İşğaldan əvvəlki dövrlər ərzində Qarabağda ölkədəki xırdabuynuzlu heyvanlarının sayının 19,3 faizini təşkil edən 1 milyondan çox xırdabuynuzlu heyvan, ümumi iribuynuzlu mal-qaranın isə 16,2 faizini təşkil edən 300 min başdan çox iribuynuzlu mal-qara otarılırdı (Cədvəl 6). Yaxın gələcəkdə bu heyvanlarının sayının 35-45 faiz artacağı gözlənilir (Fikrətzadə F.F. və Hacıyeva S.İ., 2020).

**Cədvəl 6. Heyvanların sayı (min baş)**

| | 1980-ci illər | | | Perspektiv dövr | | |
|---|---|---|---|---|---|---|
| | **İribuynuzlu heyvanların cəmi** | ***Onlardan inək və camışlar*** | **Xıradbuynulu heyvanların cəmi** | **İribuynuzlu heyvanların cəmi** | ***Onlardan inək və camışlar*** | **Xırdabuynuzlu heyvanların cəmi** |
| Dağlıq Qarabağ | 95.6 | 30.7 | 264.3 | 127.9 | 41 | 376.6 |
| Ağdam | 44.4 | 16.4 | 191.8 | 59.4 | 22 | 273.2 |
| Cəbrayıl | 26.4 | 8.9 | 114.2 | 35.3 | 11.8 | 162.7 |
| Füzuli | 37.8 | 13.4 | 149 | 50.5 | 18 | 212.3 |
| Kəlbəcər | 31.9 | 11.0 | 97.4 | 42.6 | 14.6 | 155.3 |
| Laçın | 43.0 | 14.8 | 224.8 | 57.5 | 19.8 | 320.3 |
| Qubadlı | 22.8 | 8.3 | 30.6 | 30.5 | 11.1 | 43.6 |
| Zəngilan | 19.1 | 6.8 | 34.6 | 25.6 | 9.1 | 49.2 |
| **Cəmi sahə** | **321.0** | **110.3** | **1106.7** | **429.3** | **147.4** | **1593.2** |
| ***Ölkə üzrə cəmi heyvan saına nisbəti (%)*** | *16.2* | *14.8* | *19.3* | *14.7* | *10.9* | *17.5* |

**Mənbə:** Fikrətzadə F.,F., Hacıyev S., İ., 2020; Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://atm.gov.az/pdf/magazine/4.pdf; https://www.stat.gov.az/)

Ölkənin qida sənayesinin inkişafı və qida ilə təminatında bu sahənin gücləndirilməsi çox əhəmiyyətlidir. Qarabağ regionunun yay və qış otlaqlarının zəngilinliyi, yem bitkilərinin istehsalı üçün münbit torpaqlara sahib olması və

heyvandarlığın bölgənin ənənəvi sahələrindən olması bu ərazinin gələcək dövrlərdə ölkənin qida təminatının artırılmasında çox böyük rolu olacağını göstərir. İlkin proqnozlara görə regionda təxminən 240 min ton süd, 45 min ton isə ət istehsalının olacağı gözlənilir (Fikrətzadə F.F. və Hacıyev S.İ., 2020). İşğaldan əvvəlki dövrlərdə Azərbaycan SSR-də istehsal olunan ətin 5 faizi, inək yağının 25 faizi Qarabağda istehsal edlilirdi. Bundan başqa, Kəlbəcər və Laçın rayonlarında arıçılıq təsərrüfatları yaradılması üçün böyük imkanlar vardır. Həmçinin regionda baramaçılıq sahəsinin inkişafı üçün də əlverişli şərait vardır (Süleymanov E.S. və Süleymanov V.E., 2012).

Qlobal istiləşmə probleminin mövcud olduğu, təmiz və içməli su ehtiyatlarının azaldığı bir dövrdə su resurslarının mənbələrinin əksər hissəsi ölkə sərhədlərindən kənarda formalaşan ölkəmizin bu torpaqlarda mövcud olan su ehtiyatına yenidən sahib olması çox sevindirici və mühüm hadisədir. Kiçik Qafaz dağlarında yerləşən bu ərazi sıx çay şəbəkəsinə malikdir. Bu çay şəbəkəsi ölkədəki su təmiatının artırılmasında və içməli su problemlərinin aradan qaldırılmasında yardımçı ola bilər. Bildiyimi kimi, ölkəmizdə bəndinin hündürlüyünə görə ən hündür su anbarı 1976-cı ildə tikilmiş, Tərtər rayonunda yerləşən Sərsəng su anbarıdır. Bu anbar 125 metr hündürlüyə və təqribən 100 min ha əkin sahəsini suvarmaq potensialına malikdir. Sərsəng su anbarının ümumi tutumu 560 mln. $m^3$-dir. Bu anbar vasitəsilə Ağcəbədi, Ağdam, Tərtər, Bərdə, Goranboy və Yevlax rayonlarındakı əkin sahələrini suvararaq kənd təsərrüfatının inkişaf etdirilməsini təmin etmək mümkündür (Sadiqov E.M., 2020; http://eco.gov.az/az/nazirlik/xeber?newsID=5195). Həmçinin bu ərazilərdə təkcə Sərsəng su anbarı deyil, başqa bir neçə su anbarı da mövcuddur. Bu su anbarları 15 min ha ərazini suvarma potensialında olub, 80 mln. $m^3$ su tutumuna malikdir. İşğaldan azad etdiyimiz ərazilərdə mövcud olan  çay şəbəkəsi burada su elekrtrik stansiyalarının tikilməsi üçün əlverişli şərait yaradır. Bu ərazilərimizdəki çaylardan elektrik enerjisi istehsalının artırılması, regionda əhalinin və sənaye sahələrinin elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün istifadə ediləcəkdir. Beləliklə, alternativ enerji mənəblərinin sayının çoxalması ilə ölkəmizin enerji təhlükəsizliyi və xarici ölkələrə

enerji ixrac etmək potensialımız daha da artıracaqdır (Əliyeva T.Ə., 2020). Hələ Qarabağın işğalda olduğu dönəmlərdə, 2016-cı il 14 iyunda Azərbaycan Respublikası və İran İslam Respublikası hökumətləri arasında bu sahədə əməkdaşlıq sazişi imzalanmışdı. Bu sazişdə Araz çayı üzərində "Qız Qalası" və "Xudafərin" hidroqovşaqlarının və su elektrik stansiyaların (SES) tikintisinin davam etdirilməsi, istismarı, mühafizəsi, eləcə də energetika və su ehtiyatlarından birgə istifadə nəzərdə tutulur (https://e-qanun.az/framework/33288). Energetika Naziri Pərviz Şahbazovun sözlərinə görə ümumilikdə bu iki hidroqovşaq birlikdə 1,6 milyard $m^3$-dən artıq su saxlaya bilər. Araz çayı üzərində tikiləcək bu SES-lərin gücü 280 MVt olmaqla, ölkəmizin enerji istehsalını 368 mln. kVt•saat artıracaq. Eyni zamanda bu hidroqovşaqlardakı su ehtiyatları vasitəsilə 252 min ha torpaq sahəsində suvarmanın yaxşılaşdırılması, 8 min ha əkin sahəsinin isə suvarılması təmin ediləcəkdir (http://minenergy.gov.az/az/xeberler-arxivi/isgaldan-azad-olunan-erazilerimizde-tezlikle-isiqli-gunler-baslayacaq). Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında mövcud olan çay şəbəkəsindən səmərəli istifadə edilməsi və bu kimi layihələrin həyata keçirilməsi bölgədə aqrar sahənin və energetika sənayesinin təkmilləşdirilməsinə imkan yaradacaq, o cümlədən əhalinin su və enerji təminatının təmin edilməsini daha da artıracaqdır.

# II FƏSİL. TORPAQLARIMIZIN İŞĞAL EDİLMƏSİ NƏTİCƏSİNDƏ VURULMUŞ İQTİSADİ ZƏRƏRLƏRİN VƏ SIĞORTA SİSTEMİNİN GƏLİRLƏRİNİN AZALMASININ DÖVLƏT BÜDCƏSİNƏ TƏSİRİ

## 2.1. Qarabağın işğalı səbəbindən yaranmış sosial-iqtisadi zərərlər və onun təhlili

Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağımızın işğalı ilə ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrinə ciddi ziyan dəymişdir. İşğal təkcə ölkəmizin deyil, ümumilikdə Cənubi Qafqaz regionunun iqtisadiyyatına zərər vurdu və bölgənin iqtisadi inkişafı üçün maneələr yaratdı. Bu işğal işğalçı dövlət Ermənistanın özü üçün də ciddi iqtisadi itkilərə başa gəldi və ermənilərin öz zərərinə bitdi. Belə ki, işğalçı və təcavüzkar siyasətilə Qarabağı işğal etməsindən sonra bu ölkə bölgədəki bir çox böyük iqtisadi layihələrdən məhrum oldu. Bunlara Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanmış Bakı-Tiblisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi enerji layihələrini və s. misal göstərə bilərik. Doğrudur, Ermənistan torpaqlarımızın işğalı ilə təbii resurslarla zəngin yeni ərazilərə sahib olmuşdu, amma yetəri qədər maliyyə vəsaitlərinin və insan resurslarının olmaması səbəbindən həmin bölgələrdə iqtisadiyyatın müxtəlif sahələrinə lazımi qədər investisiya yatırımları edə bilmədi. Buna görə də bu dövlət  bu ərazilərdən o qədər də çox faydalana və gəlir əldə edə bilməmişdir.

Ermənistanın təcavüzkar siyasəti əlbəttə ki, təkcə özünün deyil, bütün regionun iqtisadi inkişafına əngəl törətmişdir. Hesablamalara görə işğalın Azərbaycan iqtisadiyyatına vurduğu maddi zərərin məbləği yüz milyardlarla ABŞ dolları dəyərindədir. Emənistanın Qarabağı işğal etməsi bu bölgənin infrastrukturuna ciddi zərər vurmuşdur. Bunun üçün təkcə Qarabağın ən yüksək sənaye, aqrar və ticarət potensialının olduğu inzibati rayonlarından biri olan Ağdam rayonunun necə dağıdılmasına diqqət yetirmək kifayət edər. Rayonun istehsal sahələri, infrastruktur obyektləri dağılmış, işğaldan əvvəl şəhərdə yerləşən demək olar, heç bir tikilidən əsər-əlamət qalmamış, hətta yaşayış evləri həyətlərinin hasarlarına qədər düşmən tərəfindən uçurulmuşdur. Eyni və bənzər vəziyyəti digər bölgələrimizdə də görmək

mümkündür. Ermənistanın içğalçılıq siyasəti başladığı zamandan indiyə qədər Azərbaycanın keçmiş cəbhəyanı, eyni zamanda Ermənistanla sərhəd rayonlarına külli miqdarda ziyan dəymişdir. İşğalın nəticəsi olaraq əhali öz dədə-baba torpaqlarını tərk etmək məcburiyyətində qalmış, bu ərazilərdə yerləşən yaşayış məntəqələri, ev təsərüfatları dağıdılmış, sənaye, kənd təsərüfatı obyektləri, eləcə də sosial-iqtisadi və mədəniyyət müəssisələri məhv edilmişdir. Hətta din və mədəniyyət abidələri belə Azərbaycan xalqına qarşı nifrətin qurbanı olmuşdur. Ermənistanın işğalçı siyasəti nəticəsində keçmiş cəbhəyanı rayonlarımız olan Ağcabədi, Ağstafa, Beyləqan, Tərtər, Goranboy, eləcə də Naxçıvan Muxtar Respublikası, Gəncə, Tovuz, Qazax, Bərdə və digər bölgələrimizə böyük həcmdə ziyan dəymişdir. Erməni təcavüzünün acı nəticələrindən biri də Naxçıvanın ölkəmizin əsas hissəsi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrinin kəsilməsi və blokadaya düşməsi idi. Blokada nəticəsində Muxtar Respublikada enerji, yanacaq təminatı problemləri və bir sıra iqtisadi çətinliklər meydana gəlmişdir. Bununla yanaşı, Naxçıvan MR ərazisinə də bu illər ərzində hücumlar edilmiş və bəzi kəndləri işğal edilmişdi. Beləliklə, müharibə və atəşkəs dönəmlərində Naxçıvan MR-na da xeyli maddi zərər dəymiş və böyük iqtisadi çətinliklərlə üzləmişdir. Ümumi olaraq Ermənistan Silahlı Qüvvələrinin torpaqlarımızı işğal etməsi nəticəsində işğal edilən ərazilərdə 900-dən çox yaşayış yeri (şəhər, qəsəbə, kənd və s.), 2389 kənd təsərrüfatı və sənaye obyekti, 4366 sosial-mədəni təyinat obyekti, 598 rabitə obyekti , 798 səhiyyə müəssisəsi, hansı ki, bunun 695-ini xəstəxanalar təşkil edirdi, 4 müalicəvi sanatoriya kompleksi, ümumi sahəsi 9,1 mln $m^2$ olan 150 minə yaxın yaşayış evi və mənzil, 7000 ictimai bina, 1025 məktəb, həmçinin 927 kitabxana, 855 uşaq bağçası, 1510 mədəniyyət müəssisəsi dağıdılmışdır. Eyni zamanda, 224 su anbarı, uzunluğu 286 km-ə çatan dəmir yolu xətti, 2000 km qaz kəməri xətti, 76940 km elektrik xətti, 7568 km su xətti, 348 körpü, 5198 km avtomobil yolu, 116 dəmir yolu körpüsü, 240 km. uzunluğa malik kanalizasiya xətti və 35 min saylıq telefon stansiyası məhv edilmişdir. Əlavə olaraq Bakı-Xankəndi-Naxçıvan qaz kəməri, Horadiz-Ordubad və Bakı-Ağdam dəmiryolu

xətləri və s. işğal altında qalmışdır (Süleymanov E.S. və Süleymanov V.E., 2012). Bunlarla yanaşı, işğal nəticəsində həmin ərazilərdə 9 su anbarı, 7 su tutarı düşmənin əlinə keçmişdi. Bu su anbarları 100 minlərlə ha ərazinin suvarılması, meliroasiyası, eyni zamanda içməli su ehtiyatları yaratmaqla yanaşı, həm də burada istehsal edilə biləcək enerji ölkənin energetika sektoru üçün əhəmiyyətlidir. Bundan əvvəl qeyd etdiyimiz kimi, Qarabağ zonası zəngin su ehtiyatlarına sahibdir. Bu ərazilər 12 əsas çay olmaqla geniş çay şəbəkəsinə malikdir. Bunlardan bəzisinin illik su axınını qeyd etmək yerinə düşər. Üzərində Suqovuşan və Sərsəng su anbarlarının yerləşdiyi, 4 rayon ərazisindən keçən Tərtərçayın illik su axınının miqdarı 577 milyon $m^3$, Laçın, Qubadlı və Zəngilan ərazisindən keçən Həkəri çayının 341 milyon $m^3$, Quruçayın və Qarqarçayın hər birinin  54 milyon $m^3$, Xaçınçayın 40 milyon $m^3$, Köndələnçayın illik su axını isə 22 milyon $m^3$ təşkil edir. Erməni təcavüzü  nəticəsində bu çaylar, eləcə də üzərində tikilmiş su anbarları, 6426 km uzunluğuna  malik suvarma  şəbəkəsi, 330 km uzunluğunda kollektor-drenaj şəbəkəsi, 2  hidroqovşaq, 8003 ədəd hidrotexniki qurğu, 1429 subartezian quyusu, 88 nasos stansiyası işğal altındakı ərazilərdə qalmışdır (http://mst.gov.az/az/news/210). Bütün bunları nəzərdən keçirdikdə ölkəmizin müxtəlif iqtisadi sahələrində yaranan itkilərin miqyasının necə böyük olduğu nəzərə çarpır. Bunlardan əlavə, Vətən Müharibəsi ərzində də həm vətəndaşlarımızın əmlakına, həm də dövlət əmlakına, o cümlədən su, elektrik, qaz, rabitə xətlərinə, yol infrastrukturuna və digər infrastruktur obyektlərinə ciddi zərər dəymişdir ki, hesablamalara əsasən ümumi olaraq zərərin 91 milyon manat olduğu hesablanmışdır. Ümumi olaraq 264 ev dağılmış və ya qəzalı vəziyyətə düşmüşdür. Təkcə Gəncə şəhərində 10 çoxmənzilli bina dağılmışdır. Bundan başqa, Füzuli, Beyləqan, Tərtər, Bərdə və digər rayonlarımızın infrastrukturuna da xeyli ziyan dəymişdir. Zərər dəymiş fərdi yaşayış evlərinin ümumi sayı 9294-ə çatmışdır. Həmçinin 518 kənd təsərrüfatı və  440 sahibkarlıq obyektinə, 18 müxtəlif təyinatlı obyektlərə, 227 nəqliyyat vasitəsinə zərər dəymişdir (https://president.az/az/articles/view/49933). Vətən müharibəsi dövründə cəbhəyanı rayonlarda yol örtüyü də ciddi zərər görmüşdür. Bunların arasında

respublika əhəmiyyətli yol da vardır. Yol infrastrukturuna dəymiş zərərlərə Tərtərdə 6 yerli əhəmiyyətli, 1 respublika əhəmiyyətli yola, 5 şəhərdaxili küçənin yol örtüyünə dəymiş zərəri misal göstərmək olar (http://www.aayda.gov.az/az/news/2960).

İşğaldan əvvəlki zamanlarda, daha dəqiq ifadə etsək, 1991-ci ildə işğaldan azad edilmiş rayonlarımızda 442 min nəfər əhali yaşayırdı ki, bunların da 256 min nəfəri əmək ehtiyatlarını formalaşdırırdı. Eyni zamanda həmin dövrdə bu ərazilərdə sənaye müəssisələrində təqribən 6 min nəfər işçi çalışırdı. Bu sənaye müəssisələrində də il ərzində təxminən 800 milyon manatlıq məhsul istehsal edilirdi (Səmədzadə Z.Ə., 2021). Ümumiyyətlə bu ərazilərdə sənaye sahəsi inkişaf səviyyəsinə görə xüsusi yer tuturdu. İşğaldan əvvəlki dövrü nəzərdən keçirərkən həmin ərazilərdə yüngül sənaye, yeyinti sənayesi və tikinti materialları sənayesi üzrə müəssisələrinin daha çox inkişaf etdiyi nəzərə çarpır. Bunun səbəbi bu torpaqların zəngin təbii ehtiyatları, xammal potensialı və kənd təsərrüfatı üçün əlverişli imkanlara malik olması idi. Təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti iqtisadiyyatın sənaye sektoru üzrə Azərbaycan SSR-nin iqtisadi rayonları arasında öz inkişafı ilə seçilən regionlardan biri idi. Azərbaycan SSR-in iqtisadi regionları arasında sənaye sahələrinin inkişaf səviyyəsinə görə 4-cü yerdə DQMV qərar tutmuşdu. İşğal edilmiş bölgələrimizin sənaye potensialının böyük hissəsi Dağlıq Qarabağ Muxtar Vilayətində idi. Sənaye və tikinti müəssisələrinin sayı 137 olmaqla ən çox bu vilayətdə cəmlənmişdi. Belə ki, işğalda olan rayonların bütün sənaye məhsullarının təxminən 40 faizi, yaradılmış əsas fondların isə 18,7 faizi bu vilayətin payına düşürdü. Sənaye sektorunda Ağdam və Füzuli rayonları da xüsusi əhəmiyyətə malik idi. Sənaye məhsullarının 51%-i, əsas fondların isə 41%-i bu iki rayonun ərazisində yerləşirdi. Lakin Qarabağın digər rayonlarında sənaye sahəsinin inkişafı zəif idi (Süleymanov E.S. və Süleymanov V.E., 2012).

Azərbaycan hökuməti Dağlıq Qarabağ münaqişəsi baş verməmişdən əvvəl dağ rayonlarımızın, eləcə də, DQMV-nin məhsuldar qüvvələrinin inkişaf etdirilməsi haqqında qərar qəbul etmişdi. Bu səbəbdən DQMV inzibati ərazisində və işğal

edilmiş digər ərazilərimizdə tikinti işləri artırılmışdır. Bu ərazilərə yeni nəqliyyat vastiələri və maşın mexanizmləri cəlb edilərək, bir çox tikinti təşkilatları yaradılmış, tikinti materialları müəssisələri fəaliyyətə başlamışdır. O cümlədən bu dövrdə DQMV ərazisində mərmər zavodu tikilmişdir. Lakin yeni tikintilərə cəlb edilən bütün avadanlıqlar, mexanizmlər, istehsal vasitələri işğal səbəbindən məhv olmuş və planlaşdırılan layihələr yarımçıq qalmışdır (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2005). Ağdamda sənaye və aqrar-sənaye sektoruna nəzər saldıqda, burada "Bakelektromaş", "Bakı Kondisonerləri" zavodlarının, Kosmik Tədqiqatlar Elmi İstehsalat Birliyinin filiallarının, həmçinin dəzgahqayırma müəssiəsinin fəaliyyət göstərirdiyini görürük ki, bu və digər sənaye müəssisələrində 3400 nəfərə qədər işçi çalışırdı. Bunlarla yanaşı, Ağdamda yeyinti sənayesi də xeyli inkişaf etmişdi. 1970-1985-ci illər ərzində bu sahə üzrə məhsulların istehsalının həcmi 3,3 dəfəyə qədər yüksəlmişdi. Bunun səbəbi isə həmin illər ərzində burada bir neçə çörək, unüyütmə və konserv zavodlarının tikilib, istismara verilməsi idi. Bundan başqa, Qubadlı rayonunda da yüngül sənaye müəssisələri fəaliyyət göstərirdi. Bunlara rayonun Başarat, Novlu, Xanlıq, Əli-Qulu kəndlərindəki Bakı Tekstil Kombinatının filiallarını nümunə göstərmək olar. Deyilənlərdən başqa bu ərazilərdə "Kür Qarabağ İstehsal Birliyi", "Bakı quru transformatorları" zavodlarının filialları da fəaliyyət göstərirdi (Səmədzadə Z.Ə., 2021). Qarabağın qeyri-filiz və filiz faydalı qazıntı yataqları ilə zəngin olması ölkə iqtisadiyyatında sənaye məhsulları istehsalı üçün müstəsna əhəmiyyətə malik olmasının bariz nümunəsidir. Burada 155 növ faydalı qazıntı yataqları mövcuddur. Bu resurslar iyirmi səkkiz il idi ki, düşmən tərəfindən qarət edilirdi. Həmin ərazilər tikinti, inşaat sektoru üçün lazım olan materialları təmin edəcək faydalı qazıntılara malikdir. Bu cür ehtiyatların böyük hissəsi Ağdam rayonundakı Şahbulaq, Çobandağ, Bəyəhmədli və digər yataqlardadır. Çobandağda yerləşən əhəng ehtiyatlarının həcmi 140 milyon tona çatır. Bundan başqa, burada 20 milyon ton gil ehtiyatları da mövcuddur, Şahbulaqda isə gil ehtiyatının həcmi 25 milyon olmaqla daha çoxdur. Ən çox gil ehtiyatı isə Bəyəhmədli yatağında 45 milyon

ton civarındadır. Xankəndi iri daş yataqlarına malikdir, Harovda isə mərmər yataqları mövcuddur (https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf).

Qarabağ bölgəsi regionlarlar arasında kənd təsərrüfatının inkişafına görə də fərqlənirdi. Həmin ərazilərdə işğaldan əvvəl təsərrüfat birlikləri, sovxozlar, kolxozlar, aqrofirmalar kimi kənd təsərrüfatı müəssisələri fəaliyyət göstərirdi. Dağlıq Qarabağda 99 kənd təsərrüfatı müəssisəsi var idi ki, bunların 49-unu sovxozlar, 43-ünü isə kolxozlar təşkil edirdi. Füzuli rayonu isə kənd təsərrüfatı müəssisələrinin sayına görə ikinci pillədə qərarlaşırdı. Burada 25 sovxoz, 15 kolxoz, habelə 4 təsərrüfatlararası müəssisə var idi. 1988-ci ildə təkcə Füzuli rayonunda üzüm istehsalının həcmi 100,1 min ton idi ki, bu da bütün respublika ərazisinin üzüm istehsalının təxminən 10 faizini təşkil edirdi. Bütövlükdə 7 rayonda isə ümumi üzüm istehsalı 252,5 min ton olmaqla, respublikanın üzüm istehsalının təxminən ¼ hissəsini təşkil edirdi. Tekstil sənayesinin ayrılmaz hissəsi olan pambıq mahlıc istehsalında da Qarabağ regionu xüsusi yerə sahib idi. Belə ki, təkcə Horadizdəki pambıqtəmizləmə zavodunda pambıq malhıc istehsalının 12 faizi istehsal edilirdi. Onu da qeyd edək ki, Azərbaycanda istehsal olunan üzümün 31,5%-i, taxılın 14,3%-i işğal edilmiş Qarabağ torpaqlarında yetişdirilirdi (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2005). Ümumilikdə bu region ölkəmizin kənd təsərrüfatı üçün çox mühüm regionlardan hesab olunur. Kiçik Qafqazın yaylaqları, əlverişli dağətəyi və dağarası düzənlikləri kənd təsərrüfatının heyvandarlıq və bitkiçilik sahələri üçün yüksək perspektivlərə malikdir. Burada pambıqçılıq, taxılçılıq, kartofçuluq, tütünçülük, yem istehsalı, üzümçülük, həmçinin qoyunçuluq və maldarlıq xüsusi inkişafı ilə seçilirdi. Bu torpaqlarda çox təmiz, təbii və keyfiyyətli kənd təsərrüfatı məhsulları yetişdirilirdi. Ümumilikdə işğal edilmiş rayonlarımızda təxminən 186 min hektar əkin sahəsi, kənd təsərrüfatına yararlı 645,5 min hektar torpaq sahəsi, 1200 km uzunluğuna malik təsərrüfatlarası suvarma kanalı, 40 min hektar cavan üzüm plantasiyası, 3425 pambıq və taxıl yığan kombayn, əkin və qoşqu traktoru düşmənin əlinə keçmişdir. İyirmi səkkiz illik işğal dönəmində orta hesabla illik olaraq 20 min tondan çox

pambıq, 79,4 ton taxıl, 23,5 ton kartof, 324,4 ton üzüm və s. bitkiçilik məhsulları becərilə bilərdi. Onu da qeyd etmək yerinə düşərdi ki, erməni təcavüzü nəticəsində məcburi köçkünə çevrilmiş Azərbaycanlılar müvəqqəti məskunlaşdırıldığı ərazilərin tamamilə başqa iqlimə malik olması və başqa aqroqaydalarla becərilən kənd təsərrüfatı məhsullarına sahib olması səbəbindən bu ərazilərdə kənd təsərrüfatı məhsullarının becərilməsində çox çətinliklər çəkmişdirlər (Süleymanov E.S. və Süleymanov V.E., 2012).

Torpaqlarımızın işğalı ilə burada heyvandarlıq sahəsinə də xeyli ziyan dəymişdir. Azərbaycanda olan yay otlaqlarının 70 faizi işğal altında olan Qarabağ torpaqlarımızda idi. Bu torpaqlarda heyvandarlıq sahəsi öz inkişafı ilə seçilirdi. Azərbaycanın dağ rayonlarındakı sosial-iqtisadi cəhətdən zəifliyi aradan qaldırmaq üçün Sovet dönəmində bu ərazilərə böyük həcmdə sərmayə yatırılmış, vergilərin miqdarı azaldılmış və həyətyanı təsərrüfların inkişafı üçün şərait yaradılmışdır. Bu tədbirlər nəticəsində dağ rayonlarında heyvandarlıq sahəsində güclü inkişaf baş vermişdir. İşğaldan əvvəl Azərbaycanda istehsal olunan yunun təxminən 19,3%-i, süd və baramanın isə hər birinin ayrılıqda 17%-i bu ərazilərin payına düşürdü. Rayonlarımız işğal edilərkən buradakı mal-qara sürülərinin bir qismi çıxarılsa da, xeyli hissəsi çıxarıla bilməmişdi. Çıxarılan mal-qara sürülərinin çoxu isə yolda ikən aclıq və susuzluq səbəbindən tələf olmuşdu. Ümumilikdə isə 111 mindən başdan artıq camış və inək daxil olmaqla, 313,1 min baş iribuynuzlu mal-qara, 1 milyon 98 min isə xırdabuynuzlu heyvan, eyni zamanda təxminən 850 ton illik heyvandarlıq məhsulları, 75,5 min ton süd və 20 min ton ət itirilmişdir (https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf).

Bu ərazilərdə zəngin meşə landşaftı mövcuddur ki, meşələr bu ərazilərin ümumi sahəsinin 14 faizini təşkil edir. Kəlbəcər və Laçının meşə örtüyü digər rayonlara nisbətdə daha çoxdur. Təəssüf ki, işğal nəticəsində çox qiymətli sərvətlərimiz olan meşələrimiz də böyük zərər görmüşdür. Demək olar ki, işğal edilmiş torpaqlarımızda qızıldan sonra ən çox talana məruz qalmış təbii sərvətimiz meşələrimizdir. Belə ki,

torpaqlarımız işğal edilərkən bu ərazilərin 231 min hektarı meşəliklərlə örtülmüşdü (FAO 2020). Lakin təəssüf hissi ilə bildiririk ki, işğaldan azad edilərkən isə bu ərazilərdə cəmi 174 min ha meşə qalmışdır (https://president.az/az/articles/view/49933). Bu isə bu müddət ərzində 57 min ha meşə sahəsinin məhv edilməsi deməkdir. Bu ərazilərdə ekologiyanın qorunmasına diqqət yetirilmirdi. Dağ meşələri qırılaraq mebel sənayesində istifadə edilir, yaxud da satış məqsədilə Ermənistana və qonşu ölkələrə daşınırdı. Eyni zamanda qazanc əldə etmək üçün Ağdam, Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı və s. rayonlarımızdan müxtəlif ağac növlərini xarici ölkərə yarımfabrikat kimi sataraq məhv ediblər. Diqqət çəkən məqamlardan biri odur ki, Qərb dövlətlərinə aid olan şirkətlərin dəstəyi ilə meşəçilik təsərrüfatında Ermənistanın istehsalı 10 dəfəyə qədər artmışdı. Bu istehsalda Azərbaycan meşələrinin qırılmasının çox böyük payı vardır (Hüseynov B.B., 2021). Meşələrin qırılması ölkəmizə ekoloji cəhətdən ziyan vurmaqla yanaşı, buradakı turizm potensialına ciddi zərbədir.

Ermənistanın torpaqlarımızın 20%-ini işğal etməsi nəticəsində ölkə iqtisadiyyatına vurduğu zərərlər bunlarla yekunlaşmır. Ermənilərin hərbi təcavüzü və müharibə ölkədə ciddi sosial problemlər yaratmışdır. İşğal səbəbindən yüz minlərlə Azərbaycan vətəndaşı öz doğma dədə-baba torpaqlarından didərgin düşməklə məcburi köçkünə çevrilərərək hüquq və azadlıqlarından məhrum edilmiş, 18 mindən artıq vətəndaşımız şəhid olmuş (Vətən müharibəsi şəhidlərini də nəzərə aldıqda 21 min), 50 min vətəndaşımız müxtəlif dərəcəli əlilə çevrilmiş, 5 mindən çox vətəndaşımız isə itkin düşmüşdür. Bu səbəblərdən ölkədə humanitar vəziyyət yaranmışdır (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2005). Ermənilər bu torpaqları işğal etməklə bərabər, bu torpaqlarda etnik təmizləmə siyasəti yürütmüş, yerli əhalini amansızcasına qətlə yetirmişdir, yerdə qalan əhali isə məcburi köçkünə çevrilərək öz dəd-baba torpaqlarından didərgin düşmüşdür. Bu cür vəziyyətdə Azərbaycan xalqına dəymiş mənəvi və psixoloji zərərləri ölçmək praktiki olaraq mümkün deyil. Ermənistan Silahlı Qüvvələrinin torpaqlarımızı işğal etməsilə beynəlxalq humanitar prinsipləri tapdalandı və bu prinsipləri özündə ehtiva edən

Birməlşimiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi, "Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxaq pakt", "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Pakt", "İnsan hüquqlarına dair Ümumdünya Bəyənnaməsi" və bir sıra müqavilələrin prinsiplərinə məhəl qoyulmadı. 1988-ci ildən etibarən başlayan Dağlıq Qarabağ münaqişəsində ilk öncə Dağlıq Qarabağ Muxtar Vilayəti işğal edilmişdi. Bundan sonra isə, ümumiyyətlə münaqişə zonasına aidiyyəti olmayan ərazilərə, 7 rayona hücum edilmiş və bu ərazilər də işğal edilmiş, əhalisi isə məcburi köçkünə çevrilmişdi. Ümumilikdə işğal səbəbindən 660 mindən çox azərbaycanlı məcbur köçkünə çevrilərək, digər rayon və şəhərlərə üz tutmuşdur. Bu məcburi köçkünlərin 146 min nəfəri Füzulidən, 165 min nəfəri Ağdamdan, 74 min nəfəri Kəlbəcərdən, 71 min nəfəri Laçından, 39 min 500 nəfəri Zəngilandan, 66 min nəfəri Cəbrayıldan, 37 min 900 nəfəri isə Qubadlı köçmüşdür. Bununla yanaşı, 100 mindən çox əhali isə cəbhəyanı ərazilərdən köç edərək, digər yerlərə sığınmışdır. (Süleymanov E.S. və Süleymanov V.E., 2012) Bu statistikanın üzərinə 1988-ci ildə Qərbi Azərbaycandan köçmüş qaçqınların sayını əlavə etdikdə bu rəqəm təxminən 1 milyona çatmış olur. Təbii ki, həmin dövrdən indiyə qədər bu say eyni qalmamış, təbii atrım səbəbindən daha da artmışdır. Keçmiş Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov hələ 2013-cü ildə bu barədə bildirmişdi:

> *Bir ilə 10 min artmaqla bu rəqəm 1 milyon 200 minə çatıb. 9 milyondan çox əhalinin 1 milyon 200 mini qaçqın və məcburi köçkündür. Yəni, dünyada hər 135 nəfərdən biri qaçqın olduğu halda, Azərbaycanda hər səkkiz nəfərdən bir qaçqındır. Bizim çox ağır problemimiz var.* (https://azertag.az/xeber/217774)

Şübhəsiz ki, əhalinin böyük bir kəsiminin məcburi köçkünə çevrilməsi bu insanları və bütün Azərbaycanı böyük sosial problemlərlə üz-üzə qoymuşdu. Bildiyimiz kimi, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində, SSRİ-nin dağılması dövründə Azərbaycanda siyasi atmosfer mürəkkəbləşmişdi. Yeni yaranmış müstəqil Azərbaycan Respublikasında siyasi vəziyyətin mürəkkəbləşməsi ölkənin iqtisadi həyatına ciddi şəkildə mənfi təsir etmiş, ölkə iqtisadiyyatında böhranlı

vəziyyətin yaranmasına gətirib çıxarmışdı. Bu böhranlı vəziyyətdə Azərbaycan əhalisinin 1 milyona yaxın hissəsinin qaçqın və məcburi köçkünə çevrilməsi sosial vəziyyəti kəskin şəkildə pisləşdirmişdi. Belə ki, qaçqın və məcburi köçkünlərin arasında yoxsulluq səviyəsi, hətta 2000-ci illərin əvvəllərində 74 faiz təşkil edirdi. Eləcə də bu insanların çox böyük bir qismi işsizlik problemi ilə üzləşmişdilər. Bu əhalinin məskunlaşma problemləri də ölkənin sosial sferası üçün ağır zərbə idi. İlk dövrlərdə məcburi köçkünlərin böyük bir qismi yataqxanalar, çadır düşərgələri kimi yaşayış üçün əlverişsiz yerlərdə məskunlaşmışdılar. Çadır düşərgələrinin ümumi sayı 12 idi ki, bunların ən sonuncusu 2007-ci ilin sonlarında ləğv edilmişdir (https://www.elibrary.az/docs/QAZET/qzt2010_3428.pdf).

Əhalinin böyük bir hissəsinin məcburi köçkünə çevrilməsi, işsizliyin və yoxsulluğun artması, məskunlaşma problemləri və s. Azərbaycanda sosial cəhətdən böhranlı bir vəziyyətin əmələ gəlməsinə səbəb olmuşdu. Azərbaycan hökuməti mövcud vəziyyətdə yaranmış sosial problemləri aradan qaldırmağa çalışmış, bu istiqamətdə müxtəlif işlər görmüşdür. Yaranmış sosial problemlərin həlli istiqamətində aparılan işlər, əsasən dövlət büdcəsindən və Dövlət Neft Fondundan ayrılan vəsaitlərin, eləcə də beynəlxalq maliyyə qurumları və humanitar təşkilatlarının maliyyə yardımları hesabına maliyyələşdirilmişdir. 1994-cü ilin may ayından etibarən dövlət müəssisələrində çalışmış, ancaq işğal səbəbindən torpaqlarını tərk edərək işsiz qalmış 14 min məcburi köçkünə dövlət tərəfindən orta aylıq əmək haqqı həcmində ödəniş edilməsi təmin edilmişdir. 1993-2003-cü illərdə Heydər Əliyev tərəfindən imzalanan 3 fərman əsasında Dövlət Neft Fondu tərəfindən ümumilikdə 71,8 milyon manat vəsait ayrılaraq 18 şəhər və rayonda 14 inzibati bina, 32 qəsəbə, 2 xəstəxana, 18 məktəb, 16 tibb məntəqəsi, 197 km uzunluğa malik olan asfalt yol, 6411 fərdi yaşayış evi, 350 km uzunluğuna malik elektrik xətti, 170 km su xətti və s. yaradılaraq istismara verildi (http://idp.gov.az/az/care/parent/21). Azərbaycan Respublikasının zaman keçdikcə daha da qüdrətinin və gəlirlərinin artması, bununla da Dövlət büdcəsinin böyüməsi zamanla sosial problemlərin həlli üçün daha çox vəsait ayrılmasına imkan

yaratmışdır. Bundan əlavə, 1999-cu ilin dekabrın 29-da Dövlət Neft Fondunun yaradılması və bu fonddan ayrılan vəsaitlər məcburi köçkünlərin və qaçqınların sosial problemlərinin həlli istiqamətində aparılan işlərin maliyyələşdirilməsində çox böyük rol oynamışdır. 2001-2003-cü illər arasında ümumilikdə bu fonddan 58,5 mln. manat pul ayrıldı. Bu istiqamətdə sərf edilən vəsait zaman keçdikcə daha da artmışdır. Belə ki, 2004-cü ildən 2009-cu ilə qədər 554,4 milyon manata qədər vəsait Dövlət Neft Fondundan məcburi köçkünlərin sosial müdafiəsi üçün ayrılıb. Məcburi köçkünlərin sosial probblemlərinin həlli istiqamətində çəkilən xərclər içərisində Dövlət büdcəsinin xərcləri daha çox üstünlük təşkil edir. 2004-cü ildən 2009-cu illər aralığında Dövlət büdcəsi tərəfindən maliyyələşdirilən məcburi köçkünlərin saxlanma xərcləri 729,2 mln. manata çatmışdır. Dövlət Neft Fondundan isə bu istiqamətdə 18,8 mln. manat vəsait ayrılmışdır. Ümumilikdə bu illər (2004-2009) ərzində ayrılan vəsaitlərin cəmi isə 1 milyard manatı ötərək 1.357.447.000.000 manata çatmışdır (Balakişiyev B., 2013). 2001-ci ildən 2009-cu ilə qədər toplam 81,8 min nəfər məcburi köçkün və qaçqından ibarət 18190 ailə üçün 646,1 mln. manat vəsait ayrılaraq 63 qəsəbə (ümumilikdə bu qəsəbələr 10168 min m$^2$ sahəyə malikdir), 1,27 km istilik xətti, 1007 km elektrik xətti, 537 elektrik transformatoru, 81,5 km uzunluğa malik qaz xətti, 645 km uzunluğuna malik su xətti, 542 km yol, 33,1 km uzunluğunda kanalizasiya xətti, 45 tibb məntəqəsi, 37 uşaq baxçası, 128 məktəb tikilərək istifadəyə verilmişdir. Bu işlərin həyata keçirilməsi üçün 646,1 mln. manat vəsait ayrılmışdır ki, bu vəsaitin 612,9 mln. manatı Dövlət Neft Fondundan ayrılan vəsaitlərdir. Bundan əlavə, qaçqınlar üçün 1330 ev tikilərək, onların bu evlərdə məskunlaşması təmin edilmişdir. Həmçinin kənd təsərrüfatı fəaliyyəti göstərə bilmələri üçün yeni qəsəbələrdə məskunlaşdırılan məcburi köçkünlərə dövlət tərəfindən maddi yardım edilir (Balakişiyev B., 2013). Əlavə olaraq bunu da qeyd etməyimiz yerinə düşərdi ki, 2004-cü ildən 2019-cu ilə kimi Azərbaycan Hökuməti Dünya Bankı ilə 125,4 mln. manat məbləğində kredit sazişi bağlamışdır. Bu kredit sazişləri ilə 910 icma mikrolayihəsi təşkil olunmuşdur ki, bu

layihələrdən 600 mindən artıq insan faydalana bilmişdir (http://idp.gov.az/az/care/parent/21).

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin 2019-cu il hesabatına əsasən, 1993-2019-cu illər intervalında məcburi köçkün və qaçqınların yerləşdirilməsi üçün 110 qəsəbə və yaşayış kompleksi tikilmişdir. Bu yaşayış məntəqələrində 7 inzibati bina, 1 polis məntəqəsi, 65 tibb məntəqəsi, 66 klub-icma və mədəniyyət mərkəzi, 162 məktəb, 71 uşaq bağçası, 1 mərasim evi istismara verilmiş və sosial infrastruktur formalaşdırılmışdır. Bu qəsəbə və yaşayış komplekslərinin ümumi sahəsi 3,9 milyon $m^2$ təşkil edir (http://idp.gov.az/az/law/126/parent/15). Əlavə olaraq 2020-ci ildə 1 ədəd 180 mənzilli qəsəbə, mənzillərinin sayı ümumilikdə 4212 olan 3 ədəd yaşayış kompleksi, 1 ədəd 200 mənzilli yaşayış məntəqəsi, ümumilikdə mənzillərinin sayı 96 olan 2 yaşayış binasının tikintisi başa çatdırılmışdır. Bu mənzillərin 2020-ci il zəfəri nəticəsində məcburi köçkünlərin yaxın zamanlarda dədə-baba yurdlarına qayıdacaqları nəzərə alınaraq Vətən müharibəsində şəhid olmuş və ya yaralanmış vətəndaşların ailələrinə verilməsi planlaşdırılmışdır (http://idp.gov.az/az/law/132/parent/15). Ümumilikdə 1993-2019-cu illər ərzində məcburi köçkünlərinin problemlərinin həlli istiqamətində təxminən 7,7 milyard manat vəsait xərclənmişdir. Bu xərclərin 3,8 milyard manat təşkil edən əsas hissəsi dövlət büdcəsindən maliyyələşdirilmişdir. Yerdə qalan vəsaitin 2,5 milyard manatı Dövlət Neft Fondu, 1,4 milyard manatı isə beynəlxalq maliyyə qurumları, humanitar və s. təşkilatların tərəfindən təmin edilmişdir. (http://idp.gov.az/az/law/126/parent/15) Həmçinin Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin 2020 və 2021-ci illər ərzində görülmüş işlər üzrə hesabatlarına əsasən, dövlət büdcəsindən məcburi köçkün ailələrinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, komunal xərclərinin qarşılanması və məcburi köçkünlərə vahid aylıq müavinətlərin verilməsi məqsədilə təxminən 750 milyon manata yaxın vəsait xərclənmişdir (http://idp.gov.az/az/law/cat/7/parent/15). Beləliklə, ermənilərin etnik düşmənçilik və işğal siyasəti nəticəsində öz yurdlarından didərgin düşmüş məcburi köçkünlərin

qarşılaşdığı sosial problemlərin həlli istiqamətində 1993-2021-ci illər ərzində Azərbaycan Respublikasının dövlət büdcəsindən təqribən 7,08 milyard manat, ARDNF-dan isə 2,5 milyard manat vəsait ayrılmışdır.

## 2.2. İyirmi səkkiz illik işğal dönəmində sığorta sistemindən dövlət büdcəsinə köçürmələrdə baş vermiş itkilərin və ümumilikdə dövlət büdcəsinə dəymiş zərərlərin qiymətləndirilməsi

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan iqtisadiyatının müxtəlif sahələrinə dəymiş zərərlərə nəzər saldıqdan sonra dəymiş maddi zərərlərin və dövlət büdcəsinə dəyən zərərlərin məbləğini təhlil edib qiymətləndirək. Bu zərərləri iki hissəyə ayıra bilərik:

- Müharibələrin vurduğu birbaşa zərərlər

- Atəşkəs illərində torpaqlarımızın itirilməsi nəticəsində büdcə daxilolmalarında baş vermiş itkilər)

Qarabağ işğal altında olduğu dövr ərzində bu regionun iqtisadiyyatının müxtəlif sahələrinə, sənaye, aqrar, ev təsərrüfatı, turizm, logistika və s. sahələrinə böyük maddi zərər dəymişdir. Bu torpaqlardan əldə edilən gəlirlər və mənfəət isə ermənilər tərəfindən qəsb olunmuşdur. 26 oktyabr 1996-cı il tarixində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin BMT-nin Baş Katibinə yolladığı məktubda Ermənistanın ərazilərimizə silahlı hücumları və ərazilərimizin işğal edilməsi nəticəsində Azərbaycana dəymiş maddi və mənəvi zərərin ümumi miqdarının on milyardlarla ABŞ dolları təşkil etdiyi bildirilirdi. Bu məbləğ tam müəyyən edilə bilinməyən məlumatlar əsasında təyin edilən məbləğ idi. Bəzi beynəlxalq təşkilatlara görə isə bu zərər 60 milyard ABŞ dollarını ötmüş idi (Qarayev R.M., 2012). Nümunə olaraq 2008-ci il 13 və 14 mart tarixlərində Seneqalın paytaxtı Dekar şəhərində təşkil edilən İslam Zirvə Konfransının 11-ci Sessiyasında (İslam Ümmətinin 21-ci əsrdəki iclası) qəbul edilmiş 2/11-E(IS) nömrəli "İKT-yə (indiki İslam Əməkdaşlıq Təşkilatı) üzv olan ölkələrə, üzv olmayan ölkələrə və müsəlman

icmalarına iqtisadi dəstək göstərilməsinə dair fəaliyyətlər haqqında" adlı qətnaməsini göstərə bilərik ki, bu qətnamənin "B" bəndində Ermənistan dövləti tərəfindən zəbt olunmuş ərazilərdə Azərbaycana dəyən iqtisadi zərərin məbləğinin 60 milyard ABŞ dollarını ötdüyü bildirilirdi (OIC 2008).

Atəşkəsin imzalandığı 1994-cü ilə qədər müddətdə müharibənin vurmuş olduğu maddi zərərlərə ayrı-ayrılıqda nəzər salaq. 1994-cu il üzrə qiymətlərlə Azərbaycan iqtisadiyyatına dəymiş, təxminən 60 milyard dollar məbləğində olan birbaşa zərərin yarıdan bir qədər çoxu keçmiş DQMV ərazisinin işğalı səbəbindən yaranan zərərlərdir. Təqribi hesablamalar göstərir ki, təkcə keçmiş DQMV ərazisində yerləşən, tarixi şəhərimiz Şuşanın zəbt olunması ilə Azərbaycanın dövlət bücəsinə 4.257.474.000 ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur. Lakin bir məsələni də qeyd edək ki, maddi dəyərini ölçmək imkanı olmadığından Şuşada işğalçılar tərəfindən məhv edilən tarix və mədəniyyət abidələrinin, eləcə də Daşaltı Dövlət Təbiət yasasaqlığının qiyməti, bu rəqəmlərdə göstərilməmişdi (Süleymanov E.S. və Süleymanov V.E., 2012).

İşğal edilmiş DQMV ətrafında yerləşən digər yeddi rayona gəldikdə isə, bu rayonların işğalı ilə bücəyə birbaşa vurulan zərər 28 milyard ABŞ dollarını ötür. Bu zərərlər hər bir rayon üzrə aşağıdakı kimidir:

- Laçın rayonu – 7.099.526.500 ABŞ dolları
- Ağdam rayonu – 6.100.107.000 ABŞ dolları
- Füzuli rayonu – 4.742.936.050 ABŞ dolları
- Cəbrayıl rayonu – 3.450.000.000 ABŞ dolları
- Zəngilan rayonu – 3.414.170.000 ABŞ dolları
- Kəlbəcər rayonu – 1.774.000.000 ABŞ dolları
- Qubadlı rayonu – 1.485.627.000 ABŞ dolları (Süleymanov E.S. və Süleymanov V.E., 2012).

Ermənistanın birinci Qarabağ müharibəsi illərində rayonlarımıza vurduğu zərərlər yalnız bu rayonlara vurulmuş zərərlərlə yekunlaşmır, bu rayonlardan başqa digər cəbhəyanı və sərhəd rayonlarına da böyük zərər dəymişdir. Bu rayonlara Tərtər, Ağcəbədi, Beyləqan, Qazax və digər rayonları misal göstərmək olar. Ümumilikdə bu rayonlara 1.389.233.284 ABŞ dolları həcmində maddi zərər dəymişdir. Həmin rəqəmlərə nəzər salaq:

- Tərtər və Ağdərə rayonları 799.295.100 ABŞ dolları;
- Qazax rayonu – 327.529.464 ABŞ dolları;
- Tovuz rayonu – 189.873.420 ABŞ dolları;
- Gədəbəy rayonu – 44.303.800 ABŞ dolları;
- Ağcabədi rayonu – 22.420.050 ABŞ dolları;
- Beyləqan rayonu – 3.812.500 ABŞ dolları;
- Ağstafa rayonu – 1.998.950 ABŞ dolları (Süleymanov E.S. və Süleymanov V.E., 2012).

Göründüyümüz kimi, təkcə 1-ci Qarabağ müharibəsi başladığı zamandan atəşkəsin imzalandığı zamana qədər olan müddət ərzində müharibə nəticəsində Azərbaycana 60 milyard ABŞ dollarından çox məbləğdə maddi zərər dəymişdir. Nəzərə almaq lazımdır ki, bu məbləğ 1994-cü ildə ABŞ dollarının dünya bazarındakı alıcılıq qiymətinə əsasən 60 milyard dollar təşkil edir və 2022-ci ilə qədərki 28 il ərzində dollar inflyasiyaya məruz qalmış, alıcılıq qiyməti 2 dəfə aşağı düşmüşdür. Belə ki, rəsmi məlumatlara əsasən, 1994-cü ilin yanvar ayından 2022-ci ilin aprel ayına qədər olan zaman kəsimində ABŞ dolları 98 faiz inflyasiyaya məruz qalmışdır ki, bu da ABŞ dollarının alıcılıq qabiliyyətinin bu illər ərzində 1,98 dəfə aşağı düşməsi deməkdir (https://data.bls.gov/cgi-bin/cpicalc.pl?cost1=1.00&year1=199401&year2=202204). Buna əsasən, 60 milyardla 1,98-in hasilini taparaq Qarabağın işğalı və müharibə nəticəsində ölkə iqtisadiyyatına dəyən birbaşa zərərin 2022-ci il nominal qiymətləri üzrə neçə ABŞ dolları təşkil etdiyini

hesablaya bilərik. Beləliklə, təkcə 1-ci Qarabağ müharibəsi illəri ərzində Ermənistan Silahlı Qüvvələrinin hücumları və torpaqlarımızın işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına dəymiş birbaşa zərərin təqribən 118.800.000.000 (yüz on səkkiz milyard səkkiz yüz milyon) ABŞ dolları həcmində olduğunu görürük.

Təbii ki, ölkəmizin iqtisadiyyatına dəymiş zərərlər qeyd olunanlarla yekunlaşmır. İllər ərzində torpaqlarımızın işğal altında qalması səbəbindən bu ərazilərdən büdcəmizə gəlirlər daxil olmamışdır ki, bu da respublikamızın ərazisinin iyirmi faizindən, yəni 1/5 hissəsindən dövlət büdcəsinə daxilolmaların itirilməsi deməkdir. İşğaldan əvvəlki illərin statistikasını nəzərə aldıqda torpaqlarımızın işğal olunması səbəbindən ölkəmiz hər il ümumi daxili məhsulunun xeyli hissəsini itirmişdir. Belə ki, işğaldan əvvəlki illərdə Azərbaycanın ÜDM-sinin təqribən 15 %-i keçmiş DQMV ərazisində, 10%-i isə işğal edilən digər rayonlarımızın ərazisində istehsal olunurdu (Süleymanov E.S. və Süleymanov V.E., 2012). Bu göstərici bölgə üçün kifayət qədər yüksək göstəricidir. Bu torpaqlarda istehsal edilən ÜDM-nin Azərbaycanın ÜDM-sinin ümumi həcminin ¼ hissəsini təkil etməsini nəzərə aldıqda bölgənin Azərbaycan üçün çox əhəmiyyətli, iqtisadi potensialı güclü olan, yükək məhsuldarlığı ilə seçilən bölgə oluğu aşkar olur. Yuxarıdakı rəqəmlərə və bir sıra başqa statistik göstəricilərə əsasən, torpaqlarımızın işğalından hazırki dövrə qədər olan müddət ərzində bu ərazilərdə istehsal edə biləcəyimiz ÜDM-nin təqribi həcmini hesablaya bilərik. Bunun üçün cədvəl 7-də göstərilən Dövlət Statistika Komitəsinin məlumatlarına nəzər salaq.

**Cədvəl 7. Azərbaycan Respublikasının illər üzrə ümumi daxili məhsul istehsalının statistikası**

| | **Milyon manatla** | **Milyon dollarla** |
|---|---|---|
| **1994** | 374,7 | 1629,3 |
| **1995** | 2133,8 | 2415,2 |
| **1996** | 2732,6 | 3180,8 |
| **1997** | 3158,3 | 3960,7 |
| **1998** | 3440,6 | 4446,4 |
| **1999** | 3775,1 | 4583,7 |
| **2000** | 4718,1 | 5272,8 |
| **2001** | 5315,6 | 5707,7 |

| | | |
|---|---|---|
| **2002** | 6062,5 | 6235,9 |
| **2003** | 7146,5 | 7276,0 |
| **2004** | 8530,2 | 8680,4 |
| **2005** | 12522,5 | 13238,7 |
| **2006** | 18746,2 | 20983,0 |
| **2007** | 28360,5 | 33050,3 |
| **2008** | 40137,2 | 48852,5 |
| **2009** | 35601,5 | 44297,0 |
| **2010** | 42465,0 | 52909,3 |
| **2011** | 52082,0 | 65951,6 |
| **2012** | 54743,7 | 69683,9 |
| **2013** | 58182,0 | 74164,4 |
| **2014** | 59014,1 | 75234,7 |
| **2015** | 54380,0 | 52996,8 |
| **2016** | 60425,2 | 37862,8 |
| **2017** | 70337,8 | 40867,9 |
| **2018** | 80092,0 | 47112,9 |
| **2019** | 81896,2 | 48174,2 |
| **2020** | 72432,2 | 42607,2 |
| **2021** | 92857,7 | 54622,2 |
| **Cəmi** | **868806,1** | **875998,3** |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/system_nat_accounts/)

Gördüyünüz kimi, cədvəl 7-də Azərbaycan Respublikasının 1994-cü ildən 2021-ci ilə qədər hər il üzrə istehsal olunan ÜDM-nin həcmi göstərilmişdir. Bu illər ərzində ÜDM istehsalının ümumi həcmi 875.998.300.000 ABŞ dolları məbləğində olmuşdur. Qeyd etdik ki, işğaldan öncəki illər ərzində Qarabağın işğal olunmuş ərazilərinin Azərbaycanın ÜDM istehsalındakı payı 25% idi. Lakin nəzərə almaq lazımdır ki, sonrakı illərdə ölkəmizin ÜDM-sinin strukturunda böyük dəyişikliklər baş vermişdir. Azərbaycanın neft-qaz sahəsində böyük layihələrə imza atması ilə ölkəmizin ÜDM-sinin həcmi çox sürətlə böyüməyə və gəlirlərinin həcmi artmağa başladı. Bununla da neft-qaz sektoru ÜDM-də çox böyük paya sahib oldu və iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışında Bakı iqtisadi rayonunun payı 70-75 % təşkil etməyə başladı (https://www.stat.gov.az/source/system_nat_accounts/). Həmçinin Bakının paytaxt şəhəri olması, bu şəhərdə əhalinin demoqrafik təmərküzləşməsi kimi amillər ölkənin ÜDM istehsalında Bakı iqtisadi rayonunun payının çox yüksək olmasına və digər

iqtisadi rayonların isə ÜDM-dəki paylarının azalmasına yol açmışdır. Bakıdan sonra isə ölkənin ümumi daxili məhsul istehsalındakı xüsusi çəkisi daha yüksək olan iqtisadi rayonlar Naxçıvan MR və Abşeron-Xızı iqtisadi rayonlarıdır. Bu iqtisadi rayonların son on il ərzində iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışındakı payları ortalama olaraq Naxçıvan MR üzrə təxminən 4,5 %, Abşeron-Xızı iqtisadi rayonu üzrə isə 3,8 % təşkil etmişdir (https://www.stat.gov.az/source/system_nat_accounts/).

**Cədvəl 8: Azərbaycanın iqtisadi rayonlarında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışında xüsusi çəkisi**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Bakı** | 72,8 | 72,9 | 70,2 | 71,7 | 71,4 | 72,3 | 68,4 | 64,7 | 68,8 |
| **Naxçıvan MR** | 4,6 | 4,7 | 5,3 | 5,0 | 4,4 | 4,1 | 4,1 | 4,6 | 3,7 |
| **Abşeron-Xızı** | 2,2 | 2,5 | 2,7 | 2,9 | 2,9 | 3,5 | 6,0 | 7,0 | 6,0 |
| **Mərkəzi-Aran** | 2,9 | 3,1 | 3,3 | 2,6 | 2,8 | 2,5 | 2,8 | 3,0 | 2,4 |
| **Gəncə-Daşkəsən** | 2,1 | 2,2 | 2,5 | 2,4 | 2,4 | 2,1 | 2,1 | 2,6 | 2,2 |
| **Tovuz-Qazax** | 2,3 | 2,2 | 2,3 | 2,2 | 2,3 | 2,2 | 2,6 | 3,0 | 2,3 |
| **Mil-Muğan** | 1,8 | 1,8 | 2,0 | 2,1 | 1,9 | 1,8 | 2,0 | 2,1 | 1,9 |
| **Lənkəran-Astara** | 2,0 | 2,2 | 2,5 | 2,5 | 2,4 | 2,2 | 2,0 | 2,2 | 1,9 |
| **Şirvan-Salyan** | 2,2 | 2,1 | 2,2 | 2,1 | 2,4 | 2,5 | 2,6 | 2,6 | 2,1 |
| **Dağlıq Şirvan** | 0,9 | 0,9 | 1 | 1 | 1 | 1 | 1,2 | 1,1 | 0,9 |
| **Quba-Xaçmaz** | 2,1 | 2,0 | 2,1 | 2,0 | 2,1 | 2,0 | 2,4 | 2,5 | 2,1 |
| **Şəki-Zaqatala** | *2,3* | *1,7* | *2,0* | *1,9* | *2,0* | *1,9* | *2,1* | *2,5* | *1,8* |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/system_nat_accounts/)

İşğaldan azad edilmiş ərazilərimizin ölkəmizin ümumi sahəsinin 20 faizini təşkil etdiyini, 2 iqtisadi rayonun, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının

ərazisində yerləşdiyini, bu ərazilərdə sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və başqa iqtisadi sahələrin inkişaf potensialını, bu torpaqların iqtisadi cəhətdən məhsuldarlığını, həmçinin işğalın ölkəmizin iqtisadi-siyasi vəziyyətinə böyük mənfi təsir göstərdiyini nəzərə aldıqda, işğaldan azad edilmiş ərazilərimizin ölkəmizin ümumi daxili məhsul istehsalındakı xüsusi çəkisinin illər üzrə ortalama 12% təşkil edə biləcəyini qəbul etməyimiz kifayət qədər rasionaldır. Qeyd etdik ki, təkcə 1994-cü ildən 2021-ci ilə qədər olan dövr ərzində Azərbaycan Respublikasında ümumi daxili məhsul istehsalı 875.998.300.000 ABŞ dolları (hər il üzrə nominal qiymətlərin cəmi əsasında hesablanmışdır) təşkil etmişdir. Bu statistika əsasında biz həmin ildən cari dövrə qədər işğaldan azad etdiyimiz ərazilərimizdə ÜDM istehsalının təxmini həcmini hesablaya bilərik. Bunun üçün bu illər ərzində Azərbaycanda istehsal olunan ÜDM-nin həcmini 88% qəbul etməliyik. Çünki, işğal dövrü ərzində işğal altında qalan torpaqlarımızda istehsal oluna biləcək ÜDM-nin Azərbaycanın bu dövrdə istehsal edə biləcəyi toplam ÜDM-sinin 12%-ini təşkil edə biləcəyini qəbul etdik. Beləliklə, ilk öncə işğaldan azad edilmiş ərazilərimizlə birlikdə Azərbaycan Respublikasında 1994-2021-ci illər ərzində istehsal edilə biləcək toplam ÜDM-nin (yəni 100%) həcmini tapmalıyıq. Sonra isə istehsal edilə biləcək toplam ÜDM-dən digər ərazilərimizdə bu illər ərzində istehsal olunmuş ÜDM-ni çıxaraq illər boyu işğal altında qalan torpaqlarımızda istehsal oluna biləcək ÜDM-ni tapmaq lazımdır. Toplam ÜDM-ni “$T_{üdm}$”, işğal illəri ərzində Azərbaycanın digər ərazilərində istesal olunmuş ÜDM-ni “$İ_{üdm}$”, işğal altında qalmış ərazilərimizdə itirdiyimiz ÜDM-ni isə “$X_{üdm}$” kimi işarələyərib, bəsit riyazi üsulla, tənasüblə hesablama aparaq:

$$İ_{üdm} \quad - \quad 88\%$$

$$T_{üdm} \quad - \quad 100\%$$

$İ_{üdm} = 875.998.300.000$

$T_{üdm} = 875.998.300.000 \times 100 \div 88$

$T_{üdm} = 995.452.613.636,36$

Hesablamanın nəticəsinə əsasən, torpaqlarımız işğal altında qalmasaydı 1994-2021-ci illər ərzində Azərbaycanda təxminən toplam 995.452.613.636 ABŞ dolları həcmində ÜDM istehsal edilə bilərdi. İstehsal edilə biləcək toplam ÜDM-nin həcmi bizə bəlli olduqdan sonra bu illər ərzində işğal altında qalmış torpaqlarda istehsal edilə biləcək ÜDM-nin ($X_{üdm}$) həcmini hesablamaq üçün bütün ölkə üzrə istehsal oluna biləcək toplam ÜDM-dən ($T_{üdm}$) işğal altında olmayan ərazilərimizdə istehsal olunmuş, təxminən 876 milyard dəyərindəki ÜDM-ni çıxaq:

$$X_{üdm}=T_{üdm} - İ_{üdm}= 995.452.613.636 – 875.998.300.000= 119.454.313.636$$

Bununla da məlum olur ki, işğaldan azad edilmiş ərazilərimizdə 1994-cü ildən 2021-ci ilə qədər 119.454.313.636 ABŞ dolları həcmində ÜDM istehsal edilə bilərdi (hər il üzrə itkilərin nominal qiymətlərinin cəmi əsasında hesablanmışdır). Bu ərazilərdə illər ərzində itirmiş olduğumuz ÜDM bizə işğal nəticəsində sığorta sisteminə dəymiş zərəri və sığorta şirkətlərindən büdcəyə daxilolmaların azalmasını hesablamağa imkan yaradır.

Ümumi daxili məhsulun həcmi bəlli olduqdan sonra işğal olunmuş ərazilərimizdən Azərbaycan Respublikasının Dövlət büdcəsinə daxil olan gəlirlərin itkisinin, o cümlədən sığorta sektorundan büdcəyə daxilolmaların itkisinin həcmini hesablaya bilərik. Bildiyimiz kimi, son dövrlər ərzində Azərbaycanın ÜDM-sində sığorta sektorunun payı 1 faizə yüksəlmişdir. Lakin digər illərdə bu göstərici daha aşağı olmuşdur və zaman ötdükcə rəqəmlərdə dəyişikliklər baş vermişdir. İşğal nəticəsində sığorta sahəsində yaranan itkiləri hesablamaq üçün bu göstəriciləri nəzərə almaq lazımdır. Bunun üçün statistik göstəriciləri nəzərdən keçirək (Cədvəl 9).

**Cədvəl 9. Azərbaycan Respublikasının sığorta sektorunun inkişaf dinamikası**

| | **Yığılan sığorta haqları (milyon avro)** | **Sığortanın nüfuzetmə dərəcəsi (ÜDM-də xüsusi çəkisi, %)** |
|---|---|---|
| **2008** | 158,8 | 0,47 |
| **2009** | 142,0 | 0,46 |
| **2010** | 147,3 | 0,37 |
| **2011** | 209,3 | 0,42 |

| | | |
|---|---|---|
| **2012** | 330,1 | 0,63 |
| **2013** | 376,3 | 0,70 |
| **2014** | 450,7 | 0,74 |
| **2015** | 260 | 0,81 |
| **2016** | 261 | 0,80 |
| **2017** | 274 | 0,79 |
| **2018** | 374 | 0,91 |
| **2019** | 358 | 0,83 |
| **2020** | 349 | 1,00 |
| **2021** | 438 | 0,91 |

**Mənbə:** XPRIMM Insurance Report Full Year 2014, XPRIMM Insurance Report Full Year 2019 və XPRIMM Insurance Report Full Year 2021

Cədvəldə göstərilən illər üzrə sığortanın nüfuzetmə faizləri əsasında Azərbaycanın sığorta sisteminə vurulmuş ziyanı təqribi olaraq müəyyən edə bilərik. Bunun üçün statistik göstəricilər əsasında ümumiləşdirmə apararaq işğal dövrü ərzində sığorta sisteminin ümumi daxili məhsuldakı payını təyin edib hesablama aparmaq məqsədəuyğundur. Bu yolla işğal edilmiş ərazilərimizdə sığorta sisteminin itirmiş olduğu sığorta haqlarının həcminin nə qədər olduğunu müəyyən etmiş olarıq. Daha sonra isə sığorta haqlarındakı vergi yükü əsasında işğal nəticəsində sığorta sektorundan dövlət büdcəsinə daxilolmaların itkisinin həcmini hesablaya bilərik (Cədvəl 10).

**Cədvəl 10. İşğal nəticəsində Azərbaycan Respublikasının sığorta sektorundan dövlət büdcəsinə daxilolmaların itkisi (ABŞ dolları)**

| | **Ölkə ərazisində istehsal edilən ÜDM** | **İşğal edilmiş ərazilərimizdə itirilmiş ÜDM** | **Sığorta sektorunun ÜDM-də payı (ÜDM × 0,7%)** | **İşğal edilmiş ərazilərimizdə sığorta sektoruna dəymiş zərər (ÜDM × 0,7%)** |
|---|---|---|---|---|
| **1994** | 1629,3 mln. | 222,2 mln. | 114,1 mln. | 15,6 mln. |
| **1995** | 2415,2 mln. | 324,3 mln. | 169,1 mln. | 22,7 mln. |
| **1996** | 3180,8 mln. | 433,7 mln. | 222,7 mln. | 30,4 mln. |
| **1997** | 3960,7 mln. | 540,1 mln. | 277,3 mln. | 37,8 mln. |
| **1998** | 4446,4 mln. | 606,3 mln. | 311,3 mln. | 42,4 mln. |
| **1999** | 4583,7 mln. | 625,1 mln. | 320,9 mln. | 43,8 mln. |
| **2000** | 5272,8 mln. | 719,0 mln. | 369,1 mln. | 50,3 mln. |
| **2001** | 5707,7 mln. | 778,3 mln. | 399,5 mln. | 54,5 mln. |
| **2002** | 6235,9 mln. | 850,4 mln. | 436,5 mln. | 59,5 mln. |
| **2003** | 7276,0 mln. | 992,2 mln. | 509,3 mln. | 69,5 mln. |

| | | | | |
|---|---|---|---|---|
| **2004** | 8680,4 mln. | 1183,7 mln. | 607,6 mln. | 82,9 mln. |
| **2005** | 13238,7 mln. | 1805,3 mln. | 926,7 mln. | 126,4 mln. |
| **2006** | 20983,0 mln. | 2861,3 mln. | 1468,8 mln. | 200,3 mln. |
| **2007** | 33050,3 mln. | 4506,9 mln. | 2313,5 mln. | 315,5 mln. |
| **2008** | 48852,5 mln. | 6661,7 mln. | 3419,7 mln. | 466,3 mln. |
| **2009** | 44297,0 mln. | 6040,5 mln. | 3100,8 mln. | 422,8 mln. |
| **2010** | 52909,3 mln. | 7214,9 mln. | 3703,7 mln. | 505,0 mln. |
| **2011** | 65951,6 mln. | 8993,4 mln. | 4616,6 mln. | 629,5 mln. |
| **2012** | 69683,9 mln. | 9502,4 mln. | 4877,9 mln. | 665,2 mln. |
| **2013** | 74164,4 mln. | 10113,3 mln. | 5191,5 mln. | 707,9 mln. |
| **2014** | 75234,7 mln. | 10259,3 mln. | 5266,4 mln. | 718,2 mln. |
| **2015** | 52996,8 mln. | 7226,7 mln. | 3709,8 mln. | 505,9 mln. |
| **2016** | 37862,8 mln. | 5163,1 mln. | 2650,4 mln. | 361,4 mln. |
| **2017** | 40867,9 mln. | 5572,9 mln. | 2860,8 mln. | 390,1 mln. |
| **2018** | 47112,9 mln. | 6424,5 mln. | 3297,9 mln. | 449,7 mln. |
| **2019** | 48174,2 mln. | 6569,2 mln. | 3372,2 mln. | 459,8 mln. |
| **2020** | 42607,2 mln. | 5810,1 mln. | 2982,5 mln. | 406,7 mln. |
| **2021** | 54622,2 mln. | 7448,5 mln. | 3823,6 mln. | 521,4 mln. |
| **Cəmi** | **875998,3 mln.** | **119454,3 mln.** | **61319,9 mln.** | **8361,8 mln.** |

**Mənbə:** Müəllifin hesablamaları (əvvəlki cədvəllərdəki statistik göstəricilərdən istifadə edilmişdir)

Statistik göstəriciləri nəzərə alaraq işğal dövrü ərzində Azərbaycanda sığortanın nüfuzetmə dərəcəsini, yəni sığorta haqlarının ÜDM-dəki payını ortalama 0,7 % təyin etdik. Beləliklə, işğala məruz qalmış torpaqlarımızda ÜDM itkisinin həcminin 0,7 %-ini hesablayaraq, sığorta sisteminə vurulmuş zərərlərin həcminin 8.361.800.000 ABŞ dolları olduğunu müəyyən etmiş olduq. Bu zərərlərin həcmi bəlli olduğuna görə işğal səbəbindən sığorta sekroruna dəyəm ziyanın nəticəsində büdcədə yaranmış itkiləri hesablayaq. Müəyyən etdik ki, 1994-2021-ci illər ərzində işğal ediliş bölgələrimizdə 8361,8 milyon ABŞ dolları sığorta haqqı yığıla bilərdi. Sığorta haqlarına düşən orta vergi yükünün təxminən 6 % təşkil etdiyini nəzərə alsaq, aşağıda göstərilən hesabalama vasitəsilə sığorta sektorundan ölkəmizin büdcəsinə daxilolmaların azalmasının həcmini müəyyən edə bilərik:

$8.361.800.000 \times 0,06 = 501.708.000$

Nəticədə işğal səbəbindən ölkəmizin büdcəsinə vurulan zərərlərin 501.708.000 ABŞ dollarının sığorta sahəsindən olduğu aydın oldu.

İqtisadiyyatımızın itirmiş olduğu ümumi daxili məhsulun həcmini və sığorta sahəsinə vurulmuş ziyanın nəticəsində dövlət büdcəsində yaranan itkiləri hesabladıqdan sonra işğal olunmuş ərazilərimizdən Azərbaycan Respublikasının Dövlət büdcəsinə daxil olan gəlirlərin itkisinin bütövlükdə nə qədər olduğunu hesablayaq. Bunun üçün ilk olaraq işğal dövrü ərzində itirilmiş ərazilərimizdə orta vergi yükünü müəyyən etmək lazımdır. ARDSK məlumatları əsasında işğal müddəti ərzində dövlət büdcəsinə daxil olan vergi daxilolmaları və bu vergilərin ÜDM istehsalının həcminə nisbəti əsasında apardığımız təhlil nəticəsində bu ərazilərin orta vergi yükünün təxminən 16% olaraq qiymətləndirdik. Qeyd edək ki, Statistika Komitəsinin məlumatlarına əsasən, 1994-ci ildən 2021-ci ilə kimi ÜDM-də vergi daxilolmalarının çəkisi ortalama olaraq 14% faiz təşkil edir (Cədvəl 11).

**Cədvəl 11: Azərbaycanın Respublikasında illər üzrə ÜDM istehsalında vergi daxilolmalarının xüsusi çəkisi (milyon manatla)**

| | ÜDM istehsalı | Vergi daxilolmaları | Vergilərin ÜDM-də xüsusi çəkisi (%) |
|---|---|---|---|
| **1994** | 374,7 | 53,9 | 14,4 |
| **1995** | 2133,8 | 230,9 | 10,8 |
| **1996** | 2732,6 | 371,5 | 13,6 |
| **1997** | 3158,3 | 465,4 | 14,7 |
| **1998** | 3440,6 | 421,6 | 12,3 |
| **1999** | 3775,1 | 467,7 | 12,4 |
| **2000** | 4718,1 | 574,4 | 12,2 |
| **2001** | 5315,6 | 714,0 | 13,4 |
| **2002** | 6062,5 | 835,5 | 13,8 |
| **2003** | 7146,5 | 1005,5 | 14,1 |
| **2004** | 8530,2 | 1232,2 | 14,4 |
| **2005** | 12522,5 | 1756,2 | 14,0 |
| **2006** | 18746,2 | 3047,7 | 16,3 |
| **2007** | 28360,5 | 5212,8 | 18,4 |
| **2008** | 40137,2 | 6724,9 | 16,8 |
| **2009** | 35601,5 | 5128,2 | 14,4 |
| **2010** | 42465,0 | 5266,8 | 12,4 |
| **2011** | 52082,0 | 6395,3 | 12,3 |

| | | | |
|---|---|---|---|
| **2012** | 54743,7 | 6975,0 | 12,7 |
| **2013** | 58182,0 | 7654,2 | 13,2 |
| **2014** | 59014,1 | 8370,2 | 14,2 |
| **2015** | 54380,0 | 8791,3 | 16,2 |
| **2016** | 60425,2 | 9031,0 | 14,9 |
| **2017** | 70337,8 | 9356,2 | 13,3 |
| **2018** | 80092,0 | 10587,3 | 13,2 |
| **2019** | 81896,2 | 11755,1 | 14,4 |
| **2020** | 72432,2 | 11151,4 | 15,4 |
| **2021** | 92857,7 | 12647,5 | 13,6 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/)

Respublikamızda iqtisadiyyatın bəzi sahələrinin vergilərdən azad edildiyini və bu kimi vergi güzəştlərinin həmin rəqəmlərdə öz əksini tapmadığını nəzərə alsaq, orta vergi yükünü 16 % olaraq qəbul etmək daha doğru olar. Bu əsasla apardığımız qiymətləndirməyə əsasən, 1991-ci ildən indiyə kimi işğal səbəbindən büdcədaxilolmalarındakı itkiləri hesablayaq. Aşkar etdik ki, 1994-cü ildən cari dövrə kimi Qarabağda istehsal oluna biləcək ÜDM təqribən 119.454.313.636 ABŞ dolları həcmində ola bilərdi. Beləliklə, biz illər ərzində Qarabağda istehsal oluna biləcək ÜDM-nin 16 %-ni hesablayaraq işğaldan azad edilmiş ərazilərimizdən büdcəyə daxil ola biləcək gəlirlərin həcminin nə qədər olduğunu qiymətləndirə bilərik. Bu nisbətlə əldə etdiyimiz nəticəyə əsasən, Qarabağın erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi nəticəsində işğaldan azad edilmiş ərazilərimizdən 1994-2021-ci illər ərzində Azərbaycan Respublikasının Dövlət büdcəsinə daxilolmaların itkisi 19.112.690.182 (on doqquz milyard yüz on iki milyon altı yüz doxsan min yüz səksən iki) ABŞ dolları həcmindədir. Əlbəttə, dəymiş zərəri tam dəqiqliklə hesablamaq və qiymətləndirmək mümkün deyil. Hesabladığımız 20 milyard ABŞ dollarına yaxın olan büdcə daxilolmaları itkiləri 1994-cü ildən cari dövrə qədər olan müddət ərzindəki statistik göstəricilər əsasında aparılsa da düşünürük ki, Azərbaycan Respublikasının iqtisadi imkanlarını nəzərə aldıqda itkilərin miqdarı bizim hesablamalarımızla əldə etdiyimiz məbləğdən daha çox ola bilər.

# III FƏSİL. İŞĞALDAN AZAD EDILMIŞ ƏRAZILƏRDƏ GÖRÜLƏ BİLƏCƏK İŞLƏR VƏ DƏYMİŞ ZƏRƏRLƏRIN ARADAN QALDIRILMASI YOLLARI

## 3.1. Dövlət büdcəsinə daxilolmaların artımı Qarabağın iqtisadi potensialı və sığorta sektorunun inkişaf perspektivləri fonunda

Müzəffər Azərbaycan ordusunun başlatdığı əks-hücum əməliyyatları nəticəsində tarixi torpaqlarımız və Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ artıq öz sahiblərinə geri qayıtmışdır. Bu qələbə vasitəsilə Azərbaycan beynəlxalq siyasi arenada öz sözünü demiş oldu və regionda yeni reallıqlar yaratdı. Torpaqlarımızı azad etdikdən sonra qarşımızda yeni bir vəzifə, Qarabağın iqtsadi və sosial infrastrukturunu bərpa etmək vəzifəsi durur. Bununla da Azərbaycan iqtisadiyyatında, eləcə də sığorta sahəsində yeni inkişaf mərhələsi yaranmaq üzrədir. Bu iqtisadi inkişaf dövründə Qarabağ regionunun sənaye, ticarət və logistika mərkəzlərindən birinə çevriləcəyi gözlənilədir. Torpaqlarımız azad edildikdən sonra bu ərazilərimizin iqtisadiyyatını dirçəltmək üçün genişmiqyaslı yenidənqurma işlərinə başlanıldı. Bu məqsədlə atrıq 2 ildir ki, büdcədən xeyli vəsait ayrılır və yaranmış xərclər dövlət büdcəsi layihələrinə salınır. Bu bölgələrdə yenidənqurma işlərini həyata keçirmək üçün vəzifəsi şəhərsalma məsələləri olan qərargah və digər mərkəzlər yaradılmışdır. Gələcəkdə bu bölgənin regionun ən inkişaf etmiş bölgələrindən birinə çevrilməsi üçün fəaliyyətlər həyata keçirilir və bunun yaxın zamanlarda baş tutacağı gözlənilir. “Qarabağın keçmişi, bu günü və gələcəyi” mövzusunda keçirilən konfransda Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov bildirib ki, onun təmsil etdiyi qurum tərəfindən 1 milyon 350 min hekrarlıq ərazinin inkişaf planı hazırlanması düşünülür (https://azertag.az/xeber/1706353). Bərpa işlərinin xərcləri bilavasitə öz büdcəmiz tərəfindən maliyyələşdirilir, lakin bu torpaqlara investisiya yatıraraq yenidənqurma işlərinin maliyyələşdirilməsində digər ölkələrin şirkətlərinin də iştirak etmələrinə şərait yaradılır. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında çıxış edərkən bildirib:

“Bərpa işlərini biz özümüz, öz vəsaitlərimiz hesabına maliyyələşdirəcəyik. Lakin biz istəyirik ki, şəhərlərimizin və kəndlərimizin bərpasına dost ölkələrdən olan şirkətlər cəlb edilsin. Qoy onlar da bu layihələri həyata keçirə bilsinlər və həmrəylik nümayiş etdirsinlər...” (https://president.az/articles/49197)

Həmçinin Maliyyə naziri Samir Şərifov parlament komitəsinin iclasında vurğulayıb ki, “İşğaldan azad edilmiş torpaqlarda bərpa işləri dövlətin qarşısında duran ən önəmli məsələdir. Buna görə 2021-ci ilin dövlət büdcəsində bu sahəyə xüsusi diqqət yetirilir". O cümlədən Maliyyə Nazirliyinin məlumatına görə, büdcə vəsaitlərinin ilk öncə yol, elektrik enerjisi, mənzil-kommunal infrastrukturlarının bərpasına, təhsil obyektlərinin yaradılmasına, səhiyyə işlərinə, habelə mədəniyyət-tarix abidələrinin bərpasına yönəldilməsi planlaşdırılır (https://president.az/articles/49933/print). Hazırda regionda quruculuq işləri davam etməkdədir. Bu isə həmin ərazilərdə tikinti işləri həyata keçirəcək olan qurumların və şirkətlərin işçilərini sığortalaması zərurətini yaradır. Bu baxımdan işçilərin istehsalatda bədbəxt hadisələrdən sığortalanması diqqət mərkəzində olan sığorta növlərindəndir. Həmçinin tikinti şirkətlərinin fəaliyyətləri prosesində risklərdən sığortalanmaq üçün tikinti və quraşdırma sığortası və s. sığorta növlərindən istifadə edəcəyi gözlənilir. Azad edilən ərazilərimizdə tikinti və bərpa işlərini bu ərazilərdə sığorta sisteminin başlanğıc mərhələsi hesab edə bilərik.

Qeyd etdiyimiz kimi, Qarabağ yüksək perspektivlərə malik bir ərazidir və regionda strateji, iqtisadi üstünlüklərə sahibdir. Bunun səbəbi onun zəngin təbii sərvətlərə, şimal və cənub, qərb ilə şərqi birləşdirən strateji mövqeyə sahib olması və beynəlxalq tranzit olmaq potensialına malik olmasıdır. Ölkəmizin ərazilərinin 1/5 hissəsini əhatələyən bu torpaqların zəbt edilməsi Azərbaycanın sığorta sisteminə ciddi zərər vermişdir. Əvvəlki fəsildə vurğulandığı kimi, həmin zərərin həcmi milyardlarla dollar dəyərindədir. Bu bölgənin iqtisadi üstünlüklərindən səmərəli istifadə olunması və lazımi sahələrə investisiyalar yatırılması bu bölgədən böyük mənfəət əldə etməyimizə gətirib çıxaracaqdır. Bölgədə kənd təsərrüfatı, yüngül,

yeyinti, dağ-mədən, metallurgiya sənayeləri, turizm və iqtisadiyyatın digər sahələrinə yatırılan investisiya qoyuluşları nəticəsində ÜDM və büdcədaxilolmalarında xeyli artım müşahidə edilə bilər. Bu sahələrə cəlb edilən investisiyalar Azərbaycanın iqtisadi inkişafına, sığorta sisteminin inkişaf etdirilməsinə və sığortanın ÜDM-dəki çəkisinin artmasına səbəb olacaqdır. Bu baxımdan Qarabağ sığorta sahəsində yüksək inkişaf perspektivlərinə və ümumilikdə maliyyə potensialına malikdir. Bu ərazilərin iqtisadi imkanlarına nəzər saldıqda torpaqlarımızın geri qaytarılmasının nəticəsi olaraq, müxtəlif növ sığorta məhsullarının sığorta bazarındakı çəkisinin artacağı gözlənilir. İqtisadiyyatın müxtəlif sahələrinə aid olan bu imkanlar və həmin ərazilərdən iqtisadi mənfəətin artırılması üçün regionda görülə biləcək işlər haqqında danışacağıq. Ümumilikdə statistik göstəricilərə əsasən, 2008-ci ildən cari dövrə kimi Azərbaycanın sığorta sahəsində 2,5 dəfədən çox artım baş vermişdir. Güclü iqtisadi perspektivləri olan ərazilərimizin azad edilməsilə yaxın gələcəkdə bu artım tendensiyasının sürətlənəcəyi gözlənilir.

İşğaldan azad etdiyimiz Qarabağ regionunun strateji əhəmiyyətlərindən biri budur ki, bu region şərq ilə qərbi birləşdirən beynəlxalq tranzit rolunu oynaya bilər. Bu torpaqlarımızın azad edilməsi nəticəsində ölkəmizin nəqliyyat və kommunikasiya potensialı artmışdır ki, bunun nəticəsində ölkəmiz böyük iqtisadi layihələr reallaşdıra bilər. Ermənistanın kapitulasiyası nəticəsində 2020-ci il noyabr ayının 10-da imzalanan üçtərəfli bəyanatın son bəndinə əsasən, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında nəqliyyat əlaqəsinin bərpa edilməsi ilə regionda yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Əvvəllər Gürcüstan və ya İran vasitəsi ilə Türkiyə və Avropa ölkələrinə dolayı yolla çıxış əldə edirdiksə, artıq Zəngəzur dəhlizi vasitəsilə birbaşa çıxış əldə etməkdəyik. Bu da kommunikasiya və nəqliyyat əlaqələrinin daha da asanlaşmasına və əlavə xərclərin azalmasına şərait yaradacaq. Bundan əlavə, Zəngəzur dəhzilinin açılması təkcə bizim deyil, Ermənistanın da xeyrinədir. Bu yolla onlar iqtisadi layihələrə qoşula, beynəlxalq ticarət əlaqələrində tranzit rolunu oynaya bilərlər. Həmçinin Ermənistanın ən yaxın müttəfiqi və ticarət tərəfdaşı olan Rusiya

Fedrasiyası ilə quru sərhəddinə malik olmaması ona iqtisadi inkişafda və ticarət əlaqələrində müəyyən çətinliklər yaradır. Zəngəzur dəhlizinin açılması ilə onlar Avrasiya İqtisadi Birliyi və Rusiya bazarlarına çıxış əldə edə bilərlər. Buna baxmayaraq, Ermənistan hökuməti Zəngəzur dəhlizinin açılmasını qəbullana bilmir. Azərbaycan hökuməti isə Zəngəzur dəhlizinin açılmasını gözləməyərək daha bir layihəyə əl qoydu. Belə ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı 2022-ci il 11 mart Anlaşma Memorandumuna əsasən, İran üzərindən Zəngilan rayonu ilə Ordubad rayonunu birləşdirəcək yeni nəqliyyat dəhlizi yaradılacaq. Belə ki, artıq Araz çayı üzərindən İrana, oradan Naxçıvan MR, oradan isə Türkiyə Cümhuriyyətinə keçid əldə etmiş olacağıq. Bu dəhliz, təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək nəqliyyat yolu deyil, həm də nəqliyyat və enerji sahəsində beynəlxaq dəhliz rolunu oynayacaqdır (https://president/az/az/articles/view/55603). Hesab edirik ki, beynəlxalq ticarətdə, nəqliyyat və kommunikasiya sahələrində baş verəcək inkişaf tendensiyası bəzi sığorta məhsullarının sığorta bazarındakı həcmini artıracaqdır. Bunlara dəmir yolu vasitələrinin sığortası, yüklərin sığortası (karqo sığorta), avtonəqliyyat vasitələrinin sığortası və s. kimi məhsullar daxildir. Bərdə-Ağdam, Füzuli-Şuşa, Bakı-Xankəndi, Horadiz-Ağbənd dəmir yollarının tikintisi və ya bərpa edilməsi nəticəsində dəmir yolu vasitələrinin sayının artırılacağı gözlənilir, bu halda isə həmin dəmir yolu vasitələrinin və yüklərin sığortalanması zərurəti yaranacaqdır. Torpaqlarımız işğaldan azad edildikdən çox qısa müddət sonra Füzulidə beynəlxalq hava limanı tikilib, istifadəyə verildi. Yaxın gələcəkdə isə Zəngilan və Laçın rayonlarında da hava limanlarının istifadəyə veriləcəyi gözlənilir. Bu aeroportların sığortalanması bölgədə yığılan sığorta haqlarının artmasında xeyli pay sahibi olacaqdır. Belə ki, aeroportların özünün sığortalanması ilə yanaşı, hava nəqliyyat vasitələrinin və sərnişinlərin sığortalanması zəruridir. Nəticədə hava nəqliyyat vasitələrinin sığortası, icbari sığorta növlərindən biri olan sərnişinlərin icbari fərdi qəza sığortası və hava nəqliyyat vasitələrinin sahiblərinin mülki məsuliyyət sığortası kimi sığorta məhsullarından

istifadə ediləcəkdir ki, bu da sığorta bazarında sığorta haqlarının artmasına səbəb olacaqdır və bu sığorta sisteminin inkişafına mübət təsir göstərə bilər.

İşğaldan azad edilən ərazilərimizin iqtisadi perspektivləri xarici ölkələrdən olan investorların marağına səbəb olmaqdadır. Şübhə yoxdur ki, xarici investorlardan daxil olacaq investisiya axınları bölgənin güclü iqtisadiyyatının formalaşmasına və büdcəmizə daxil olan gəlirlərdə böyük artım yaranmasına səbəb olacaq. Şərqi Zəngəzur və Qarabağın coğrafi relyefi, iqlimi, çay şəbəkəsi həm dağlıq, həm də dağətəyi və aran ərazilərə, əkin üçün münbit torpaqlara, qeyri-filiz və filiz faydalı qazıntılara sahib olmasını nəzərə alsaq, kənd təsərrüfatı, dağ-mədən, metallurgiya, tikinti, energetika sənayeləri, eləcə də turizm üçün geniş imkanlara malik olması aydın olur. Regionda iqtisadiyyatın bu sahələri üçün böyük perspektivlərin olması investorlara yatırım etmək üçün böyük imkanlar yaradır. Bu bölgədə artıq bir çox xarici şirkətlərin fəaliyyətləri nəzərə çarpır. Xüsusilə Türkiyə şirkətlərinin buradakı fəaliyyətləri daha çox diqqəti cəlb edir. İşğaldan azad edilmiş ərazilərimizdə Azərbaycanın Türkiyə, İran, Rusiya və başqa dövlətlərlə əməkdaşlıq etməsi bölgənin iqtisadiyyatının dirçəldilməsinə və bu ölkələrlə iqtisadi əlaqələrin gücləndirilməsinə səbəb olacaqdır. Şübhə yoxdur ki, xarici investorları maraqlandıran əsas mövzulardan biri öz bizneslərini risklərdən sığortalamaq və yatırımlarını maksimum dərəcədə zərərlərdən qorumaqdır. Buna görə də azad edilən ərazilərimizə sərmayə yatıran xarici investorlar bizneslərini sığortalamağa çalışacaq. İndidən həmin xarici investorların bölgədə formalaşacaq sığorta sektorunda xüsusi pay sahibi olacağını və sığorta bazarının inkişafında xarici investorların böyük rol oynayacağını təxmin etmək mümkündür.

Ölkəmizin kənd təsərrüfatıının inkişafında münbit torpaqlara malik Qarabağımızın azad olunmasının müstəsna əhəmiyyəti vardır. İşğaldan azad edilmiş rayonlarımızda aqrar sahənin inkişaf edəcəyi və ölkənin ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalında böyük həcmdə artım baş verəcəyi gözlənilir. Artıq bu istiqamətdə müəyyən işlərə başlanılıb. Torpaqlarımız işğaldan azad

edildikdən sonra görülən ilk işərdən biri budur ki, “Azərkosmos ASC” və Kənd Təsərrüfatı Nazirliyi birlikdə sözügedən ərazilərimizin peyk götüntüləri əsasında əkinaltı torpaqların xəritəsini tərtib etdilər (https://aztv.az/index.php/az/news/11143/qarabagda-kend-teserrufati-ile-bagli-yeni-planlar-fermerler-boyuk-qayidisi-gozleyir). Bu ərazilərdə ənənəvi aqrar sahələrin bərpası və inkişaf etdirilməsi planlaşdırılır ki, bununla da kənd təsərrüfatı məhsullarının Azərbaycan ixracatının əmtəə strukturundakı xüsusi çəkisində xeyli artım baş verə bilər. Eləcə də aqrar sahələrin inkişafı yeyinti sənayesinin də inkişafı üçün zəmin yaradacaqdır ki, bu da ölkənin ərzaq təminatının daha da artırılmasına və keyfiyyətinin yaxşılaşdırılmasına səbəb olacaqdır. Həmçinin qeyd edək ki, Azərbaycanda süd və süd məhsulları üzrə əhalinin özünütəminetməsi təxminən 86 %, ət və ət məhsulları üzrə isə təxminən 82% təşkil edir (Manafov Q.N., 2020). Şübhə yoxdur ki, Qarabağda kənd təsərrüfatı sahəsinin bərpa edilməsindən sonra ölkə əhalisi bu məhsullar üzrə özünü tam şəkildə təmin edə biləcəkdir. İşğaldan azad edilən ərazilərimizdə 600 min hektardan çox kənd təsərrüfatına yararlı topaq mövcuddur (Süleymanov E.S. və Süleymanov V.E., 2012). Torpaqlarımızın öz sahiblərinə geri qaytarılması nəticəsində əkinə yararlı torpaqların artması ilə bərabər, azad edilmiş ərazilərdə yerləşən su anbarları vasitəsilə həm işğaldan azad edilmiş, həm də digər ətraf rayonların əkin sahələrinin suvarılması mümkün olacaq. Bu torpaqlar pambıqçılıq, üzümçülük, taxılçılıq və heyvandarlığın inkişafı üçün yüksək perspektivə malikdir. Bu sahələrə yatırılacaq investisiyalar nəticəsində azad edilmiş rayonlarda istehsal olunan məhsullar ölkədaxili tələbatın böyük hissəsinin ödənilməsini təmin edə bilər. Həmçinin biz bu məhsulları xarici bazarlara çıxararaq ixracatımızı və qonşu ölkələrlə ticarət dövriyyəsinin həcmini artıra bilərik. Azərbaycanın ticarət balansına nəzər saldıqda ARDSK-nın məlumatlarına əsasən, 2020-ci ildə kənd təsərrüfatının ölkə ixracatının əmtəə strukturundakı payının təxminən 5,7%, yeyinti sənayesi məhsullarının isə təxminən 1% olduğunu görürük. İşğaldan azad edilən torpaqlarımızın kənd təsərrüfatı və yeyinti sənayesi üçün yüksək

perspektivlərə malik olmasını, həmin ərazilərdə işğaldan əvvəl iqtisadiyyatın bu sahələrinin ənənəvi sahələrdən olmasını, eləcə də bu sahələrin bu bölgədə yenidən bərpa edilərək inkişaf etdirilməsinin planlaşdırıldığını nəzərə alsaq, ticarət dövriyyəmizdə aqrar və yeyinti sektorlarının payının xeyli yüksələcəyi gözlənilir. Nəticədə isə ÜDM-də bu sektorların payının yüksəlməsinin təmin edilməsi büdcə gəlirlərimizin artmasına və iqtisadiyyatımızın daha da böyüməsinə, qeyri-neft sektorunun inkişafına səbəb olacaq. Məlumdur ki, ölkəmizdə kənd təsərrüfatı sığortası çox zəif inkişaf etmiş və diqqətdən kənarda qalmışdır. Qarabağın münbit torpaqlarının geri qaytarılması kənd təsərrüfatı məhsullarının sığortası sahəsində yeni bir səhifə aça bilər. Belə ki, bu ərazidələrdəki münasib iqlim şəraiti və münbit torpaqlar həmin ərazilərdə sərfəli tariflərlə sığorta məhsullarının yaradılmasına geniş imkanl ar yaradır. Aqrar məhsulların sığortalanmasına diqqət göstərilməsi, cəlbedici sığorta məhsullarının təklif edilməsi kənd təsərrüfatı müəssisələrini və fermerləri daha çox məhsul istehsalına təşviq edə və nəticədə bu sahə üzrə istehsalatın artırılmasını stimullaşdıra bilər. Bu isə həmin ərazilərin aqrar potensialından daha çox istifadə olunmasına zəmin yaradacaqdır.

Sənayenin inkişafı üçün yüksək potensiala malik olan işğaldan azad edilmiş ərazilərimizin böyük xammal bazasına sahib olması bu ərazilərdə sənaye sektorunun inkişaf edəcəyini düşünməyimizə əsas verir. Bu torpaqlar qeyri-fılız və fılız faydalı qazıntılarla zəngin olması ilə seçilir. Sözügedən ərazilərimiz Azərbaycanın ən inkişaf etmiş sənaye mərkəzlərindən biri ola bilər. Bu sektorun inkişaf etdirilməsi üçün regiona yatırılan investisiyalar Azərbaycanda istehsalın artırılmasına zəmin yarada bilər ki, bu da sənaye məhsulları üzrə idxalın azaldılmasına, iqtisadiyyatımızın daha da güclənməsinə və böyüməsinə yol açacaqdır. Daha əvvəl qeyd etdiyimiz kimi, işğaldan azad edilən torpaqlarımızda dəmir, mis, civə, xromit, perlit və s. kimi müxtəli növ tikinti materialları yataqları mövcuddur. Xüsusilə bu ərazilərdə tikinti materiallarının çox zəngin olması ölkəmizdə tikinti və inşaat sektorlarının inkişafını sürətləndirə bilər. Regionda həm də çox qiymətli qızıl yataqları mövcuddur. Bunlara

Kəlbəcər inzibati rayonundakı Söyüdlü (Zod) yatağını göstərə bilərik. Torpaqlarımızın azad edilməsilə hər bir ölkə üçün çox zəruri olan qızıl ehtiyatlarımızın həcmi faktiki olaraq daha da artdı. İşğal müddəti boyunca burada ermənilər bizim bu sərvətləri istismar etmiş və xeyli mənfəət əldə etmişdirlər. Həmçinin bəzi xarici şirkətlər də burada qanunsuz olaraq kommersiya fəaliyyətləri həyata keçirmişdir. Ümumilikdə buradakı filiz faydalı qazıntıların dövriyyəyə cəlb edilməsi burada dağ-mədən və metallurgiya sənayelərinin inkişafına səbəb ola bilər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ilkin təhlillərinə əsasən, filiz faydalı qazıntıların istismarı ilk olaraq 3 istiqamətdə aparıla bilər. Bunlara əlvan metallar və onların metallurgiyası, tikinti materialları və son olaraq nadir metallar aiddir. Həmçinin vurğulanır ki, tikinti materialları və əlvan metallar ənənəvi iqtisadiyyata xas sahələrdir və burada mövcud olan resurslar bu cür iqtisadi sahələrdə yeni güclərin formalaşmasına şərait yaradacaqdır (https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193). Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayolarında yerləşən azad edilmiş ərazilərimizdə inkişaf perspektivləri yüksək olan sənaye sahələrindən biri də aqrar-sənaye sahəsidir. Bu ərazilərin aqrar potensialını nəzərə aldıqda bölgədə aqrar-sənayenin inkişaf edəcəyi açıq-aydın görünməkdədir. Sözügedən sahənin inkişafı üçün müasir texnologiyaların tətbiq edilməsi kənd təsərrüfatının intensiv inkişaf etdirilməsinə yol açacaq. Bununla da əkin sahələrindən daha çox və daha keyfiyyətli məhsul götürülməsi mümkün olacaq. Torpaqlarımızın azad edilməsilə əkinə yararlı torpaqlarımızın həcmi artmışdır ki, bu isə bu sahənin ekstensiv inkişafına da yol açmaqdadır. Bütün bunlar işğaldan azad edilmiş rayonlarımızda sosial-iqtisadi infrastrukturun yüksək səviyyədə formalaşacağını düşünməyə əsas verən amillərdəndir. İşğaldan azad edilmiş rayonlarımızda sənaye və kənd təsərrüfatının inkişaf etdirilməsi, sosial infrastrukturun bərpa edilməsi əhalinin məşğulluğunun təmin edilməsinə, sosial problemlərin azalmasına gətirib çıxaracaqdır.

Kənd təsərrüfatı və sənaye potensialından əlavə, bölgədə turizm sektorunun yüksək səviyyədə inkişaf etdirilməsi üçün böyük imkanlar vardır. Bu ərazilərin coğrafi relyefi, iqlimi, o cümlədən çayları, dağlıq və meşə əraziləri, qoruqları, tarix və mədəniyyət abidələri, mineral suları və s. ölkəmizin turizm sahəsinin inkişaf etdirilməsində müstəsna əhəmiyyətə malikdir. Qeyd olunanlar həm ölkə ərazisindən, həm də xarici ölkələrdən bu bölgəyə böyük turist axını formalaşdırcaqdır. Turizm sektorunun inkişafı bu bölgədə xidmət sektorunun da inkişafına səbəb olacaqdır. Bütün bunları nəzərə aldıqda Qarabağın yaxın gələcəkdə Qafqaz regionunun ən böyük turizm mərkəzlərindən birinə çevriləcəyi kifayət qədər real görünür. Qarabağda yeni turizm mərkəzlərinin açılmasının bölgənin sığorta sektorunun inkişafı üçün müstəsna əhəmiyyəti vardır. Turizm şirkətləri xidmət səviyyələrini yüksəltmək üçün bəzi sığorta növlərindən istifadə edə bilər. Bunlara həmin şirkətlərin mülki məsuliyət sığortası və qeyri-həyat sığortasının könüllü sığorta növlərindən olan əcnəbilər üçün tibbi sığorta növlərini misal göstərmək olar.

Qeyd etdiyimiz bütün bu iqtisadi sahələrin inkişafı nəticəsində Azərbaycana daxil olan valyuta axınında artım müşahidə ediləcəyi gözlənilir. Qeyd etdiyimiz iqtisadi sahələrdən başqa regionda müasir dövrdə hər bir ölkə üçün çox böyük strateji əhəmiyyəti olan energetika sektorunun da inkişaf etdirilməsi planlaşdırılır. Hələ torpaqlarımız yenicə işğaldan azad edildiyi zamanda ölkə başçısı İlham Əliyev bu əraziləri yaşıl enerji zonası adlandırmışdı. Alternativ enerji mənbələri ölkənin enerji təminatının şaxələndirilməsi, enerji təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, ekosistemə zərər vermədən enerji əldə etməyimizə imkan yaradır. Bütün bunlara diqqətə etdikdə hazırki dönəmdə alternativ enerji mənbələrindən istifadə edilməsinin çox vacib olduğu aydın olur. İşğaldan azad edilmiş ərazilərimiz alternativ enerji əldə etmək üçün geniş imkanlara sahib olan bölgədir. Burada çay şəbəkəsinin sıx olması bu ərazilərdə SES-lərin tikilməsinə əlverişli şərait yaratmaqdadır. Torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra Azərbaycan və İran arasında imzalanan saziş əsasında Araz çayı üzərində SES-lərin tikintisinin davam etdirilməsi üçün bu

istiqamətdə işlərə başlanıldı. Eyni zamanda bölgədə mövcud olan su anbarları elektrik enerjisi istehsalı ilə yanaşı, əkin sahələrində meliorasiya və suvarma işlərinin həyata keçirilməsi üçün böyük perspektivlərə malikdir ki, bu da azad edilmiş ərazilərdə və ətraf rayonlarda kənd təsərrüfatının inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyətə malikdir. Bölgədəki SES-lər və su anbarları burada yaradılacaq sənaye müəssisələrinin enerji və su təminatını təmin edəcəkdir.

Bütün bu deyilənlər bizə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının gələcək dövrlərdə Azərbaycan iqtisadiyyatının güclənməsində və ölkə ÜDM-sinin xeyli miqdarda artmasında, eləcə də Azərbaycanın sığorta bazarının inkişaf tendensiyasının sürətlənməsində müstəsna rola sahib olacağını deməyə əsas verir. Bunlar da öz növbəsində Azərbaycan Respublikasının Dövlət büdcəsi gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaqdır. Bəzi proqnozlara görə 2050-ci illərdə işğaldan azad edilən ərazilərimizin maliyyə potensialı 300-370 milyard ABŞ dollarına qədər artacaq (Xudiyev N.N., 2021). Bu ərazilərdə "Paşa" Sığorta, "Atəşgah" Sığorta və s. şirkətlərin filiallarının yaradılması, öz yurdlarına qayıdan əhalinin əmlaklarının, yeni tikilən müəssələrin, aeroportların, turizm mərkəzlərinin və s. sığortalanması nəticəsində sığorta sisteminin inkişafında və sığorta bazarının böyüməsində torpaqlarımızın azad edilməsinin böyük rol oynayacağı gözlənilir.

## 3.2. Beynəlxalq hüquq normaları çərçivəsində dəymiş zərərlərə görə Ermənistandan tələb edilə biləcək təzminatlar

İşğaldan azad edilən ərazilərimizin iqtisadi potensialı fonunda işğal nəticəsində Azərbaycan iqtisadiyyatına və dövlət büdcəsinə dəymiş maddi zərərlərin qiymətləndirilməsini apardıq. Qeyd etməliyik ki, əvvəlki fəsillərdə yalnız 1-ci Qarabağ müharibəsi zamanı ölkəyə dəymiş maddi zərərlər və atəşkəs illəri ərzində büdcəmizə daxil olacaq itkilərin həcmini təyin etmişik. Lakin dəymiş zərərlər bunlarla yekunlaşmır, vurulmuş maddi zərərlərdən başqa, bu işğal nəticəsində Azərbaycan xalqına böyük mənəvi zərər vurulmuşdur. Ermənistan tərəfi bu əraziləri işğal edərkən

beynəlxalq hüquq normalarını kobud şəkildə pozmuşdur. Bunlara 1974-cü ildə qəbul edilmiş BMT Baş Assambleyasının 3318 saylı "Silahlı münaqişələr zamanı qadın və uşaqların müdafiəsi haqqında" qətnaməsini, 1949-cu ildə qəbul edilmiş "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" Cenevrə Konvensiyalarını, həmçinin 1977-ci ildə bu konvensiyalara əlavə edilmiş "Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında" protokolunu nümunə göstərə bilərik (Süleymanov E.S., Süleymanov V.E., 2012). Ermənistanın vurduğu zərərlərə tarixi-mədəni abidələrimizə vurduğu zərərlər, həmçinin işğal müddəti ərzində ekoloji sistemə vurulan zərərlər də daxildir ki. Bu zərərlərin həcmi də çox yüksəkdir. Təkcə işğal nəticəsində ekologiyaya dəymiş zərərin həcminin 265 milyard ABŞ dollarını ötdüyü bildirilir. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri və "Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu" tərəfindən hələ 2014-2016-cı illər arasında erməni işğalı səbəbindən ekologiya və təbii sərvətlərimizə dəymiş zərərlərlərin həcminin qiymətləndirilməsi üçün araşdırma aparılmışdır. Bu hesabatda Azərbaycanın talan edilmiş faydalı qazıntıları, məhv edilmiş ekosistemi və ölkə əhalisinə vurulan mənəvi-ekoloji zərər tədqiq edilmişdir. Hesabatın nəticələrinə əsasən, dəymiş zərərlərin ümumi miqdarı 265.281.198.203 ABŞ dolları həcmindədir (http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574).

Qeyd etdiyimiz kimi, Ermənistanın silahlı təcavüzü və torpaqlarımızı işğal etməsi səbəbindən 1-ci Qarabağ müharibəsi dövründə Azərbaycana dəymiş birbaşa maddi zərər 118.800.000.000 ABŞ dolları, 1994-2021-ci illər ərzində işğal edilmiş ərazilərimizdə itirilən dövlət büdcəsinə daxilolmaların həcmi isə (hər il üzrə itkilərin nominal qiymətlərinin cəmi əsasında) 19.112.690.182 ABŞ dolları təşkil edir. Əgər bu 20 milyard ABŞ dollarına yaxın məbləği 2022-ci ilin ABŞ dollarının alıcılıq qabiliyyətinə əsasən qiymətləndirsək, büdcə daxilolmalarındakı itkilərin ən azı 25 milyard ABŞ dolları tə deyə bilərik. Eyni zamanda işğal nəticəsində ekologiya və təbii sərvətlərimizə dəymiş  zərərin (təkcə 2016-cı ilə qədər) 265.281.198.203 ABŞ

dolları, dövlətimiz tərəfindən ata-baba yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində çəkilən sosial xərclərin isə təqribən 10 milyard manat olduğunu nəzərə aldıqda, hərbi təcavüz və işğal nəticəsində ölkəmizə vurulan maddi ziyanın ümumilikdə 400 milyard ABŞ dollarını ötdüyünü müəyyən etmiş oluruq. Qeyd edək ki, göstərilən rəqəm dəymiş zərərlərin miqdarını tam formada əks etdirmir və vurulan bəzi zərərlər bu hesablamada göstərilmir. Müharibələr və işğal nəticəsində xalqımıza vurulan mənəvi zərərlər, 2-ci Qarabağ müharibəsində Tərtər, Gəncə, Bərdə, Ağcabədi və s. bölgələrin infrastrukturuna, buradakı mülki obyekt və binalara vurulmuş zərərlər, tarixi-mədəni abidələrimizə vurulan zərərləri qeyd olunan rəqəmin üzərinə əlavə etdikdə və xüsusən də illər ərzində büdcə daxilolmalarındakı itkiləri hər ilin nominal qiyməti ilə deyil, ABŞ dollarının hazırki qiymətləri əsasında hesabladıqda bu məbləğ daha da artacaqdır.

Bütün bu zərərlərin müqabilində Azərbaycan Respublikası Ermənistandan beynəlxalq hüquqa görə təzminat almaq hüququna malikdir. Bununla bağlı BMT-nin bir sıra qətnamələrini göstərə bilərik. BMT Baş Assambleyasının 14 dekabr 1974-cü ildə qəbul edilmiş 3314 saylı qətnaməsinin 5-ci maddəsinin 2-ci bəndinə əsasən, təcavüz xarakterli müharibə beynəlxalq sülhə qarşı cinayətdir və təcavüz beynəlxalq məsuliyyət yaradır (http://hrlibrary.umn.edu/instree/GAres3314.html). 2001-ci il dekabr ayının 12-də qəbul edilən 56/83 saylı qətnamədə isə beynəlxalq məsuliyyətlə bağlı qeyd edilir ki, beynəlxalq hüquqazidd hərəkət nəticəsində yaranan dövlətin beynəlxalq məsuliyyəti özündə hüquqi nəticələri ehtiva edir. Həmçinin həmin qətnamənin 31-ci maddəsinin 1 və 2-ci bəndlərinə əsasən, məsuliyyət daşıyan ölkə beynəlxalq hüquqazidd olan hərəkət nəticəsində dəymiş zərəri tam şəkildə kompensasiya etmək öhdəliyini daşıyır və bu zərərlərə həm maddi, həm də mənəvi zərərlər daxildir (United Nations, 2007). Daha sonra qətnamənin 2-ci fəslində təzminatın formalarından bəhs edilir. Belə ki, 34-cü maddədə qeyd olunur ki, dəymiş zərərin tam ödənilməsi restitusiya (geri qaytarılma), kompensasiya (əvəzləmə) və satisfaksiya

(məmnuniyyət, razılıq) formaları ilə yerinə yetirilə bilər. Bu formalardan həm ayrılıqda, həm də birlikdə istifadə oluna bilər. Sonrakı maddələrdə isə bu formaların mahiyyəti və detalları qeyd edilir. Qətnaməyə əsasən, təcavüzkar ölkə restitusiya həyata keçirmək öhdəliyi daşıyır. Belə ki, həmin ölkə işğal etdiyi və ya silahlı təcavüz etdiyi əraziləri əvvəlki vəziyyətinə qaytarmağa borcludur. Bunlara işğal edilmiş ərazilərin geri qaytarılması, məcburi köçkünlərin öz yurdlarına qayıtmasına şərait yaratmaq, onların əmlaklarının geri qaytarılması, hüquqlarının bərpa edilməsi və s. daxildir. Buna əsasən, Ermənistan öz hərbi birləşmələrini Qarabağdan geri çəkməli idi. Lakin bildiyimiz kimi, Ermənistanın geri çəkilməməyə israr etməsi, beynəlxalq təşkilatların və böyük dövlətlərin bu cinayətlərə göz yumması nəticəsində Azərbaycan ordusu özü bu qətnamələri icra etdi. Zərərin ödənilməsinin digər forması olan kompensasiya isə 36-cı maddəyə əsasən, təcavüz nəticəsində vurulmuş və restitusiya edilə bilinməyən zərərin əvəzinin ödənilməsidir. Bu zərərlərə maliyyə itkiləri də daxil olmaqla maliyyə cəhətindən qiymətləndirilə bilən istənilən zərər daxildir. Kompensasiya ödənişi forması beynəlxalq təcrübədə ən çox istifadə edilən zərərin ödənilməsi üsuludur. Restitusiyanın həyata keçirilməsi bir çox hallarda qeyri-mümkün olur, xüsusilə də dəymiş zərəri tam şəkildə əhatə etmir və buna görə də kompensasiya ödənilməsi lazım gəlir (Süleymanov E.S., Süleymanov V.E., 2012; United Nations 2007).

Beynəlxalq hüquq əsasında təsdiq edilmiş bu qətnamələrə görə Ermənistan dövləti hərbi təcavüz və torpaqlarımızı işğal etməsi nəticəsində vurmuş olduğu zərərlərə görə Azərbaycana kompensasiya ödənilməsi üçün məsuliyyət daşıyır. Yuxarıda göstərdiyimiz rəqəm Ermənistanın illik gəlirlərindən təxminən 135 dəfə artıqdır. Lakin beynəlxalq hüquqa görə təzminat ödəməyə borclu olan dövlətin iqtisadi gücü, zərəri qarşılamaq potensialı və təzminatın ödənilməsində aciz qalması nəzərə alınmır. Həmçinin beynəlxalq praktikada təzminatın vurulan zərəri mümkün olduğu qədər tam şəkildə kompensasiya etməsi hədəflənir. Bunun həyata keçirilməsi məqsədini özündə ehtiva edən prinsip tam təzminat (full reperation) prinsipi adlanır.

Bu prinsipə əsasən, bütün mənfi nəticələr aradan qaldırılmalı, vurulmuş bütün zərərlər ödənilməli və təzminatın miqdarı zərərə nisbətdə az olmamalıdır. Lakin təcrübədə çox zaman bütün zərərləri tam və hərtərəfli şəkildə aradan qaldırmaq mümkün olmur. Bu halda isə tam təzminat prinsipinə görə zərərlər mümkün olan ən yaxşı şəkildə aradan qaldırılmalı və zərərdən əvvəlki vəziyyətə qaytarılmalıdır. Ödəniləcək təzminat vurulmuş zərərlə uyğunluq təşkil etməlidir. Bu baxımdan tam təzminat prinsipinin nəticəsi ödənilməli təzminatın vurulmuş zərərdən az olmaması düşüncəsidir (Erkiner H.H.K., Kavak M.H., 2021: s. 1-30). Bunları nəzərə aldıqda Ermənistanın istənilən halda Azərbaycana təzminat vermək məsuliyyəti daşıdığını görürük. Təzminatın ödənilməsi üçün Ermənistana hər il müəyyən məbləğ təyin edilə və hər il Azərbaycana həmin məbləğdə kompensasiya ödəməsi tələb oluna bilər.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri əks hücum əməliyyatına başladı. Azərbaycan tarixinin şanlı səhifələrinə Vətən müharibəsi adı ilə yazılan bu müharibədə Azərbaycan ordusu 28 illik həsrətə son qoyaraq tarixi torpaqlarımız olan Qarabağımızı bizə geri qaytardı. Bu müharibədə əldə etdiyimiz qalibiyyətlə, ölkəmiz beynəlxalq siyasi arenada, o cümlədən regionda öz sözünü demiş oldu. Ordumuz BMT-nin yalnız kağız üzərində qalan qətnamələrini öz qüdrəti hesabına icra etdi. Artıq ölkə olaraq qarşımızda duran ən əsas və əhəmiyyətli vəzifələrdən biri dağıdılaraq məhv edilmiş bu ərazilərin sosial-iqtisadi infrastrukturunu bərpa etmək, həmin ərazilərin iqtisadi gücünü geri qaytarmaq və artırmaqdır. Tarix boyu bir çox ölkələrdə müharibələrin, təbii fəlakətlərin və s. nəticəsində böyük şəhər və regionların infrastrukturu dağıdılmışdır. Lakin bu ölkələr həmin əraziləri yenidən bərpa etməyə, hətta dünyanın ən qabaqcıl və öndə gedən iqtisadiyyatına sahib olan regionlara çevirməyə nail olmuşdurlar. Bu ərazilərin iqtisadi potensialı ölkəmizin iqtisadi gücünün artırılmasında böyük rol oynaya bilər. Bu torpaqlarda olan güclü iqtisadi baza Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarında yeni inkişaf mərhələlərinə zəmin yaradacaqdır. Bunlara sənaye, kənd təsərrüfatı, turizm, xidmət, ticarət və logistika sahələrini misal göstərə bilərik.

Dövlətimiz və xalqımız 30 ilə yaxın müddət ərzində Şərqi Zəngəzur və Qarabağın iqtisadi imkanlarından məhrum olmuşdur. Bu illər ərzində işğal edilmiş ərazilərimizdəki resurslarımız ermənilər tərəfindən qəsb və talan edilmişdir. Bununla yanaşı, illər boyu bu ərazilərimizdən Azərbaycanın dövlət büdcəsinə milyardlarla ABŞ dolları gəlir daxil ola bilərdi, lakin işğal səbəbindən ölkəmiz bu ərazilərdən gəlir əldə edə bilməmişdir. Həmçinin işğal səbəbindən 600 mindən artıq insan tarix boyu ata-babalarının yaşadıqları torpaqlardan didərgin düşmüş və ölkəmizdə ciddi sosial problemlər yaranmışdır. Bütün bunların fonunda erməni işğalının dövlətimizə və xalqımıza vurduğu maddi zərərin miqdarı yüz milyardlarla ABŞ dolları dəyərindədir. Tədqiqatın sonunda vurulan zərərlərə ayrı-ayrılıqda bir daha nəzər salaq:

- 1994-cü ilin qiymətlərilə ümumilikdə işğal edilmiş rayonlarımıza, eləcə də cəbhəyanı və sərhədyanı rayonlarımıza hərbi təcavüz və müharibə nəticəsində təxminən 60 milyard ABŞ dolları həcmində zərər vurulmuşdur. Lakin 1994-cü ildən cari dövrə kimi ABŞ dollarının 1,98 dəfə inflyasiyaya məruz qaldığını və alıcılıq qabiliyyətinin aşağı düşdüyünü nəzərə aldıqda, bu zərərin daha böyük olduğu aydın olur. Beləliklə, 60 milyardı 1,98-ə vurduqda, 1-ci Qarabağ müharibəsi zamanı Azərbaycana vurulan birbaşa zərərin həcminin hazırki qiymətlərlə 118.800.000.000 ABŞ dolları təşkil etdiyi görürük.

- 1994-cü ildən 2021-ci ilə qədər olan zaman kəsimində yüksək iqtisadi potensiala malik olan bu ərazilərimizdə təxminən bir 120 milyard, daha dəqiq desək 119.454.313.636 ABŞ dolları dəyərində ÜDM istehsal edilə bilərdi.

- Azərbaycanın sığorta sisteminin ÜDM-dəki payının təxminən 0,7 % təşkil etdiyini qəbul etsək, işğala məruz qalmış ərazilərimizdə 1994-cü ildən cari dövrə qədər 8.361.800.000 ABŞ dolları həcmində sığorta haqqı yığılmalı idi. Sığorta haqlarında ortalama vergi yükü vasitəsilə işğal nəticəsində sığorta sektorundan dövlət büdcəsinə daxilolmaların itkisinin təqribi həcmini hesablaya bilərik. Sığorta haqlarındakı vergi yükünü 6 % olaraq qəbul etsək, torpaqlarımızın işğalı səbəbindən 1994-cü ildən indiyə qədər sığorta sektorundan dövlət büdcəsinə daxilolmaların itkisinin 501.708.000 ABŞ dolları məbləğində olduğu aşkar olur.

- Azərbaycanda 1994-2021-ci illər üzrə vergi daxilolmalarının toplam ÜDM istehsalındakı xüsusi çəkisinin 14% təşkil etdiyini və vergi güzəştləri kimi bir sıra amilləri nəzərə alaraq işğal edilmiş ərazilərin ÜDM-dəki ortalama vergi yükünün 16% olduğunu qəbul edə bilərik. Analoji olaraq itirdiyimiz 120 milyard dollara yaxın ÜDM-nin 16 %-ini hesabladıqda, işğal səbəbindən azad edilmiş ərazilərimizdə itirdiyimiz büdcədaxilolmalarının həcminin 19.112.690.182 ABŞ dolları olduğunu müəyyən etmiş oluruq.

- Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri və “Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və tələfatların

qiymətləndirilməsi üzrə İşçi Qrupu" birlikdə 2014-2016-cı illərdə işğal nəticəsində ətraf mühitə və təbii sərvətlərimizə vurulan zərər haqqında hesabat hazırlamışdılar. Bu hesabata əsasən, təkcə 2016-cı ilə qədər bu zərərin məbləği 265.281.198.203 ABŞ dolları həcmində idi. 2020-ci ilə qədər torpaqlarımızın işğalda olduğunu və resurslarımızın bu dövrdə də istismar edildiyini nəzərə aldıqda bu rəqəm daha da artacaqdır.

- İşğal nəticəsində öz yurdlarından didərgin düşmüş məcburi köçkünlərin sosial ehtiyaclarını təmin etmək üçün 2021-ci ilə qədər Azərbaycan Respublikasının dövlət büdcəsindən təqribən 7,08 milyard manat, Dövlət Neft Fondundan isə 2,5 milyard manat olmaqla, ümumilikdə 9,58 manat vəsait ayrılmışdır.

Bu zərərləri topladıqda, erməni silahlı qüvvələrinin ölkəmizə ümumilikdə 412.773.888.385 ABŞ dollarından çox zərər vurduğu aydın olur. Lakin dəymiş zərərlər qeyd olunanlarla yekunlaşmır. Vurulan maddi zərərlərlə yanaşı, işğal nəticəsində Azərbaycan xalqına böyük mənəvi də zərər vurulmuşdur ki, bu zərərin hesablanması üçün mütəxəssislər xüsusi qiymətləndirmə meyarları əsasında tədqiqat aparmalıdırlar.

BMT-nin 1974-cü il 14 dekabrda qəbul etdiyi 3314 saylı və 2001-ci il 12 dekabrda qəbul etdiyi 56/83 saylı qətnamələrinə əsasən, Ermənistan vurduğu zərərlərə görə məsuliyyət daşıyır və təzminat ödəməyə borcludur. Buna əsasən, təzminatın ödənilməsi üçün Ermənistana hər il müəyyən məbləğ təyin edilə və hər il Azərbaycana həmin məbləğdə kompensasiya ödənilməsi tələb oluna bilər. Lakin illik 2-3 milyard ABŞ dolları büdcəsi və illik gəliri olan və hər ilin sonunu büdcə defisiti ilə başa vuran bir dövlətin 400 milyard dollardan artıq olan kompensasiyanı ödəməsi mümkün deyil. Buna görə də təzminatı ödənilməsi üçün Ermənistana müəyyən şərtlərin qoyulması məqsədəuyğundur. Belə ki, bunun üçün Ermənistandan ordu xərclərini ciddi şəkildə azaltması və ya sıfıra endirməsi və ordu sayının Azərbaycanın icazə verdiyi qədər saxlanılması tələb edilə bilər. Yalnız bu yolla Ermənistanın illik büdcə gəlirləri büdcə xərclərini üstələyə bilər və həmin gəlirlərdən Azərbaycana

kompensasiya ödəmə imkanı əldə edə bilər. Amma düşünürük ki, bu yol da kifayət qədər uğurlu yol deyil. Çünki, bu üsulla Ermənistan Azərbaycana ən yaxşı halda 250-300 il təzminat ödəməlidir ki, vurulan zərəri kompensasiya edə bilsin. Bu halda vurulmuş zərəri kompensasiya etmək üçün ən münasib yol Sovet imperiyasının Ermənistana SSR-ə bağışladığı, 1918-1920-ci ildə beynəlxalq müstəvidə Azərbaycan Xalq Cümhuriyyətinin əraziləri kimi tanınan və tarixi torpaqlarıımız olan Zəngəzur, Dərələyəz və Göyçə mahallarının təzminat olaraq Azərbaycana geri qaytarılmasıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2021
2. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası (2005), Ermənistan – Azərbaycan münaqişəsi, Bakı - 399 səh.
4. Ataşov B.X., Novruzov N.A. və İbrahimov E.Ə. (2014), “Maliyyə nəzəriyyəsi”, Bakı - 648 səh.
5. Bulut C. və Süleymanov E. (2011), Dövlət maliyyəsi, Bakı – 324 səh.
6. Dövlət Statistika Komitəsinin müəllifin 27.04.2022-ci il tarixili 02/2-126 nömrəli məktubuna qoşması
7. Əliyeva Təranə, “İşğaldan azad olunmuş ərazilərdə kommunikasiya problemlərinin həlli yolları”, “UNEC Expert” jurnalı № 9-10, 2021, səh. 30
8. Fikrətzadə Firdovsi və Səadət Hacıyeva, “İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfati sahəsinin bərpasi istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması”, “Kənd Təsərrüfatının İqtisadiyyatı” elmi-praktiki jurnal № 4 (34), Bakı, 2020, səh.3
9. Xudiyev Nizami (16-22 sentyabr, 2021). “Qarabağ iqtisadi rayonunun maliyyə potensialı onun iqtisadi artım və inkişaf strategiyasının əsasıdır”, “İqtisadiyyat” qəzeti, səh. 4
10. Hüseynov Bəxtiyar, “Ekoloji terrora məruz qalmış Qarabağ təbiəti dirçəldilir”, “Xalq qəzeti”, 2021, № 246, səh. 6
11. Balakişiyev (Qaraca) B.Q., “Dünyanın qaçqınlıq bəlası”, “Azərbaycan” qəzeti, 2013, səh. 4
12. Qarayev R.M (2012), Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasinda beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq, Bakı - 344 səh.

13. Manafov Qabil, “İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri”, “UNEC Expert” jurnalı № 9-10, 2021, səh. 6

14. Məmmədov Akif, “Qarabağın işğaldan azad olunmuş Ağdam rayonunun iqtisadiyyatı: reallıqlar, perspektivlər”, “UNEC Expert” jurnalı № 9-10, 2021, səh. 43

15. Novruzov N.A. və İbrahimov E.Ə. (2012), “Büdcə sistemi” Ali məktəblər üçün dərslik, Bakı – 472 səh.

16. Sadıqov Elnur, “Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri”, “UNEC Expert” jurnalı № 9-10, 2021, səh.14

17. Səmədzadə Z.Ə., “İşğaldan azad olunmuş ərazilərin bərpasi proqramı və iqtisadi rayonlaşma məsələləri”, Sumqayıt Dövlət Universiteti konfrans materialları № 2, 2021, səh. 4

18. Süleymanov E.S. və Süleymanov V.E (2012), “Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri”, Bakı - 181 səh.

**İngilis dilində**

1. FAO (2020), “Global Forest Resources Assessment 2020: Azerbaijan report”, Rome - 67 p.

2. James S. and Nobes C. (2012-2013), “The Economics of Taxation: Principles, Policy and Practice”, Birmingham - 340 p.

3. OIC (2008), “Resolutions on economic affairs adopted by the eleventh session of the Islamic Summit Conference”, Dakar - 43 p.

4. United Nations (2007), “Yearbook of International Law Commission 2001” vol.II, part 2, New York and Geneva - 210 p.

5. XPRIMM (2015), Insurance Report Full Year 2014, Bucharest - 104 p.

6. XPRIMM (2020), Insurance Report Full Year 2019, Bucharest -108 p.

7. XPRIMM (2022), Insurance Report Full Year 2021, Bucharest – 88 p.

## Türk dilində

1. Erkiner Hakkı Hakan, Kavak Muhammed Halid "Uluslararası sorumluluk hukukunda devletlerarası zararlara yönelik tazminatın belirlenmesi", Yıldırım Beyazıt Hukuk Dergisi, sayı 1, 2021, səh. 1-30

## İnternet resursları

1. Azərbaycan Avtomobil Yolları Dövlət Agentlliyi, http://www.aayda.gov.az/az/news/2960, 2021
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/, 2022
3. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, http://idp.gov.az
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Ermənistan-Azərbaycan münaqişəsi, https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf
5. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/2021, 2021
6. Ekologiya və Təbii sərvətlər Nazirliyi, "İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş ziyan", http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf
7. Human Rights Library - University of Minnesota, http://hrlibrary.umn.edu/instree/GAres3314.html
8. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=5195, 2021
9. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574, 2016
10. https://azertag.az/xeber/217774/, 2013
11. https://azertag.az/xeber/1706353, 2021
12. https://e-qanun.az/framework/33288, 2016

13. https://aztv.az/index.php/az/news/11143/qarabagda-kend-teserrufati-ile-bagli-yeni-planlar-fermerler-boyuk-qayidisi-gozleyir, 2022

14. https://minenergy.gov.az/az/xeberler-arxivi/isgaldan-azad-olunan-erazilerimizde-tezlikle-isiqli-gunler-baslayacaq, 2020

15. https://president.az/az/articles/view/35963, 2020

16. https://president.az/az/articles/view/49197, 2020

17. https://president.az/az/articles/view/49933, 2021

18. https://president.az/az/articles/view/54776, 2021

19. https://president.az/az/articles/view/55603, 2022

20. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, https://ereforms.gov.az/az/media/xeberler/ermenistanin-azerbaycana-tecavuzu-neticesinde-dinc-ehaliye-ve-mulki-infrastruktura-deymis-ziyan-192, 2020

21. “Qaçqın və məcburi köçkünlərə yüksək dövlət qayğısı davam edir”, “Azərbaycan” qəzeti, 2010, №280, səh 1, https://www.elibrary.az/docs/QAZET/qzt2010_3428.pdf

22. U.S. Bureau Labour Statistics, https://data.bls.gov/cgi-bin/cpicalc.pl?cost1=1.00&year1=199401&year2=202204/

# Cədvəllərin siyahısı

**Cədvəl 1:** Dövlət büdcəsinin gəlir və xərcləri (milyon manatla).....................................................17
**Cədvəl 2:** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri....18
**Cədvəl 3.** Fiziki şəxslərin aylıq gəlirlərindən tutulan vergilərin dərəcələri......................................21
**Cədvəl 4.** Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərinin aylıq gəlirlərindən tutulan vergilərin dərəcələri.........................................................21
**Cədvəl 5.** 1980-ci illər üzrə əkin sahələrinin strukturu (hektar).......................................................30
**Cədvəl 6.** Heyvanların sayı (min baş)..................................................................................................32
**Cədvəl 7.** Azərbaycan Respublikasının illər üzrə ümumi daxili məhsul istehsalının statistikası.......50
**Cədvəl 8:** Azərbaycanın iqtisadi rayonlarında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışında xüsusi çəkisi.........................................................................................................................................52
**Cədvəl 9.** Azərbaycan Respublikasının sığorta sektorunun inkişaf dinamikası................................54
**Cədvəl 10.** İşğal nəticəsində AzərbaycanRespublikasının sığorta sektorundan dövlət büdcəsinə daxilolmaların itkisi (ABŞ dolları)..........................................................................................55
**Cədvəl 11:** Azərbaycanın Respublikasında illər üzrə ÜDM istehsalında vergi daxilolmalarının xüsusi çəkisi (milyon manatla)..........................................................................................57